# 12 Dekabr Ulu Öndər Heydər Əliyevin Anım Günüdür


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 271 (30387) 12 dekabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## MÜZƏFFƏR RUH – əbədiyaşarlığın 20 ili



**Cismən yoxluğunun iyirminci ilində xalqımız ulu öndər Heydər Əliyevi qədirbilənliklə anır. Bu qədirbilənlik son dərəcə böyük dəyərdir. Xalqımıza milli indektiklik, özünəməxsusluq qazandıran dəyər. “Heydər Əliyev ili” isə hər çaları ilə özünəməxsusluğumuzu təsdiqləyir.**

Qətiyyətlə demək olar ki, milli identikliyimiz ötən 100 ilin hər günündə inkişaf tapdı, sanki yoxdan vara qovuşdu. Əlbəttə, bu yol heç də asan olmadı. Azərbaycan çətinliklər, məhrumiyyətlər gördü. Vətənimiz hansı çətinliklərlə üzləşdisə, Ulu öndər də onun önündə oldu, həmin müşküllərin hər birini yaşadı, ağrı-acısını çəkdi. Çiyinlərini ağır bir yükün altına verdi, amma geri çəkilmədi, usanmadı, müqəddəs amalından bir an belə dönmədi. Əksinə, irəli doğru atdığı addımları daha da qətiləşdirdi.

Heydər Əliyev şəxsiyyəti yaşa dolduqca Azərbaycan kamilləşdi, özünə ağır-batmanlıq libası geyindi. Hazırda xalqımız sanki bütövləşmiş və fərdiləşmiş Heydər Əliyevdir. Onun kimi qüdrətli, onun qədər prinsipial və əzəmətli. Bu əzəmət və qüdrət Uca Tanrının xalqımıza ərməğanı, ötən 100 ilimizi zənginləşdirən lütfüdür. Heydər Əliyevin qurduğu Azərbaycan, sözün əsl mənasında, vətənləşmiş Azərbaycandır.

(ardı 5-ci səhifədə)

# Azərbaycan dünyaya Günəş kimi doğub

## Prezident İlham Əliyevin Serbiyaya işgüzar səfəri

### *Niş şəhərinin “Konstantin Veliki” hava limanında qarşılanma*

**Dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin dəvəti ilə Serbiyaya işgüzar səfərə gəlib.**

Niş şəhərinin “Konstantin Veliki” hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Serbiya Baş nazirinin müavini, maliyyə naziri Sinişa Mali və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***



# Tarix üzərində zəfər



**Şəxsiyyətin tarixdə rolu bütün zamanlarda insanlığı düşündürmüş, bəşəriyyətin zəkasını məşğul etmişdir. Kommunist ideologiyasının sovet rejimində zorla yürütdüyü “kütlə tarixin yaradıcısıdır” konsepsiyasi özünü dogrultmadı və elə tarixin öz əli ilə də biabircasiına iflasa uğradıldı.**

Fikrimizcə, kütlə tarixin xammalıdır, tarixin yaradıcıları isə böyük səxsiyyətlər, dahilər və liderlərdir. Tarix üzərində parlaq zəfər çalmış belə liderlərdən biri də ümummilli lider Heydər Əliyev idi. Zəmanəmizin məshur siyasətçisi, mahir dövlət qurucusu, dönməz iradə sahibi və istedadlı natiq, filosof, tarixçi və mədəniyyətşünas Heydər Əliyev tarix yaratdı, öz misilsiz amalları ilə Azərbaycan xalqının Ümummilli lideri zirvəsinə ucaldı.

(ardı 5-ci səhifədə)



# Milli yaddaşın müqəddəs məkanı

### Sokrat paradoksu və “yaddaş məkanı”

Sokrat həmişə paradoksaldır. Ona görə də böyük filosofdur. Lakin onun fəlsəfəsinin fəzilət tərəfinin məhz paradokslarının arxasında canlı mətn yaradan, “daxili yaşantı”ları “oyadan” fikir böyüklüyü, orijinallığı vardır. Sokratın (həm də Platonun) yuxarıdakı paradoksunun arxasında bir anlam dayanır: Yaddaş! Daha doğrusu, insan hər anında həm yada salır, xatırlayır, həm də yaradır! Anmaq bu mənada insanı daim yaddaşlar yaratmaq, keçmişlə indi, indi ilə gələcək arasında bağlantı qurmaq deməkdir. Sözün həm ontoloji, həm də metaforik mənasında!

Müasir fransız tarixşünaslığının əfsanələrindən olan Pyer Nora tarixi yaddaşı (həm də mədəniyyət yaddaşını, kollektiv yaddaşı) araşdırarkən belə bir anlayış daxil etmişdir: “yaddaş yeri”. Bu anlayış hər hansı toplumun (xalqın, millətin) kollektiv surətdə yaddaşında mədəniyyət abidələrini, dini abidələri, yazılı abidələri və böyük şəxsiyyətlərin fəaliyyətini yadda saxlamasını ifadə edir. Hər xalqın da öz “yaddaş yeri” mövcuddur! O “yaddaş yerləri” toxunulmazdır, müqəddəsdir! Onların müqəddəsliyi bütün cəmiyyətin həyatında oynadıqları rola görədir. Yəni mistik və ya fantastik deyildir, kimlərinsə xəyalının məhsulu deyildir.

(ardı 10-cu səhifədə)

# “Heydər Əliyev xatirələr işığında”

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə davam edən “Heydər Əliyev İli” çərçivəsində ölkəmizdə işıq üzü görən dəyərli nəşrlərdən birini də “Xalq qəzeti” redaksiyası ərsəyə gətirdi. Ulu öndərin əbədiyyətə qovuşduğu tarixin ildönümü – hər il xalqımızın sonsuz hüzn və böyük kədərlə qeyd etdiyi 12 Dekabr – Anım Günü ərəfəsində işıq üzü görən irihəcmli kitab-albom da məhz “Heydər Əliyev xatirələr işığında” adlanır.**

(ardı 9-cu səhifədə)




# Türkiyə ikinci böyük ticarət tərəfdaşımızdır



Səhifə ⇨ 11

# Ümummilli liderin əbədiyaşar xatirəsi



**Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, ulu öndər Heydər Əliyevin vəfatından 20 il keçir. Heydər Əliyevin vəfatından ötən illər ərzində Türk dünyasının böyük oğlunun, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib.**

Dünəndən başlayaraq, paytaxt sakinləri, ayrı-ayrı idarə, təşkilat, şirkət və müəssisələrin kollektivləri, universitet, kollec və orta məktəblərin müəllimləri dəstə-dəstə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli liderinin məzarını ziyarət edir, önünə çiçək dəstələri düzürlər. Müxbirlərimizin Fəxri xiyabandan hazırladığı reportajı təqdim edirik.

(ardı 6-cı səhifədə)

# Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilib

## *Prezident İlham Əliyev mərasimdə iştirak edib*

**Dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya–Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mərasimdə iştirak ediblər.

Əvvəlcə Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun texniki göstəricilərindən və layihənin əhəmiyyətindən bəhs edən videoçarx nümayiş etdirildi.



**Mərasim iştirakçılarını salamlayan Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç dedi:**

– Əziz Prezident Əliyev, hörmətli Prezident Radev, mən bu gün çıxış edə bilməyəcəyəm. Bizim ölkədə qəribə qanunlar qəbul olunub ki, sən öz ölkəndə nə isə etmisənsə, seçkilərdən bir ay öncə artıq bu layihələri tərifləyə və ölkəni daha da inkişaf etdirmək üçün danışa bilməzsən.

Sizə "Xoş gəlmisiniz!" deyirəm və Serbiyada olduğunuz üçün sonsuz təşəkkürümü bildirirəm. Mən bizim enerji nazirimizdən xahiş edəcəyəm ki, o çıxış etsin. O, bizim partiyanın üzvü deyil və seçkilərdə, siyahılarda adı yoxdur. Bizim avropalı qonaqlar bugünlük bağışlasınlar. Mən bütün həmin qanunlara hörmət edəcəyəm. Narahat olmayın, həmin qanunlara baxmayaraq, biz qələbə qazanacağıq. Bu, böyük qələbə olacaq və bizim hamımızın birgə qələbəsi olacaq. Buna görə çox sağ olun!

***

**Sonra layihə barədə məlumat verən Serbiyanın mədən və energetika naziri xanım Dubravka Djedoviç Handanoviç dedi:**



-Bu layihə uzun illər bundan əvvəl planlaşdırılırdı. Onun həyata keçirilməsi çox uzun çəkdi və biz cəmi bir ildə işi tamamlamağa müvəffəq olduq. Biz qaz nəqli ilə bağlı Azərbaycandan olan dostlarımızla qısa zamanda razılığa gəldik. Əməkdaşlığa görə Azərbaycana, ilk növbədə, minnətdarlığımı bildirmək istəyirəm.

Mən, eyni zamanda, Prezident Əliyevə, Azərbaycandan olan həmkarlarımıza və bizimlə birgə gərgin çalışmış hər kəsə minnətdarlığımı bildirmək istərdim.

Mən qonşularımızla, eləcə də Azərbaycanla daha yaxşı əlaqələrin qurulması istiqamətində göstərdiyi səylərə görə Serbiya Prezidentinə minnətdarlığımı bildirirəm. Azərbaycan sərhəd baxımından bizim qonşumuz olmasa da, sözsüz ki, o, bizim qəlbimizdə xüsusi yeri olan dostumuzdur.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli cənab Prezident Vuçiç, hörmətli cənab Prezident Radev, hörmətli xanım nazir, xanımlar və cənablar!

İlk növbədə, dəvətə və qonaqpərvərliyə görə dostum Aleksandara təşəkkürümü bildirmək istəyirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Bildirməliyəm ki, mən keçən il Serbiyaya rəsmi səfər etmişdim. Ondan bir ay sonra Prezident Vuçiç Azərbaycana səfər etmişdir. Bu gün yenə də sizin gözəl ölkənizdəyəm. Bu, bir daha onu göstərir ki, Serbiya-Azərbaycan əlaqələri sürətlə və dinamik şəkildə inkişaf edir. Biz strateji tərəfdaşıq, çünki strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır və sözdə, sənəddə və əməldə bu yüksək statusa sadiqliyimizi göstəririk.

Əfsuslar olsun ki, Prezident Vuçiçə bu gün rəsmi tədbirdə çıxış etmək üçün müəyyən məhdudiyyətlər tətbiq edilib, onun qeyd etdiyi kimi, qəbul edilmiş qanuna görə. Ancaq buna baxmayaraq, bizim söhbət etmək üçün imkanımız olacaq. Sadəcə olaraq, onu bildirmək istəyirəm ki, bizim Aleksandarla şəxsi dostluq münasibətlərimiz böyük dərəcədə Serbiya–Azərbaycan əlaqələrinin inkişafına xidmət etmişdir. O, ölkəsi üçün çox böyük işlər görür. Onun liderliyi ilə Serbiya uğurla inkişaf edir, müstəqil siyasət aparır. O siyasət ki, Serbiya xalqının və dövlətinin maraqlarına cavab verir. Biz də dostları kimi onun uğurlarına həmişə sevinirik və əməli addımlarla, konkret işlərlə ikitərəfli gündəliyimizi genişləndiririk.

Əminəm ki, bugünkü tədbir və açılışdan sonra interkonnektorun fəaliyyəti Serbiyanın sənaye inkişafına böyük töhfə verəcəkdir. Mən bilirəm ki, Prezident Vuçiçin ölkəsinin sənaye potensialının inkişafı ilə bağlı çox genişmiqyaslı planları var. O planların böyük hissəsi həyata keçirilir. Gələcək planların həyata keçirilməsi üçün əlbəttə, enerji resursları lazımdır və şaxələndirilmiş təchizat şəbəkəsi də təbii ki, qurulmalıdır.

Eyni sözləri dostum, Prezident Radev haqqında da deyə bilərəm. Bolqarıstanla da bizi strateji tərəfdaşlıq Sazişi bağlayır. Bu il mən Bolqarıstana və Prezident Radev Azərbaycana səfərlər etmişik. Bu da onu göstərir ki, münasibətlərimiz çox dinamikdir, dostluq və strateji tərəfdaşlıq üzərində qurulub.

Yəni deyə bilərəm ki, bugünkü mərasim dostluq mərasimidir, strateji tərəfdaşlıq mərasimidir. Əlbəttə ki, hər iki prezidenti bugünkü açılış münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu, Serbiya və Bolqarıstanın enerji təhlükəsizliyinə böyük töhfə verə biləcək layihədir. Eyni zamanda, Azərbaycan xalqını təbrik etmək istəyirəm. Çünki Azərbaycanın qaz ixracı coğrafiyası daha da genişlənir. Hazırda biz təbii qazımızı səkkiz ölkəyə ixrac edirik, Serbiya doqquzuncu ölkədir. Bu doqquz ölkənin yeddisi Avropa ölkəsidir və təbii ki, bugünkü mərasim - interkonnektorun fəaliyyətə başlaması Avropanın enerji təhlükəsizliyinə də önəmli töhfə verəcəkdir.




Bildirməliyəm ki, keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır və bu memorandum icra edilir. Bu memoranduma görə, Azərbaycan 2027-ci ilə qədər Avropaya göndərilən qazın həcmini iki dəfə artırmalıdır. Artıq rəqəmlər onu göstərir ki, biz inamla bu hədəfə doğru gedirik. 2021-ci ildə bizim Avropa məkanına qaz ixracımız 8 milyard kubmetrdən bir qədər çox olmuşdursa, bu il bu, təxminən 12 milyard kubmetrə çatacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir.

Bizim çox genişmiqyaslı başqa planlarımız var. Azərbaycanın bütövlükdə enerji strategiyası uğurla icra edilir. Bizim tərəfimizdən irəli sürülmüş və icra edilmiş layihələr Avropanın və Asiyanın - Avrasiyanın enerji xəritəsini böyük dərəcədə yenidən tərtib etmişdir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Supsa neft kəmərləri bu gün Azərbaycan neftini Aralıq dənizinin və Qara dənizin bazarlarına çatdırır. Cənub Qaz Dəhlizi–uzunluğu 3500 kilometr olan nəhəng infrastruktur layihəsi Avropanın enerji təhlükəsizliyinə çox böyük töhfə verir. Təsadüfi deyil ki, Avropa Komissiyası, onun yüksəkvəzifəli şəxsləri Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı kimi dəyərləndirirlər. Onu da bildirməliyəm ki, – bu sözləri əminəm ki, dostum Rumen də təsdiq edə bilər, – bizim Bolqarıstana qaz təchizatımız iki il bundan əvvəl başlamışdır. 2021-ci ildə 270 milyon kubmetr qaz təchiz edilmişdir. Keçən il 500 milyon kubmetrdən bir qədər çox. Bu il isə bu rəqəm 1 milyard kubmetrə yaxın olacaqdır.

Azərbaycan, sözün əsl mənasında, etibarlı tərəfdaşdır, dostluq ənənələrinə həmişə sadiqdir və dostluğu yüksək qiymətləndirir. Məhz dostluq, qarşılıqlı anlaşma, strateji tərəfdaşlıq üzərində qurulmuş əlaqələr bir çox ölkələrin maraqlarını təmin edir və qaz sahəsində əməkdaşlıq, eyni zamanda, genişmiqyaslı regional əməkdaşlığa da güclü zəmin yaradır. Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi, Avropa məkanı və Azərbaycan, Avropa İttifaqı əlaqələri – bütün bu istiqamətlər müsbət məcrada inkişaf edir və bizim gələcək planlarımız da bu istiqamətlərə xidmət göstərəcəkdir.

Gələcək planlarımız, təbii ki, qaz təchizatının coğrafiyasını daha da genişləndirmək və gələcəkdə Avropa məkanında yeni yaradılacaq interkonnektorlar vasitəsilə yeni ölkələrin bazarlarına çıxmaqdır. Bizim əsas hədəfimiz bərpaolunan enerji növləri ilə bağlıdır və 10 qiqavat bərpaolunan enerji növlərinin yaradılması üzrə Azərbaycan tərəfindən investorlarla sazişlər və anlaşma memorandumları imzalanmışdır.

Bir neçə gün bundan əvvəl yenə də biz növbəti dostluq təzahürünün şahidi olmuşuq. Həm Serbiya, həm Bolqarıstan, həm Şərqi Avropa qrupuna daxil olan digər ölkələr Azərbaycanın namizədliyini dəstəkləyərək COP29 konfransının Azərbaycanda, Bakıda keçirilməsinə izn verdilər, öz dəstəyini göstərdilər. Bu, bir daha həm dostluğumuzun nümunəsidir, eyni zamanda, onu göstərir ki, baxmayaraq, Azərbaycanın zəngin neft və qaz resursları var, biz gələcəyimizi təmiz yaşıl enerjinin istehsalında və ixracında görürük. Əminəm ki, gün gələcək və buna oxşar mərasim yaşıl enerji layihələri ilə bağlı keçiriləcəkdir.

Bir daha əziz dostum Aleksandara dəvətə görə təşəkkürümü bildirmək istəyirəm və hamımıza uğurlar arzulayıram. Sağ olun.

***

Daha sonra Bolqarıstan Prezidenti çıxış etdi.

## Prezident Rumen Radevin çıxışı




-Hörmətli Prezident Vuçiç, möhtərəm Prezident Əliyev, xanımlar və cənablar, nazirlər, zati-aliləri, əziz qonaqlar!

Serbiya, Azərbaycan və Bolqarıstan olaraq ölkələrimizin cari ili yola salarkən daha təhlükəsiz və daha yaxşı gələcək naminə öz davamlı işi və bu işə göstərdiyi diqqət ilə nümunəvi olduğunu bildirmək istəyirəm. Fevralın əvvəlində Prezident Vuçiçin Bolqarıstana səfəri zamanı Bolqarıstan-Serbiya interkonnektorun yaradılmasına start verilib. Yalnız bir neçə ay sonra biz artıq Bolqarıstan və Serbiya arasında interkonnektorun açılış mərasimini keçiririk.



Aprel ayında Prezident Əliyev Sofiyaya səfərə gəlmiş və Solidarity Ring təşəbbüsünü irəli sürmüşdür.

Mən bu dəvətə görə Prezident Vuçiçə səmimi təşəkkürümü bildirirəm və fevral ayında Bolqarıstandakı açılışdan daha xoş əhvali-ruhiyyə ilə bizi qarşıladığına görə minnətdarlığımı bildiririk.

Biz bu gün yalnız təbii qaz şəbəkələrini birləşdirmirik. Çünki Bolqarıstan–Serbiya interkonnektoru yalnız infrastruktur layihəsi deyil. O, bizim ölkələrimizin artan texnoloji imkanlarının, həmçinin Serbiya-Bolqarıstan, Bolqarıstan-Serbiya-Azərbaycan arasındakı uğurlu və faydalı əməkdaşlığın rəmzidir. Əməkdaşlıq bizim regionda davamlı, dayanıqlı iqtisadi inkişafa və tərəqqiyə gətirir. O, bizim Avropanın gələcəyi üçün quruculuq işləri görmək istəyimizin bir ifadəsidir. O, Avropa İttifaqının təhlükəsiz və etibarlı enerji mənbələri üçün iddialı baxışıdır. Mən qəti əminəm ki, interkonnektor sərhəd regionlarda, həmin boruların keçdiyi yerlərdə investisiya maraqlarının artmasına töhfə verəcək.

Mən Prezident Vuçiçi təbrik etmək istəyirəm. Çünki təvazökar olduğu üçün o, özünü tərifləmir. Lakin həm mən, həm də Prezident Əliyev Serbiyaya hər səfərimiz zamanı burada infrastrukturun mühüm inkişafının şahidi oluruq. Mən burada çəkilən zəhməti, Serbiyanın Avropanın modern inkişafına nümunə olduğunu görürəm və bu, məni çox sevindirir. Bolqarıstanın Prezidenti kimi mən sərhəd regionlarda, bolqar milli azlığının yerləşdiyi ərazilərdə infrastrukturun və yol şəbəkələrinin inkişaf edilməsinə diqqəti görürəm. Mən, həmçinin daha öncə presedenti olmayan bir hadisədən bəhs etmək istəyirəm. Prezident Vuçiç və mən iki dəfə Mitroqradda milli azlıqlarımızla görüşmüş və problemləri birgə müzakirə etmişik. Biz birgə həyat şəraitini yaxşılaşdırmaq üçün layihələr müəyyənləşdirib imkanları müzakirə etmişik. Serbiyada bütün infrastrukturun yaxşılaşdırılması və modernləşdirilməsi Bolqarıstana da birbaşa təsir edir. Çünki biz Avropaya Serbiya vasitəsilə çıxa bilirik.

Bu gün biz Avropanın enerji xəritəsini dəyişirik. Çünki interkonnektor yalnız bizim ölkələr üçün deyil, bütün region üçün şaxələndirməyə və təhlükəsizliyə zəmanət verir. Təsadüfi deyil ki, bu layihə Avropa Komissiyası tərəfindən qarşılıqlı maraq doğuran layihə kimi dəyərləndirilib.

Ukraynadakı müharibə bizim yaxşı qonşuluq və qarşılıqlı kömək, həmrəylik anlayışlarımızı yenidən gözdən keçirməyə səbəb oldu. Biz logistika və enerji sahələrində yalnız yeni resurslar, yeni yollar, yeni səmərəli həll vasitələri tapmalı deyil, həmçinin daha intensiv, daha güclü beynəlxalq xəritə yaratmalıyıq. Həmin coğrafi mövqeyin əhəmiyyətinin dərk edilməsi, fəal enerji siyasəti təkcə həmin ölkələrə deyil, həm də bütün qonşulara, regiondan da daha uzaq məsafədə yerləşən ölkələrə fayda verəcək.

İcazə verin, prezidentlər Vuçiç və Əliyevə bir daha təşəkkürümü bildirim. Onlar oktyabrın 1-də Yunanıstan və Bolqarıstan arasındakı interkonnektorun açılış mərasimində iştirak etmək üçün Sofiyaya gəlmişdilər. Həmin interkonnektor sayəsində Bolqarıstan nəhəyat ki, Azərbaycan qazını qəbul edə bildi. Bizim on il öncə anlaşmamız var idi. O vaxt biz nə Avropadan, nə də ki, Azərbaycandan fiziki qaz qəbul edə bilmirdik. Mən Prezident Əliyevə təşəkkürümü bildirmək istəyirəm. O sübut etdi ki, Bakı bütün anlaşma və razılıqlara ciddi yanaşır. Baxmayaraq ki, on il öncə mühüm dəyişikliklər olmuşdu. Mən avropalı həmkarlarla görüşlərimdə hər dəfə bildirirəm ki, Azərbaycan etibarlı tərəfdaşdır. Mən inanıram ki, biz elə bu cür də çalışmağa davam edəcəyik.

*(ardı 3-cü səhifədə)*

# Niş şəhərində Serbiya–Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilib



(əvvəli 2-ci səhifədə)

Bu il Bolqarıstan anlaşmanı yekunlaşdırdı və həm LNG terminallarına, həm Yunanıstana, həm də Türkiyəyə çıxış əldə etdi. Bizim, həmçinin onların şəbəkələri vasitəsilə tranzit əməliyyatları keçirmək üçün anlaşmalarımız var. Mart ayında biz Aleksandropolisdəki enerji terminalının açılışını etdik. Bolqarıstan həmin layihədə 20 faiz səhmə sahibdir. Biz aprel ayında strateji əhəmiyyətli, Avropa üçün önəmli olan Solidarity Ring layihəsinin açılışını etdik. Bununla da biz Azərbaycandan Mərkəzi və Şərqi Avropaya qazın ən sürətli və ucuz nəqlinə nail olmaq üçün şəbəkələrimizi birləşdirmə imkanı qazanırıq. Bizim sahibi olduğumuz bu fəal siyasət sayəsində bu gün Serbiyada interkonnektorun açılış mərasimini edirik. Yalnız Serbiya deyil, həmçinin regionun digər ölkələri də Azərbaycandan gələn qaza, həmçinin yeddi terminala, Aralıq dənizindəki LNG terminalına və təbii ki, Solidarity Ring təşəbbüsünə, Bolqarıstandakı Çiren adlı saxlama yerinə çıxış əldə edib. Biz hazırda Bolqarıstandakı infrastrukturu genişləndiririk və bunun sayəsində Qərbi Avropa qaz ehtiyatlarına da çıxış əldə edəcəyik.

Biz bu gün sübut edirik ki, yalnız birgə səylər nəticəsində, ortaq istəyə əsasən iqtisadi inkişaf əldə edə, daha yaxşı, daha təhlükəsiz gələcəyə nail ola bilərik. Digər önəmli məsələ isə odur ki, biz infrastrukturun inkişafı nəticəsində daha böyük nailiyyətlər əldə edəcəyik. Əvvəlcə bildirdiyim kimi, bu səhər Vuçiçlə keçirilən görüşümüzdə birgə anlaşmalar nəticəsində öz ehtiyacımızı ödəmək üçün qaz təminatını yaxşılaşdıracağıq. Biz bununla da ən yaxşı şərait əldə etmiş olacağıq, həmçinin öz vətəndaşlarımıza ən yaxşı qiymətlər təqdim edib, üçüncü dövlətlərə birgə qaz satacağıq. Burada geniş fürsətlər var və biz yaxşı siyasət, yaxşı səylər nəticəsində mühüm nəticələr əldə edəcəyik.

Mən Avropa Komissiyasına maliyyə dəstəyi göstərdiyinə və həmçinin bütün Avropa üçün mühüm olan bu layihəni təşviq etdiyinə görə minnətdaram. Təbii ki, biz bu uğura görə bütün institutlara və tikinti işçilərinə minnətdarıq. Onlar sübut etdilər ki, bu iki ölkə texnoloji bacarığa malikdir və ən yüksək texnologiyalı yeni nəsil boru xəttini inşa edə bilir. Bundan sonra çalışacaq bütün komandalara təşəkkür edirəm, onlara uğurlar arzulayır, hər kəsə faydalı iş diləyirəm. Çox sağ olun.

***

Layihənin əhəmiyyətindən danışan Avropa İttifaqının Serbiyadakı daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofre enerji təhlükəsizliyinin və enerji dayanıqlılığının gücləndirilməsində mühüm bir mərhələnin qeyd olunduğunu vurğulayaraq dedi:

– Avropa İttifaqı bu layihəyə demək olar ki, 50 milyon avroluq qrant, Avropa İnvestisiya Bankı isə 25 milyon avro məbləğində imtiyazlı kredit ayırıb. Bundan əlavə, biz Bolqarıstan ərazisində interkonnektorun tikintisinə 20 milyon avro ayırmışıq. Bu mühüm mərhələ Serbiya vətəndaşlarının həyat şəraitini yaxşılaşdırmaq məqsədilə Avropa İttifaqının enerji sektorunda bu ölkəyə verdiyi ümumi dəstəyin bir hissəsidir.

Biz Bolqarıstanı Serbiya ilə, Serbiyanı Avropa İttifaqı ilə birləşdiririk. Bu baxımdan bu infrastruktur Serbiya və Avropa İttifaqı üçün strateji əhəmiyyət kəsb edir. Biz həm də ümumi enerji balansında qazın payının artırılmasının mümkünlüyünü qeyd edirik ki, bu da Avropa İttifaqının "yaşıl sazişi"nə uyğun olaraq iqtisadiyyatımızın karbonsuzlaşdırılması istiqamətində bir addım olaraq, kömür kimi daha çox çirkləndirən enerji mənbələrindən təbii qaz kimi daha az çirkləndirən enerji mənbələrinə keçidə şərait yaradır.

***

Sonda prezidentlər İlham Əliyev, Aleksandar Vuçiç, Rumen Radev və Aİ-nin daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofre Serbiya–Bolqarıstan Qaz İnterkonnektorunu işə saldılar.

# Prezidentlər İlham Əliyev və Aleksandar Vuçiç hərbi texnika və avadanlıqlara baxıblar



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç dekabrın 10-da hərbi texnika və avadanlıqlara baxıblar.**

# Yardımlı rayonunun Masallı–Yardımlı (44 km)–Sırıq–Əfçədulan–Horavar–Əngövül–Zəngələ–Vərov–Keçələkəran avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Beş min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Masallı–Yardımlı (44 km)–Sırıq–Əfçədulan–Horavar–Əngövül–Zəngələ–Vərov–Keçələkəran avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,7 milyon (bir milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 dekabr 2023-cü il**

# İlham Əliyevin Rumen Radev ilə təkbətək görüşü



**Dekabrın 10-da Serbiyanın Niş şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə təkbətək görüşü olub.**

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında dostluq və strateji tərəfdaşlıq əlaqələrinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi.

Serbiya–Bolqarıstan Qaz İnterkonnektorunun açılışının əhəmiyyətini vurğulayan dövlət başçıları bu münasibətlə bir-birinə təbriklərini çatdırdılar.

Söhbət zamanı Solidarity Ring təşəbbüsünün əhəmiyyətinə toxunularaq, bu layihənin Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın genişlənməsi və ölkəmizin Avropanın qaz təchizatının təmin olunması işinə verdiyi töhfə baxımından önəmi bir daha qeyd edildi.

Dövlətimizin başçısı Bolqarıstan Prezidentini Azərbaycana səfərə dəvət etdi. Dəvət minnətdarlıqla qəbul olundu.

# Azərbaycan Prezidentinin Serbiya Prezidenti ilə təkbətək və geniş tərkibdə görüşləri



**Dekabrın 10-da Serbiyanın Niş şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü olub.**

Görüşdə Azərbaycan ilə Serbiya arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi bildirildi, əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Serbiya–Bolqarıstan Qaz İnterkonnektorunun açılışının əhəmiyyəti qeyd edilərək, Azərbaycanın Avropanın qaz təchizatına verdiyi töhfə xüsusi vurğulandı.

Dövlətimizin başçısı Serbiya Prezidentini Azərbaycana səfərə dəvət etdi. Dəvət minnətdarlıqla qəbul olundu.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

***

Sonra Prezident İlham Əliyevin və Prezident Aleksandar Vuçiçin birgə nahar əsnasında geniş tərkibdə görüşü keçirilib.

# Səfər başa çatıb



**Dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasına işgüzar səfəri başa çatıb.**

Niş şəhərinin "Konstantin Veliki" hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Serbiya Prezidenti Aleksandar Vuçiç yola saldı.

***AZƏRTAC***

# Birgə layihələr Gürcüstanla münasibətləri daha da möhkəmləndirir

### *Prezident İlham Əliyev dost ölkənin deputatlarını qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı.

Dövlətimizin başçısı Gürcüstanın Baş naziri ilə mütəmadi görüşlərinin, o cümlədən Azərbaycan Prezidentinin dəvəti ilə İrakli Qaribaşvilinin fəxri qonaq qismində SPECA-nın Bakıda keçirilmiş Zirvə görüşündə iştirakı zamanı onunla görüşünün əlaqələrimizin möhkəmlənməsi işində rolunu qeyd etdi.

Prezident İlham Əliyev ölkələrimizin həyata keçirdiyi birgə layihələrin önəminə toxunaraq, bunu geniş regionda - Avrasiya məkanında önəmli amil kimi dəyərləndirdi və birgə təşəbbüslərimizin bundan sonra da uğurla həyata keçiriləcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı parlamentlərarası əməkdaşlığın da münasibətlərimizin inkişafına mühüm töhfə verdiyini vurğuladı, bunun əməkdaşlığımızın daha da möhkəmlənməsi üçün zəruri hüquqi baza yaratdığını dedi.

Prezident İlham Əliyev Şalva Papuaşvilinin Azərbaycana səfərinin əlaqələrimizin uğurlu inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Gürcüstan parlamentinin sədri bu ilin mayında Azərbaycan Respublikası Milli Məclisinin Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xüsusi iclasında iştirakı ilə bağlı ölkəmizə səfərini məmnunluqla xatırladı. Şalva Papuaşvili Ulu öndərin çox çətin bir dövrdə Azərbaycana müdrik rəhbərliyini qeyd edərək, Ümummilli lider Heydər Əliyevin və Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadzenin münasibətlərimizin əsasının qoyulmasında müstəsna rol oynadıqlarını dedi.

Qonaq ölkələrimizin həyata keçirdiyi layihələrin önəmini qeyd etdi, bu layihələrin xalqlarımızın rifahına və bölgədə sülhə xidmət etdiyini vurğuladı. O, ikitərəfli dostluq münasibətlərimizin uğurla inkişaf etdiyini deyərək, bu işdə müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin roluna toxundu.

Görüşdə energetika, nəqliyyat, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

## Bakı şəhərinin Qaradağ rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı şəhərinin Qaradağ rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 400,0 (dörd yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 dekabr 2023-cü il**

## Baş nazirin Gürcüstan parlamentinin sədri ilə görüşü

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 11-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Ş.Papuaşvilinin səfərinin Azərbaycan-Gürcüstan mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

Azərbaycan ilə Gürcüstan arasında siyasi dialoqun yüksək səviyyəsindən məmnunluq ifadə edilib, hakim partiyalar arasında çox yaxşı münasibətlərin olduğu bildirilib.

Hər iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində, xüsusən də ərazi bütövlüyü və suverenlik məsələlərində hər zaman bir-birini dəstəklədiyi qeyd edilib.

Parlamentlərarası əməkdaşlığın dövlətlərarası münasibətlərin inkişafında xüsusi rolu təqdir olunub. Hazırda parlamentlərarası əlaqələrin çox yüksək səviyyədə olduğu vurğulanıb. Qeyd edilib ki, hər iki ölkənin parlament nümayəndələri beynəlxalq parlament təşkilatlarında da sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərirlər.

Ticarət-iqtisadi əməkdaşlığının ənənəvi olaraq yaxşı dinamika nümayiş etdirdiyi bildirilərək, Gürcüstanın Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğu diqqətə çatdırılıb.

Bildirilib ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri bu gün həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi inkişafına əhəmiyyətli töhfə verir. Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində strateji əhəmiyyətə malikdir.

Vurğulanıb ki, eyni zamanda, gündəlikdə hər iki ölkənin iştirakı ilə yeni layihələr və təşəbbüslər də var. Onlardan biri Gürcüstan və Qara dəniz vasitəsilə Azərbaycanın "yaşıl" enerjisinin Rumıniyaya tədarükünü nəzərdə tutan sualtı kabelin çəkilməsi layihəsidir.

İki ölkə arasında humanitar, xüsusilə mədəni sahədə əməkdaşlığın yüksək inkişaf dinamikası təqdir olunub.

Oktyabrda Gürcüstan paytaxtında təməli qoyulan Heydər Əliyev adına Tbilisi Dövlət Azərbaycan Dram Teatrının Azərbaycan–Gürcüstan mehriban qonşuluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verəcəyinə əminlik ifadə edilib.

Eyni zamanda, Azərbaycanda yaşayan gürcülərin və Gürcüstanda yaşayan azərbaycanlıların ikitərəfli əlaqələrin inkişafındakı rolu xüsusi vurğulanıb.

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 440** **Bakı şəhəri, 7 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "İş yerlərinin attestasiyasının keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 23 iyun tarixli 924-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2214 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 227; 2011, № 5, maddə 449; 2018, № 11, maddə 2448; 2021, № 10, maddə 1193; 2023, № 9, maddə 1343) ilə təsdiq edilmiş "İş yerlərinin attestasiyasının keçirilməsi Qaydaları"na aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. İşəgötürən dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə iş yerlərinin attestasiyasının aparılması nəticələrinə dair bu Qaydaların 4.2-ci və 5.2-ci bəndlərində nəzərdə tutulmuş sənədlərin surətinin 10 (on) iş günü müddətində məlumat üçün Dövlət Əmək Müfəttişliyi Xidmətinə təqdim olunmasını təmin etməlidir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin Sədri Şalva Papuaşvilinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. O, ötən ilin aprel ayında Gürcüstana rəsmi səfərini, cari ilin may ayında isə qonağın ölkəmizə səfəri çərçivəsində Milli Məclisin ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirakını xatırlayıb. S.Qafarova qonşu, dost və tərəfdaş ölkələr olan Azərbaycan və Gürcüstan arasında münasibətlərin əsrlər boyu dostluq və mehriban qonşuluq münasibətində yaşamış xalqlarımızın iradəsindən qaynaqlandığını diqqətə çatdırıb.**

## Milli Məclisin Sədri Gürcüstan spikerini qəbul edib



Söhbət zamanı Azərbaycan və Gürcüstanın beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyəti, o cümlədən ərazi bütövlüyü və suverenlik məsələlərində daim bir-birini dəstəkləməsi, həmrəylik nümayiş etdirməsi məmnunluqla qeyd olunub. Qanunverici orqanları arasında çox səmərəli əməkdaşlıq mövcuddur. Ali qanunverici orqanların komitələri arasında da münasibətlərin inkişafı və Mədəniyyət komitələri arasında imzalanmış əməkdaşlıq haqqında memorandumun əhəmiyyəti qeyd olunub. Bununla yanaşı, Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin uğurlu üçtərəfli əməkdaşlıq formatı da vurğulanıb.

2024-cü il fevralın 7-də Azərbaycanda keçiriləcək prezident seçkilərindən danışan S.Qafarova bildirib ki, bu seçkiləri əvvəlkilərdən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, bu dəfə seçkilər Azərbaycanın bütün suveren ərazisində keçiriləcək.

Azərbaycana səfərə dəvətə görə təşəkkürünü bildirən Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşüb. O, Gürcüstan Azərbaycan arasında tarixi köklərə əsaslanan və bu gün strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələrin əhəmiyyətini vurğulayıb. Qonaq bildirib ki, ölkələrimiz arasında münasibətlərin inkişafı onların təhlükəsizliyini, regionda sabitliyi təmin etməklə yanaşı, həm də xalqlarımızın rifahına müsbət təsir edir. Heydər Əliyevin əsasını qoyduğu və bu gün uğurla həyata keçirilən layihələr öz bəhrələrini verməkdədir və onların sırasına yeni layihələr əlavə olunur.

**Ə.BƏDƏLOV**
**XQ**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 441** **Bakı şəhəri, 7 dekabr 2023-cü il**

***Azərbaycan Dövlət Aqrar Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Dövlət Aqrar Universiteti Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dövlət Aqrar Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** "Azərbaycan Dövlət Aqrar Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Qərar qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Dövlət Aqrar Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 449** **Bakı şəhəri, 11 dekabr 2023-cü il**

***Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə***

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 2 aprel saat 06:00-dək uzadılsın.

**2.** "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2020, № 9, maddələr 1209, 1231, № 10, maddələr 1274, 1275, 1278, 1283, 1298, 1314, 1315, № 11, maddələr 1387, 1394, № 12 (V kitab), maddələr 1588, 1592, 1612; 2021, № 1, maddələr 92, 106, № 3, maddələr 267, 290, 291, № 4, maddə 403, № 5, maddə 530, № 6 (IV kitab), maddələr 683, 692, № 7, maddələr 868, 882, № 8, maddə 974, № 9, maddə 1079, № 10, maddə 1191, № 12, maddələr 1514, 1524; 2022, № 2, maddə 176, № 3, maddə 258, № 4, maddə 417, № 6, maddə 673, № 8, maddə 1012, № 10, maddə 1225, № 12, maddə 1554; 2023, № 2, maddə 328, № 3, maddə 443, № 4, maddə 595, № 6, maddə 866, № 9, maddə 1363) 1.1-ci bəndində "yanvar" sözü "aprel" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



# Tarix üzərində zəfər

(əvvəli 1-ci səhifədə)

Liderə məxsus ən başlıca xüsusiyyət onun adi iş üsulu idi: Heydər Əliyev ayrı-ayrılıqda konkret bir fərdlə masgul olmur, özünə lazım olan ictimai-siyasi və tarixi mühiti yaradır, kütləni həmin mühitin çevrəsinə daxil edirdi. O, adamları, problemləri yox, bütövlükdə, mühiti idarə edirdi. Adamların öz meyarı, öz zamanı olmur. Onlar birlikdə liderin zamanı və meyarı ilə fəaliyyət göstərirlər. Burada tarixin gedişatını buxovlayan ehkam yaranmır, çünki zaman dəyişdikcə plan da dəyişir və insanlar bu gedişatdan razı qalırlar.

Ulu öndər Heydər Əliyev hələ gəncliyindən keçmis SSRİ-nin ən etibarlı, həm də ən qorxunc təskilatında – DTK-da böyük məktəb keçmis, onun Azərbaycandakı sədrliyinə, ən yüksək çinli zabiti səviyyəsinə yüksəlmişdi. Bu məktəb onun yenilməz səxsiyyətini, fiziki ahəngdarlığını, siyasi iradəsini, zamana və insana nüfuz etmək, çevrəsinə qətiyyətli təsir gostərmək bacarıgını, liderlərə məxsus uzaqgörənliyini, cevik həyat tərzini formalaşdırmışdı. Bütün bunlar 1969-cu ildə onun ölkə başçısı vəzifəsinə gəlməsində və bu ali kürsüdə uğurlu fəaliyyətində önəmli və müstəsna amillər olmuşdu.

Yaxın gələcəyin lideri Heydər Əliyev DTK-da təkcə kommunist rejiminin qaydalarını qorumur, daha cox xalqla, millətlə isləmək vərdişləri əldə edirdi. Bəlkə, elə buna görə də həm DTK generalı, həm də Azərbaycan KP MK-nin Birinci katibi kimi çoxillik fəaliyyəti zamanı qazandığı zəngin rəhbərlik təcrübəsi, habelə Kreml intriqalarında qalib gəlmək üçün işləyib hazırladığı siyasi taktika sonralar – Azərbaycanın ən ağır siyasi-tarixi durumu zamanı – 1993-cü ilin 15 iyunundan sonra daha çox kara gəldi. Yalnız onun lider kimi səxsi əzmkarlığı, xalqın ona böyük inamı, çevik diplomatiyası sayəsində Azərbaycan siyasi fəlakətdən xilas ola bildi.

Bu çətin dövrdə Ulu öndər Heydər Əliyevə məxsus iki vacib cəhət ortaya cıxdı:

1. Xalqı təşkil etmək bacarığı. Bhununla o, xaos qoynuna atılmış xalqı məharətlə toplayıb Azərbaycanın istiqlalına doğru yönəldə bildi.

2. Tarixin gedisatını, ən başlıca prioritetləri vaxtında və düzgün təyin etmək strategiyası. O öncə böyük uzaqgörənliklə "Yolumuz hayanadır?" sualına cavab verdi, Türk dünyasının baş qərargahı – qudrətli qardaş Türkiyə dövləti ilə münasibətlər qurdu. Nəticədə, onun müdrikcəsinə dediyi "Bir millət iki dövlət" konsepsiyası özünü dogrultdu. Məhz Heydər Əliyevin sayəsində Turk dünyası birləşərək Azərbaycanın arxasında dura bildi.

Ağıllı və uzaqgörən lider türk birliyinə siyasi yolla gəlmədi, tarixdə özünü həmişə dogrultmus ugurlu yol seçdi: "Türksoy" yarandı. "Kitabi-Dədə Qorqud" eposunun 1300, dahi Məhəmməd Füzulinin 500 illik yubileyləri ədəbi-tarixi hadisələr çərcivəsindən çıxıb türkləri birləşdirən siyasi-tarixi toparlayıcıya çevrildi. O, Füzulini "Azərbaycan xalqının, türk dünyasının, türk xalqlarının bu günü və gələcəyi üçün böyük örnək" kimi dəyərləndirdi. Türkiyə Böyük Millət Məclisindəki çıxışında: "Füzuli keçmişdə də türkləri birləşdirən bir səxsiyyət olmuşdur", – dedi.

Ümummilli lider Heydər Əliyevin irsinə əsaslanıb deyə bilərəm ki, Azərbaycan dünyaya yalnız ümumtürk kontekstində çıxdıqda güclü ola, siyasi ugur qazana bilərdi və Heydər Əliyev bunu ən yaxşı şəkildə gerçəkləşdirdi.

Xilaskar lider Heydər Əliyevin böyük siyasi iradəsi, güclü səxsiyyəti sayəsində Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən, parçalanmaq faciəsindən qurtuldu. O, qısa müddətdə olkədəki siyasi və silahlı qruplaşmaları ləgv etməyə, milli-ictimai düsüncəni dövlətçilik məcrasına daxil etməyə nail oldu. Onun dövlətçilik xəttini, Azərbaycanın müstəqilliyini qorumaq naminə həyata keçirdiyi sərt tədbirləri xalq dəstəklədi. Ölkə Heydər Əliyev cəsarətinə, əzəmətinə güvənərək vahimə və səksəkədən xilas oldu.

Lakin hələ bunu beynəlxalq miqyasda sübut etmək, xarici ölkələri Azərbaycanda siyasi sabitlik yarandığına inandırmaq lazım idi. Bu şəraitdə də liderin – Heydər Əliyevin tarixə güvənən düsüncəsi qalib gəldi: 1994-cü ildə onun böyük iradəsi, inandırıcı diplomatiyası sayəsində tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft diplomatiyası gerçəkləşdi. Hələ siyasi sabitliyin tam bərqərar olmadığı, iqtisadiyyatı iflic vəziyyətdə olan bir ölkədə investisiya qoyuluşuna dünyanın məşhur neft sirkətlərini inandırmaq müskül məsələ idi. Fəqət, yenə də Heydər Əliyev səxsiyyəti, məntiqli nitqi və uzaqgörən diplomatiyası tarix üzərində zəfər çaldı – "Əsrin müqaviləsi" imzalandı. Bununla da, Heydər Əliyev Azərbaycanda müstəqillyin iqtisadi təməllərini yaratdı.

İqtisadi bünövrə, gələcəyin iqtisadi təminatı olmadan siyasi müstəqilliyi yaşatmaq və qoruyub saxlamaq mumkün olmazdı. Bu, həm də ölkədə milli burjuaziyanın yaranması, sağlam, sosial yönümlü kapitalizmin bərqərar olması üçün olduqca vacib idi.

Mükəmməl tarixi şəxsiyyət Heydər Əliyev liderlərə xas kompleks keyfiyyətləri öz varlığında qovuşdurmuşdu. O, fenomenal yaddaşı, parlaq və məzmunlu nitqi ilə dərhal qarşısındakını tərk-silah edir, dünyanın tanınmış liderlərini belə asanlıqla özünə inandırırdı. Fikrimcə, bir lider kimi onun iki əsas silahı var idi: təsir və təzyiq! O, ikinci silahdan az istifadə edirdi. Oz dəmir məntiqi, məzmunlu nitqi, xarizmatik səxsiyyəti və böyük nüfuzu ilə müasirlərinə təsir edir, planlarını lider kimi həyata keçirirdi.

Azərbaycan lideri Heydər Əliyev dünyada tayı-bərabəri olmayan böyük diplomat idi. Dünya diplomatiyasının pultu, sanki, onun əlində idi. O, diplomatiyada elə gözlənilməz gedişlər edirdi ki, qarşı tərəfin razılaşmaqdan başqa çarəsi qalmırdı. Onun təkcə məntiqli nitqi yox, eyni zamanda, qarşısındakını təslimçiliyə məcbur edən nüfuzlu baxışları, mürəkkəb, düyünlü diplomatik söhbətlər zamanı qarşı tərəfi öz aurası – haləsi ilə fəth etmək bacarığı var idi. Bütün bunlar isə yalnız böyük tarixi səxsiyyətə, həqiqi liderə məxsusdur.

Fenomen şəxsiyyət Heydər Əliyevin xidmətlərindən biri də budur ki, o, danışa-danışa Azərbaycan diplomatiya dilini, siyəsət dilini yaratdı. O, Azərbaycan dilini, ana dilini çox sevir, gözəl bilir, dilimizə millətin varlığı kimi yanaşırdı. Özü sonralar belə bir faktı etiraf edirdi: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük".

İkinci dəfə hakimiyyətə qayıtdıqdan sonra o, dil haqqında iki tarixi fərman verdi. Müstəqil ölkədə Azərbaycan dilinin hakim olması zərurətini əsaslandıran fərmanda deyilir: "Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunlə birgə olmus, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkisaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur".

Beləliklə də, xalq və dil Heydər Əliyevi düşündürən əsəs məsələ idi. Umumiyyətlə, ulu öndər Heydər Əliyev böyük ədəbiyyat və mədəniyyət hamisi idi. Cəsarətlə deyə bilərik ki, dünyada heç bir lider onun qədər öz xalqının dilinə, tarix və ədəbiyyatına, incəsənətinə dəyər verməmişdir. Bu də səbəbsiz deyil: Heydər Əliyev Azərbaycan xalqına, onun milli sərvəti olan ədəbiyyat və mədəniyyətə böyük məhəbbət bəsləyir, bu sahəni dərindən bilirdi. İkincisi, o, ədəbiyyat və mədəniyyətə istiqlal ideologiyası – Azərbaycanın milli dövlət ideologiyası olan azərbaycançılığın ideya mənbəyi, məxəzi kimi yanaşırdı. O həmişə Səməd Vurgunun poetik himn olan "Azərbaycan" şeirini söyləyərkən kövrəlir və doluxsunurdu.

Bu böyük vətənpərvər Dünya Azərbaycanlılarının I qurultayındakı məşhur nitqində oz azərbaycançılıq konsepsiyasını qürurla bəyan edərək deyirdi: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı oz milli mənsubiyyətinə gorə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Heydər Əliyev azərbaycançılığı ugurla dovlətçiliyə tətbiq edərək onu milli ideologiyadan dövlət ideologiyasına çevirdi.

Azərbaycançılıq milli istiqlal ideologiyasıdır. Azərbaycançılıq türkçülüyün Vətən əxlaqı müstəvisində dərkidir. Azərbaycançılıq dunya azərbaycanlılarını birləşdirən, onların kimliyini tanıdan milli ideologiyadır. Azərbaycançılıq bu ölkədə yaşayan butün xalqlar üçün müqəddəs olan vətənçiliyin ifadəsidir.

Azərbaycançılıq bu gün möhtərəm Prezident İlham Əliyevin inamla davam etdirdiyi məfkürə yoludur. Prezidentimiz İlham Əliyev şəhərsalma və memarlıqla baglı çıxışlarının birində tələb və tövsiyə etdi ki, hər şey azərbaycançılıq fəlsəfəsi əsasında qurulsun. Bu, əslində, həm keçmişə ehtiram, həm də istiqlal dolu gələcəyə böyük ümid ifadə edir.

Dövlət başçısı İlham Əliyevin gücü bundadır ki, o, ümummilli lider Heydər Əliyevin ideallarının tarixi mahiyyətini bütün xalq və bütov dünya üçün aydın səkildə açıqladı. Təbii ki, Heydər Əliyev fenomenini təkcə bir ata kimi yox, həm də siyasi lider kimi İlham Əliyevdən yaxşı, dəqiq və hərtərəfli anlayan və qəbul edən yoxdur. O, dünyada ən qüdrətli liderlik universitetini – Heydər Əliyev dövlət idarəçilik akademiyasını bitirib.

Təsadüfi deyil ki, dünyanın böyük yazıçısı, dahi türk oğlu Cingiz Aytmatov deyib: "İlham Əliyev XXI əsrin lider etalonudur!" Bu sadə cümlə böyük bir həqiqətin parlaq ifədəsidir. Onun başlıca xüsusiyyəti qalibiyyət əzmidir. O, 200 illik tariximizdə Azərbaycanın işğal edilmiş ərazilərini özünə qaytarmış ilk və yeganə böyük sərkərdə, qalib komandandır. O, dövlət idarəçiliyindən xalq idarəçiliyinə kecidin əsasını goydu. Həqiqətən də, ilk dəfə Prezident seçiləndə verdiyi vədə əzmlə əməl edib hər bir azərbaycanlının Prezidenti ola bildi.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının milli sərvətinə çevrilmiş çox dəyərli əsərlər yaradıb və yadigar qoyub gedib. Fəqət, onun iki sah əsəri var: Müstəqil Azərbaycan və Prezident İlham Əliyev! Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanı məhz azərbaycançı İlham Əliyevin cahanşümul fəaliyyəti sayəsində öz vüsətli iqtisadi tərəqqisi, siyasi və diplomatik uğurları, hərbi qüdrəti ilə 44 günlük müharibədə qazandığı şanlı Zəfəri ilə bütün dünyanı heyrətdə qoyub.

Dünənə qədər heç kəsin hesablaşmaq istəmədiyi Azərbaycan boyda kiçik bir ölkənin Prezidenti İlham Əliyev bütün səlibçi mərkəzlərin iradəsini qırdı və heç kimə, heç nəyə məhəl qoymadan ölkəsinin tarixi haqqını bərpa etdi. Buna ancaq Ümummilli lider Heydər Əliyevin varisinin cəsarəti, qətiyyəti, hikməti və diplomatiyası çatardı və çatdı da. Prezident, Ali Baş Komandan İlham Əliyevin bu Zəfəri dünyanı özlərinin hegemonluğuna tabe etmək istəyən Qərb xristian elitası üzərində Heydər Əliyev varisinin şəksiz qələbəsidir. Bu, həm də artıq dünya müstəvisində türk iradəsinin yenilməzliyini sübut edən bir xəbərdarlıqdır.

Ölkəmizin paytaxtı Bakı öz qədim tarixinin yeni inkişaf mərhələsinə qədəm basıb, regionların inkisafı dövlət proqramı əzmlə həyata keçirilir – bölgələr yeni mərkəzlərə cevrilir. Üstəlik, hörmətli Prezidentimizin dediyi kimi, vəhşi tayfaların xarabazara çevirdiyi, işğaldan azad edilmiş doğma Qarabağımızın şəhər və kəndləri ən müasir və modern üslubda yenidən tikilir. Ağıllı qəsəbə və şəhərlər salınır, illərlə yurd həsrəti çəkən vətəndaşlarımız artıq mərhələ-mərhələ öz el-obalarına qayıdırlar. Bir sözlə, Azərbaycanda yazıya, kitaba sığmayan əzəmətli islər görülür. Əsas odur ki, 20 il öncə Avropa və Amerikaya həsədlə baxan Azərbaycan vətəndaşı bu gün möcüzələri öz vətənində görüb dəyişir, modernləsir...

Bütün bunlar əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi-siyasi prioritetlərin tarix tərəfindən təsdiqlənməsi deməkdir. Ulu tarix bu gün xüsusi bir inadla böyük insanın – Ümummilli liderin ideyalarının təsdiqinə xidmət edir. Milli mövcudluğumuzun ən böyük azərbaycanlısı Heydər Əliyev ölməz ideyalarının gerçəkləşməsi ilə tarix üzərində zəfər çalır. Bu, zamana sığmayan əbədiyaşarlıqdır.

***Nizaməddin ŞƏMSİZADƏ,***
***filologiya elmləri doktoru,***
***Əməkdar elm xadimi,***
***professor***

## Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevlə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev ulu öndər Heydər Əliyevlə bağlı rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.**

# MÜZƏFFƏR RUH – əbədiyaşarlığın 20 ili



(əvvəli 1-ci səhifədə)

2003-cü ilin 12 dekabr tarixini xatırlayıram. O izdiham hələ də gözümün önündədir. Kədərin, qəmin, qüssənin ümmanı yaşanırdı. Fəqət qəm və kədər insanlarımızı birləşdirmişdi. Birləşmədə Heydər Əliyevin Azərbaycana qazandırdığı əbədilik dil açıb danışır, özünü dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının dərin ehtiramında göstərirdi. Deməli, Ulu öndər həyatla vidalaşanda da böyüklük göstərirdi. Bunu Azərbaycana yeni həyat verməklə edirdi. İndi o tarixi yada salmaq, o qədirbilənliyi göz önündə canlandırmaq misilsiz qürur və fəxarət hissi doğurur. Ona görə də 12 dekabr həm də qürur və fəxarət tariximizdir.

12 dekabrda Heydər Əliyev adlı qədirbilənlik salnaməmiz milli mənlik şüurumuzun mühüm bazasına çevrildi, bir növ, rəmzləşdi. Bu rəmzləşmənin müqəddəslik formulu isə Azərbaycançılıq fəlsəfəsinə söykəndi. Heydər Əliyevin milli məfkurəyə, milli ideyaya çevirdiyi fəlsəfəyə. 12 dekabrda bu fəlsəfə özünün böyük təntənə anına şahidlik etdi. Bu gün həmin təntənənin iyirminci ildönümünü yaşayırıq. İyirmi iki yüz, min iki yüz, on min iki yüz üçün təminatdır. İyirmi əbədiyyatın sonsuzluq müjdəsidir.

2003-cü ildən Heydər Əliyevin Azərbaycançılıq fəlsəfəsi yeni yola çıxdı. XX əsrin sonlarına doğru özünə qayıtmış milli şüur və düşüncə həmin dövrdə üzləşdiyimiz uğursuzluğu həzm edə, ədalətsizlik və haqsızlıqla barışa bilməzdi. Söhbət Qarabağ uğursuzluğu və haqsızlığından gedir. Qarabağ Heydər Əliyevin böyük siyasət meydanındakı məğlubedilməzlik formulunun təsdiqi kimi çıxış etməli idi və etdi də. Bu məğlubedilməzlikdə başlıca rolu varislik amili oynadı. Varisliyin 20 ili həm də əbədiyyatın iyirminci ilinin Qarabağ hesabatıdır. Qarabağın azadlıq hesabatı. Bu təntənədə ilahi qanunauyğunluq var. Heydər Əliyev şəxsiyyəti məğlubedilməzdirsə, onun miras qoyduğu Azərbaycan qalib olmalı idi və oldu da.

İyirmi il əvvəl varislik Heydər Əliyev liderliyinin Azərbaycançılıq fəlsəfəsindəki hərəkətverici qüvvəyə çevrildi. Bu qüvvə böyük öndərin siyasət meydanındakı məğlubedilməzliyini təmin etməklə, ölkəmizi suverenliyinə, ərazi bütövlüyünə qovuşdurdu və bu gün bütöv, müstəqil Azərbaycan Respublikasında yaşayırıq. Heydər Əliyev şəxsiyyətindəki varisliyin Prezident İlham Əliyevin şəxsində Zəfər çaldığı Azərbaycanda. Deməli, Azərbaycançılıq fəlsəfəsindəki milli şüur və düşüncə savaşı uğursuzluğu diriliş ruhuna çevirməyi bacardı. Elə buna görə də Heydər Əliyev ruhu Azərbaycanın diriliş ruhudur, müzəffər ruhdur.

Heydər Əliyevin Azərbaycançılıq, dövlətçilik məfkurəsindəki ruh gələcəyimizin təminatıdır. Bəli, müzəffərlik gələcəyimiz üçün böyük üfüqlər açıb. Ulu öndər deyirdi ki, gün gələcək Azərbaycan dünyaya Günəş kimi doğacaq. Bu günün Azərbaycanı dünyaya doğmuş yeni Günəşdir. Şəfəqləri qütb sabahlarını işıqlandıran, zülmətlərə nur salan Günəş.

O Günəş keçmişi tarixə çevirmək əzmini yaşadır. Onun parlaqlığı artdıqca Heydər Əliyevli keçmişimizin hər səhifəsi incələnərək ayrıca tarixə çevrilmək üçün özünə vətəndaşlıq hüququ növbəsini gözləyir. Əminik ki, üzə çıxmaq, bəyan olunmaq üçün növbəsini gözləyən tarix bizi Heydər Əliyev şəxsiyyətindəki əzəmətin daha möcüzəvi aləminə aparacaq. Axı, Heydər Əliyevli keçmiş zəngin və rəngarəngdir. Heydər Əliyevli keçmiş o qədər böyükdür ki, onu səhifə-səhifə deyil, sətirbəsətir, sözbəsöz oxumaq, öyrənmək, yaddaş və düşüncələrə hopdurmaq gərəkdir. Ona görə gərəkdir ki, bu keçmiş gələcəyin şanlı Azərbaycan dastanı üçün çıxış nöqtəsidir. Ən böyük təminatımız da elə budur. Təminat yaşamdır, xalqımızın hürr və firavan yaşamı.

Bəli, Heydər Əliyevli Azərbaycan daim yaşayacaq, yeni-yeni zirvələr fəth edəcək. Uca Tanrıdan bu böyük şəxsiyyətə rəhmət diləyir, müqəddəs ruhu qarşısında baş əyirik!

***Əflatun AMAŞOV,***
***Baş redaktor***

# Ümummilli liderin əbədiyaşar xatirəsi

## Fəxri xiyabandan reportaj



(əvvəli 1-ci səhifədə)

Dekabrın 11-də – Anım günü ərəfəsində Fəxri xiyabana başlamış insan axını Ulu Öndərin ölməz ruhuna dərin ehtiramın parlaq təzahürüdür. Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Böyük siyasət və dövlət xadiminə xas olan fitri istedadı qeyri-adi şəxsiyyəti ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə Azərbaycan rəhbər təyin olunan Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən, geridə qalmış aqrar diyar olan respublikanı qabaqcıl mövqelərə çıxarmışdı. Müstəqillik dövründə qazanılan möhtəşəm nailiyyətlər məhz həmin dövrdə ulu öndərin rəhbərliyi ilə təməli qoyulmuş potensialın sayəsində mümkün olub.

Söhbət etdiyimiz ziyarətçilər də böyük iftixarla vurğulayırlar ki, 1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın başının üstünü qara buludlar alan bir vaxtda xalq özünün və ölkənin taleyini məhz Heydər Əliyev dühasına etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu öndər zəngin siyasi, dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi ilə gənc müstəqil dövləti və xalqı, labüd bəlalardan qurtardı. Odur ki, qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

**Qarabağ qazisi, ehtiyatda olan zabit Güləli Fərziyev nəinki xalqımızın, hətta bütün dünyanın Heydər Əliyevi sonsuz ehtiramla yad etdiyini bildirir:**



– 2003-cü il dekabrın 12-də Ulu Öndərin vəfatı bütün xalqımızı sarsıtdı. Bu gün onun daxili və xarici siyasətinin Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev uğurlu davam etməsi hər birimiz üçün böyük təsəllidir və hamımızı qürurlandırır. Heydər Əliyev 2-ci dəfə xalqın təkidli tələbi ilə hakimiyyətə gələndə ölkə başdan-başa xaos içində idi. Mənim də vuruşduğum Qarabağ cəbhəsində düşmənə məğlub olurduq. Məhz onun sayəsində bir neçə uğurlu döyüş əməliyyatı aparıldı və nəticədə erməni işğalçılar atəşkəsə imza atmağa məcbur oldular. Sonrakı dövr ərzində isə həm Azərbaycanın iqtisadiyyatı dirçəldildi, həm də nizami ordu quruculuğu həyata keçirildi, ökənin müdafiə qüdrəti artırıldı. Elə 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində Böyük Zəfərə də bu uzaqgörən siyasətin nəticəsində nail olduq. Bu gün bir qazi kimi könlümün istəyi ilə Fəxri xiyabana gəldim və Ulu öndərin ölməz ruhu qarşısında baş əydim. Nə qədər ki, Azərbaycan var, xalqımız var, Heydər Əliyevin xatirəsi yaşayacaq.

Dövlət Sərhəd Xidmətinin əməkdaşları Ulu öndərin məzarını ilk ziyarət edənlər sırasındadırlar. Onlar sonsuz iftixar duyğuları ilə müasir dövlətçiliyimizin və ən yeni tariximizin qurucusu Heydər Əliyevin ruhu qarşısında baş əyir, əzəmətli abidəsi önündə sayğı duruşuna dayanır və məzarı üzərinə tər qərənfillər düzürlər. Həmsöhbətlərimiz Ümummilli liderin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərini xatırlayır, tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyətin hər bir Azərbaycan vətəndaşının qürur mənbəyi olduğu vurğulayırlar.

Sərhədçilərin ardınca Ulu öndərin məzarını ziyarətə gəlmiş məktəb kollektivləri onun ölməz xatirəsinə baş əyir, hədsiz qürur və iftixar hissi ilə burada şəkil çəkdirirlər. Binəqədi rayonu Azər Məmmədov adına 115 nömrəli tam orta məktəbin yuxarı sinif şagirdləri olan ziyarətçilər bizimlə söhbətlərində dünyanın öncül ölkələri sırasına çıxmış qalib Azərbaycanın vətəndaşları olmaları ilə fəxr etdiklərini dilə gətirirlər. 11-ci sinif şagirdi Zabilə Əzimzadə, 10-cu sinif şagirdi Ləman Qurbanova da Ulu öndərin məzarını ziyarət edənlər arasında olmalarından hədsiz qürur duyduqlarını söyləyir, Heydər Əliyevi dərin hüzn və sevgilərlə andıqlarını qeyd edirlər.

**Məktəbin direktoru Natavan Əsədova şagirdlərin müasir Azərbaycanın qurucusu, memarı Heydər Əliyevin anım günü ilə əlaqədar ziyarətə böyük həvəslə gəldiklərini qeyd edir:**

– Böyüyən nəsil sabahımızın sahibləridir. İnanıram ki, hansını dindirsəniz, ölkəmizdə təhsilin, mədəniyyətin inkişafına, bizim üçün bu cür gözəl həyat şəraitinin yaradılmasına görə Ulu öndərin ruhuna borclu olduğunu



deyər. Məktəbimizdə vaxtaşırı "Heydər Əliyev dərsləri" keçirilir və bütün bunlar barədə şagirdlərə zəruri bilgilər verilir. Bu gün hər birimizin qəlbində böyük inam var ki, Azərbaycanın sabahı daha işıqlı, həyatımız daha gözəl olacaq. Xoşbəxtliyimizin təməlində Heydər Əliyevin sönməz ideyaları dayanır, möhtərəm Prezidentimiz İlham Əliyev öz fəaliyyətində həmin ideyalara əsaslanaraq, qalib Azərbaycanı daha da irəli aparır. Allah Ulu öndərə rəhmət eləsin ki, gündən-günə çiçəklənən Azərbaycanı bizə miras qoyub gedib.

**STEAM mərkəzli təhsil ocağı – Hədəf liseyinin şagirdləri ilə də Fəxri Xiyabanda tanış oluruq. Liseyin 8-ci sinif şagirdi İbrahim Rəhimzadə Ümummilli liderə olan sonsuz sevgisindən söz açır:**

– Heydər Əliyev hər zaman bizim qəlbimizdə yaşayıb və yaşayacaq. Mən onun barəsində danışanda hər zaman duyğulanıram. Təkcə Azərbaycan xalqı üçün deyil, bütün Türk dünyası üçün çox dəyərli bir şəxsiyyət idi. Həmişə valideynlərim və müəllimlərim deyiblər: "Bəxtimiz onda gətirib ki, Ulu Tanrı bizə belə bir dahi rəhbəri bəxş edib". Mən onun çıxışlarına internetdə təkrar-təkrar baxıram və



haqqında söylənənlərin necə böyük bir həqiqət olduğunu dərk edirəm.

Ulu öndərin təhsilə diqqəti daimi olub. Baxın, kimin ağlına gələrdi ki, bu gün Bakıda Beynəlxalq Cambridge Məktəbi kimi bir lisey fəaliyyət göstərəcək? İndi bu, gerçəklikdir, liseyimizdə dərslər Azərbaycan, rus və ingilisdilli bölmələr üzrə həyata keçirilir. Başlıca hədəf ölkəmiz və bəşəriyyət üçün dəyərli insanlar yetişdirməkdir. Bu isə "Təhsil millətin gələcəyidir" deyən Heydər Əliyevin böyük arzusu idi. Allah ona rəhmət eləsin.



Heydər Əliyev adına Liseyin 2-ci sinif şagirdləri də Ulu öndərin ziyarətində həvəslə iştirak edirlər. Onlardan Ümummilli lider haqqında şeirlər söyləmələrini xahiş edirik. Dərhal qızlardan bir irəli keçib söz alır:

***Azərbaycan adını***
***Azərbaycan xalqını***
***Dünyaya tanıtdıran,***
***Heydər babamız oldu.***

Başqa bir qız isə Heydər Əliyevin şah əsəri olan Azərbaycan haqqında şeir söyləyir:

***Sinəmdə köz dayansa,***
***Dilimdə söz dayansa,***
***Qarşımda kim dayansa,***
***Yaşa, ey Odlar Yurdu!..***

Uşaqları dinlədikcə Ulu öndərin böyüyən nəslə qayğıkeş münasibət bəslədiyini və tez-tez onların bayram tədbirlərində necə fərəhlə iştirak etdiyini xatırlayırıq. Yeri gəlmişkən qeyd edək ki, Ümummilli liderin təşəbbüsü ilə Azərbaycan 1994-cü ildə BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulmuş, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, "SOS Kinderdorf İnternəşnl" təşkilatı ilə respublika hökuməti arasında əldə olunmuş razılaşmaya əsasən, "Bakı SOS uşaq kəndi" salınmışdır. Heydər Əliyev xalqımızın sabahını – gənc nəsli yaşatmaq, uşaqlar arasında fərqli həyat səviyyəsini yaxşılaşdırmaq üçün xarici ölkələrin diqqətini respublikamıza yönəltmişdi. Bu gün ölkəmizdə uşaqların sağlamlığı, inkişafı, təhsili, onların hüquqlarının qorunması üçün geniş hərəkat başlanmışdır. Uşaqların Beynəlxalq televiziya və radio günü münasibətilə keçirilən ənənəvi bayramında iştirak edən Ulu öndərimiz bayram tədbirində sevinib-gülən uşaqlara üzünü tutaraq demişdi: "Artıq biz ictimai-siyasi cəhətdən çox sabit bir Azərbaycan yaratmışıq. İnsanlar rahat yaşasınlar və biz bunu, sabitliyi daimi edəcəyik... Əmin olun ki, siz bizim rastlaşdığımız çətinliklərlə rastlaşmayacaqsınız. Ancaq bu, sizə imkan verəcək ki, bizim başladığımız işləri daha da uğurla həyata keçirəsiniz. Siz bizim ümidimiz, gələcəyimizsiniz"...

Fəxri xiyabanın qarşısında ziyarətçilərdən müsahibələr aldığımızı görən gənc bir qız bizə yaxınlaşıb salamlaşır və gələcək həmkarımız olduğunu bildirir: "Adım Nigardır, Bakı Slavyan Universitetinin jurnalistika ixtisası üzrə təhsil alıram. Onun da ürək sözlərini "XalqTV" üçün lentə alırıq.

**Tələbə-jurnalist Nigar Səfərlinin dedikləri:**



– Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra çətin sınaqlarla üz-üzə qaldı. AXC–Müsavat hakimiyyəti respublikanı idarə edə bilmir, ictimai-siyasi kataklizmləri daha da dərinləşdirirdi. Bu zaman xalqın tələbi



ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev onun Azərbaycan Respublikası üçün misilsiz fəaliyyətləri oldu. O, əsl xilaskar lider kimi idarəetmə sükanını ələ alaraq əvvəlcə ölkədə möhkəm ictimai-siyası sabitlik yaratdı, sonra cəbhədə atəşkəsə nail oldu, "Əsrin müqaviləsi" sayılan neft kontraktları imzalandı. Tədricən, ölkədə həyat axarına düşdü, bir çox sahələr sürətlə inkişaf etdi, hərbi gücümüz artdı və işğalçılardan qisasımızı alaraq, əzəli torpaqlarımızı azad etdik. Bu gün Prezident İlham Əliyev Ulu öndərin ideallarına sədaqət nümunəsi göstərməklə, ölkəni böyük bir "Zəfər" meydanına çevirib, hər birimiz qalib xalqın övladı olmağımızla fəxr edirik.

Ziyarətçilər arasında hazırda ölkəmizdə çalışan Türkiyə vətəndaşlarına da rast gəlirik. Onlarla da həmsöhbət oluruq. Müsahiblərimiz bütün fəaliyyətini doğma Vətəninə və xalqına həsr etmiş Heydər Əliyevi Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biri kimi dəyərləndirirlər. Böyük şəxsiyyətin Azərbaycanın gələcəyi üçün gördüyü işlər, elm, təhsil, idman, mədəniyyət və səhiyyənin inkişafı, ölkənin hərbi potensialının gücləndirilməsi, həmçinin Türk dünyasının birliyi istiqamətindəki misilsiz xidmətləri yüksək dəyərləndirilir.

**"Azərsun Holdinq"in əməkdaşı Selim Kurt:**

– Türkiyə üçün türk milləti üçün Atatürk nə qədər önəmlidirsə, Azərbaycan xalqı üçün də Heydər Əliyevin önəmi bir o qədərdir. Vəfatından 20 il ötsə də, ilboyu camaat buraya gələrək ulu öndərin məzarını ziyarət edir. Bu isə o deməkdir ki, Heydər Əliyev daim xalqın ürəyində yaşayır. Siz də çox qədirbilən xalqsınız.

**Selimin iş yoldaşı Erhan Topkaya da söhbətə qoşulur:**

– "Bir millət, iki dövlət" ifadəsinin müəllifi Ulu öndər Heydər Əliyev hər zaman Azərbaycan–Türkiyə dostluğuna böyük önəm verirdi. Bu gün İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın qardaşlıq münasibətləri bütün dünyaya nümunədir. Bir-birimizə mənəvi dəstəyimiz var, bunun kökündə isə böyük türk oğlu Heydər Əliyevin ideyaları dayanır. Ruhuna dualar oxuyuruq.

Bəli, müsahiblərimizin də vurğuladıqları kimi, Türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsinə sonsuz ehtiramlarını ifadə edirlər. Ümummilli liderin ölməz ruhu qarşısında baş əyən ziyarətçilər müdrik dövlət xadiminin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarının üzərinə gül dəstələri qoyur, Allahdan rəhmət diləyirlər.

*__Əli NƏCƏFXANLI,__*
*__Şahanə XANKİŞİYEVA,__*
*__Elşən AĞALAR (foto)__*
*__XQ__*

# Günəş kimi əbədi...



**Ulu öndər Heydər Əliyevin siyasətdəki dahiliyini, idarəetmədəki müdrikliyini, diplomatiyadakı uzaqgörənliyini hamı kimi mən də çoxdan bilirdim. Ancaq bu həqiqətlərin məhz düşmənimizin, "Qarabağ Ermənistandır və nöqtə" ifadəsini dilə gətirmiş işğalçı dövlət başçısının dilindən eşitmək daha qürurverici fakt kimi məni məmnun etdi. Söhbət Ermənistan baş naziri Nikol Paşinyanın, təxminən, bir ay əvvəl – ötən ayın 16-da parlamentin iclasında səsləndirdiyi fikirlərdən gedir.**

N. Paşinyan həmin gün ulu öndərimizin adını çəkməsə də, sözün həqiqi mənasında, sensasiya sayıla biləcək açıqlamalarla çıxış etmişdi. Bildirmişdi ki, ATƏT-in 1996-cı il Lissabon sammiti ilə Qarabağ məsələsi artıq mövcudluğunu itirib. Yəni, ikinci erməni dövlətinin yaranması mümkünsüz olub. Paşinyanın etirafına görə həmin sammitə qədər o vaxtkı hakimiyyət ümid edirdi ki, işğal altında saxladığı Azərbaycan torpaqlarında qanunsuz hərbi birləşmələrə qanuni don geyindirə biləcək. Lakin Azərbaycanın həmin sammitdəki uğuru ermənilərin arzularını puç etdi.

İnformasiya vasitələrində həmin materialı oxuyandan sonra Azərbaycan müxalifətinin 1996-cı ilin dekabrındakı bəzi mülahizələrinə də baxdım. Orada "Azərbaycan Lissabon sammitində heç nəyə nail ola bilmədi", "Heydər Əliyevin ATƏT-in Lissabon sammitindəki "uğurundan" danışmaq absurd və gülüncdür" kimi məsuliyyətsiz bəyanatlar da var idi. Qərəz...

Heydər Əliyev dühasının Günəş kimi parlaq olduğunu biz onun ölkəmizə birinci dəfə rəhbərlik etdiyi dövrdə də görmüşdük. Onun 1969-82-ci illərdə Azərbaycan gənclərinin savadlı və geniş dünyagörüşlü olması üçün atdığı addımlar sadalamaqla qurtaran deyil. Məhz onun oxumağa göndərdiyi gənclər həm müstəqilliyin ilk illərində Azərbaycanın əsas kadrlarına çevrildilər, həm də postsovet məkanındakı diasporumuzu formalaşdırdılar.

Onun siyasi fəaliyyətinin Moskva dövrü bütün dünyaya sübut etmişdi ki, Heydər Əliyev Kremldə çalışsa da, əslində, bütün Türk dünyasının təəssübkeşidir. Hətta, onun Qazaxıstan mövzusunda danışarkən SSRİ rəhbəri ilə mübahisə etdiyini də hamı yaxşı bilirdi. Elə ona görə də SSRİ rəhbərləri onun kölgəsindən də qorxurdular. Qorxduqlarına görə də bütün vəzifələrindən uzaqlaşdırmışdılar. Ancaq o, heç nədən və heç kəsdən qorxmurdu. Qorxmadığına görə də 20 Yanvar faciəsinin ertəsi günü məhz Moskvada bu müəmmalı faktın üzərinə işıq salmışdı.

Heydər Əliyev dühasının işığı onun siyasi fəaliyyətinin Naxçıvan dövründə daha böyük önəm kəsb etmişdi. Öz himayədarlarının köməyi ilə Qarabağı və ətraf rayonları işğal etmiş Ermənistanın Naxçıvanı da ələ keçirmək iştahası bu muxtar respublikanın mühasirəyə alınması ilə nəticələnmişdi. Ancaq Heydər Əliyev onların arzularını gözlərində qoyaraq, muxtar respublikanı məşəqqət və məhrumiyyətlərdən xilas etmiş, bu diyarın aydın sabahını təmin etmək üçün Araz çayı üzərində – Azərbaycanlıa Türkiyə arasında "Ümid körpüsü"nün salınmasına nail olmuşdu.

Fikrimizcə, onun siyasi dühasının əsas göstəricilərindən biri də ötən əsrin sonlarında təməli qoyulmuş "Azərbaycan liderlərinin vəzifə postundan qaçmaq" ənənəsinə son qoyması idi. Həyatına cüzi təhlükə hiss edən Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibov Moskvaya, Əbülfəz Əliyev isə Kələkiyə qaçsa da, Heydər Əliyev çoxsaylı sui-qəsd, terror, təxribat və dövlət çevrilişi cəhdlərinə baxmayaraq, milli dövlətçilik və işıqlı gələcəyimiz naminə xalqın arasında, qüdrətli Azərbaycan uğrunda çarpışanların önündə dayandı.

O, vətəndaş müharibəsinin bir addımlığında olan xalqımıza qurtuluş, Azərbaycanın dövlət müstəqilliyinə əbədilik gətirməklə yanaşı, ölkəmizin siyasi meydanına İlham Əliyev kimi siyasət qrossmeysteri bəxş etmişdir. İlham Əliyev bu gün, sözün həqiqi mənasında, bir çox dünya siyasətçilərinin həsədlə baxdığı uğurlara imza atır. Çünki onun qanında olduğu kimi, tərbiyəsində, təhsilində və təcrübəsində Heydər Əliyev işığının zərrələri var.

Mən ötən yazılarımdan birində qeyd etmişdim ki, Azərbaycan və Türkiyə prezidentlərinin işğaldan azad edilmiş torpaqlarımızda imzaladıqları Şuşa Bəyannaməsi də, Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurda qaldırdığı bayraqların möhtəşəm paradı da, azğın düşmənin viranəyə çevirdiyi şəhərlərimizdə yaradılan yeni beynəlxalq hava limanları da, ölkəmizin beynəlxalq aləmdəki uğurları da, xüsusən, "kosmik ailə"nin üzvü olmağımız, Qoşulmama Hərəkatı kimi böyük beynəlxalq təşkilata uğurla sədrlik etməyimiz də Heydər Əliyev siyasətinə sədaqətin nəticəsidir.

Ulu öndərin geridə qalan anım günlərində dünya siyasətçilərinin onun haqqında söylədikləri dəyərli fikirlərə dəfələrlə istinad etmişik. Bu yazının sonunda isə görkəmli sovet dövlət və hökumət xadimi Nikolay Baybakovun məşhur bir ifadəsini yada salmaq istəyirəm: "Mən Heydər Əliyev qədər öz xalqını sevən bir dövlət xadimi tanımıram!".

Məhz həmin sevginin nəticəsidir ki, bu gün Azərbaycan regionun ən güclü dövləti, dövlət başçımız isə dünyanın ən nüfuzlu siyasətçilərindən biridir. Əminəm ki, dövlət bayrağımızın Xankəndidə dalğalanması, oradakı hərbi paradımız, mədəniyyət xadimlərimizin Şuşadakı çal-çağırı, zəngilanlı şagirdlərin Ağalı kənd məktəbindəki səs-küyü, hərbçilərimizin Laçındakı qətiyyəti, işğaldan azad edilmiş ərazilərimizə qayıdan məcburi köçkünlərın yır-yığışı, bir də... milyonlarla soydaşımızın "Sağ ol, yaşa, min yaşa, cənab Ali Baş Komandan!" nidaları ulu öndərimizin ruhunu dünyalar qədər şad edir.

Allah Türk dünyasının böyük oğlu, dünya azərbaycanlılarının qürur ünvanı olan ulu öndər Heydər Əliyevə rəhmət eləsin!

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

**Müasir Azərbaycan iqtisadiyyatının indiki uğurlarının əsası ulu öndərimiz Heydər Əliyevin sovetlər dönəmində Azərbycana rəhbərlik etdiyi 1969–1982-ci illərdə qoyulub. O dövrdə dahi şəxsiyyətin respublikada sənaye və aqrar sektorun yüksələn xətlə inkişaf etdirməsi istiqamətində gördüyü işlər nəticəsində yüksək göstəricilərə nail olunub. Ən qısa zaman kəsiyində ölkədə pambıq, üzüm və digər aqrar sahə məhsullarının istehsalının rekord həddə çatdırılması Azərbaycan iqtisadiyyatının bənzərsiz yüksəlişinə, insanların isə yüksək həyat səviyyəsinə geniş yol açıb. On üç illik bir dövr ərzində Heydər Əliyev dühası aqrar ölkə olan Azərbaycanı, eyni zamanda, nəhəng sənaye respublikasına çevirib. Belə ki, əgər 1969-cu ilədək Azərbaycanda 735 sənaye obyekti tikilmişdisə, Ümummilli liderin rəhbərlik etdiyi dövrdə onların sayı 1048-ə çatdırılıb.**

# Azərbaycanın müstəqilliyinin iqtisadi təməlini yaradan lider



Ulu öndər Azərbaycana rəhbərliyinin birinci mərhələsində keçmiş SSRİ-nin büdcəsi hesabına respublikada İttifaq əhəmiyyətli bir sıra nəhəng sənaye müəssisələrinin tikintisinə nail olub. Məsələn, yapon mütəxəssislərinin iştirakı ilə işə salınan Bakı Kondensionerlər zavodu o dövrdə Sovetlər Birliyində bu məhsula böyük ehtiyac duyulan yeganə sənaye müəssisəi idi.

Həmin illərdə quşçuluğun sənaye üsulu ilə unkişafını nəzərdə tutan və Macarıstandan alınaraq SSRİ-yə gətirilən nəhəng bir fabrikin Siyəzəndə tikilməsinin isə çox maraqlı bir tarixçəsini mən Ulu öndərin öz dilindən eşitmişəm. Dahi şəxsiyyət deyirdi ki, dəyəri on milyonlarla dollarla ölçülən bu müəssisənin əvvəlcə Qazaxstanda tikilməsi qərara alınsa da, onun təkidi ilə SSRİ rəhbərliyi fabrikin Azərbaycanda – Siyəzəndə inşasına razılıq vermişdi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində gecəli-gündüzlü böyük zəhmət hesabına ölkəmizi Sovet İttifaqının ən qüdrətli aqrar – sənaye respublikasına çevirə bildi. Onun ölçüyə gəlməyən təşkilatçılıq və idarəçilik qabiliyyəti SSRİ-nin o vaxtkı rəhbərliyinin diqqətindən kənarda qala bilməzdi. Elə bu səbəbdən də bir müddətdən sonra dahi şəxsiyyət Sov. İKP MK-nın Siyasi Bürosunun üzvlüyünə namizəd qəbul edildi. Çox keçməmiş fitri təşkilatçılıq və idarəçilik istedadı olan Heydər Əliyev SSRİ rəhbərliyi tərəfindən Moskvaya–SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə dəvət olundu və Sov. İKP MK-nın Siyasi Bürosunun üzvü seçildi. Bu, nüfuzlu bir siyasətçi və dövlət xadiminin nadir istedadına verilən ən yüksək qiymət idi.

İqtisadi tənəzzül yaşamağa başlayan Sovetlər Birliyinin Heydər Əliyev kimi nəhəng qurucu kadra ehtiyacı var idi. Moskva ona yeni vəzifəsində ən ağır və ən mürəkkəb təşəbbüslərin gerçəkləşdirilməsini tapşırdı. Həmin dövrdə SSRİ-də reallaşdırılmasına başlanan, olduqca mürəkkəb bir layihəyə–Baykal-Amur magistralı (BAM layihəsinə rəhbərliyin Heydər Əliyevə həvalə edilməsi isə onun yüksək təşkilatçılıq qabiliyyətinə SSRİ rəhbərliyinin inamından qaynaqlanan bir qərar idi. Bu yüksək vəzifədə Ulu öndərin əldə etdiyi ciddi uğurlar Kreml dəhlizlərində M.Qorbaçov kimi "dil pəhləvanlarının" böyük qısqanclığı ilə qarşılandı. SSRİ rəhbərliyində bir səs çoxluğu ilə baş vermis dəyişikliklə Heydər Əliyevə qarşı təziqlər getdikcə artdı və sonda onun bu vəzifədən istefası ilə nəticələndi.

Bundan bir müddət sonra isə tarix başqa bir formada təkrarlandı. Heydər Əliyev kimi fitri idarəçilik və siyasi istedadı olan dövlət xadiminin Azərbaycana ikinci dönüşü baş verdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvana qayıdan Ulu öndər az bir vaxt ərzində muxtar respublika üçün əvəzsiz işlər gördü. Naxçıvanla Türkiyəni əlaqələndirən Araz çayı üzərində körpünün tikintisi o dövrün ən böyük tarixi hadisəsi idi. Bu körpü blokada şəraitində yaşayan Naxçıvan üçün, necə deyərlər, nəfəslik idi. Ona görə də Naxçıvan iqtisadiyyatında tənəzzülün qarşısının alınması, muxtar respublika sakinlərinin təminatının müəyyən bir səviyyədə saxlanılması üçün bu körpü haqlı olaraq "həyat yolu" adlandırıldı.

Yenicə müstəqilliyini əldə etmiş Azərbaycanda o dövrdə dərin siyasi, sosial-iqtisadi böhran yaşanırdı. Sovetlər Birliyinin dağılması səbəbindən vaxtılə bir iqtisadi məkanda olduğumuz respublikalarla və onların ərazilərində yerləşən İttifaq əhəmiyyətli müəssisələrlə əlaqələrin pozulması səbəbindən Azərbaycanın iqtisadiyyatı iflic vəziyyətinə düşmüşdü. Səriştəsiz hökumət isə yerli müəssisələrin fəaliyyətini təmin etməkdə aciz idi. İqtisadiyyatı və büdcəsi bərbad hala düşən belə bir ölkə öz ərazisini düşmən təcavüzündən necə qoruya bilərdi?

Onu da xatırladım ki, Azərbaycan 1992-ci ili Dövlət büdcəsini təsdiq etmədən başa vurmuşdu. Bu hal 1993-cü il üçün də təkrar oluna bilərdi. Lakin səriştəsiz idarəçilik nəticəsində ölkənin üzləşdiyi siyasi, sosial-iqtisadi böhrandan xilası üçün Naxçıvandan Bakıya dəvət olunan Heydər Əliyev az bir vaxt ərzində respublikanın iqtisadi və maliyyə sektorunun fəaliyyətini öz nəzarətinə götürdü. Elə bunun nəticəsi idi ki, Azərbaycan həmin ili təsdiq olunmuş Dövlət büdcəsi ilə başa vura bildi.

İctimai-siyasi gərginliyin son həddə çatdığı 1994-cü il Azərbaycan tarixində ən çətin dönəmlərdən biri idi. Dağılmış iqtisadiyyat və hiperinfilyasiya ölkə həyatını iflic halına salmışdı. Respublikada bir-birinin ardınca dövlət çevrlişi cəhdləri baş verirdi. Lakin bütün bunlara baxmayaraq, Ulu öndər ölkədə inflyasiyanı cilovlamaq, iqtisadi islahatlara start vermək, ölkə iqtisadiyyatını bazar iqtisadiyyatı prinsiplərinə söykənən əsaslar üzərinə transformasiya etmək istiqamətində bir-birinin ardınca qətiyyətli qərarlar qəbul etdi. Görülən tədbirlər bir il ərzində ölçüləri 1750-1800 faizə çatan hiperinfilyasiyanı cilovlamağa və 1995-ci ilin sonlarında isə onu 10 faiz səviyyəsinə endirməyə imkan verdi. 1996-cı ildən etibarən Azərbaycan iqtisadiyyatı yeni relslər üzərində uğurla inkişaf etməyə başladı.

Bu uğurun təməli 2004-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ilə qoyuldu. Bu sənəd isə müasir Azərbaycan iqtisadiyyatının Ümummilli lider tərəfindən qoyulmuş ən dərin və ən etibarlı bir bünövrəsi idi. İctimai-siyasi vəziyyətin qeyri – sabit olduğu, mütəmadi dövlət çevrlişi cəhdlərinin baş verdiyi bir dönəmdə dünyanın ən iri neft kompaniyalarının "Əsrin müqaviləsi"nə milyardlarla dollar sərmayə yatırtmasına bənzər bir hadisə indiyə qədər dünya tarixində baş verməmişdi. Bu investisiyalar hər hansı bir müqaviləyə yatrımlar deyildi. Bu, Heydər Əliyev siyasi iradəsinə olan güvənə yatırılan və milyard dollarlarla ölçüləın sərmayə idi.

Bu gün regionun ən nüfuzlu dövlətinə çevrilmiş və 44+1 gündə öz torpaqlarının 30 illik erməni işğalından azad etmiş Azərbaycanın güclü iqtisadiyyatının təməl daşını onun memarı dahi şəxsiyyət Heydər Əliyev qoymuşdu.

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru, professor***

# "Sən xalqa endikcə yüksələcəksən"

**Milli mədəniyyətimizin böyük qayğıkeşi olan ulu öndər Heydər Əliyev haqqında çoxlu şeirlər, mahnılar yazılıb. Bu əsərlərin müəllifləri sırasında "Xalq şairi" adına və "İstiqlal" ordeninə layiq görülmüş ilk qadın şairimiz Mirvarid Dilbazinin yeri öndədir.**

Bu yaxınlarda Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin layihəsi əsasında çap edilmiş "Vətən oğulsuz olmasın" adlı kitabda Ulu öndərin Mirvarid Dilbazi ilə unudulmaz görüşləri xatırlanmaqla yanaşı, şairin böyük şəxsiyyət haqqında yazdığı şeirlər də toplanıb.

Nəşrin redaktoru – İctimai birliyin sədri Güllü Eldar Tomarlı yazır ki, Heydər Əliyev Azərbaycanın keçmiş söz, mədəniyyət, elm xadimlərinin, yaradıcı şəxsiyyətlərin xalqa xidmətini yüksək dəyərləndirirdi. Təsadüfi deyil ki, onun rəhbərliyi dövründə bir çox qələm sahiblərimiz Vətənin ən ali mükafatları ilə təltif olunublar. "Mirvarid Dilbazi Cavid və Vaqif məqbərələrinin "baş memarı"na xitabən "Cavidi Vətənə gətirən, onu öz xalqına yetirən oğul"a sevgisini poetik ustalıqla nəzmə çəkir:

**Böyük işlər gördün böyük hünərlə,**
**Bəzədin Vətəni abidələrlə.**

Mirvarid Dilbazinin 85 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində Heydər Əliyevin nitqinin, Xalq şairinin təşəkkür çıxışının da yer aldığı kitabdakı fəxarət duyğulu dialoqlar da, ithaf şeirləri də müdrik şəxsiyyətin sənət və sənətkara olan lider münasibətini sərgiləyir. Mirvarid xanımın fəxri ad alması ilə bağlı xatirə qeydləri ulu öndərin söz sənətinə necə böyük dəyər verdiyini bir daha sübut edir.

Kitabda oxuyuruq ki, 2000-ci il noyabrın 16-da Prezident Heydər Əliyev Mirvarid Dilbazini qəbul edəndə Xalq şairinin sevinci yerə-göyə sığmayıb. Ulu öndər həmin görüşdə söhbətləri ilə ağbirçək şairin ömrünə yeni bir məna gətirib, onda yazıb-yaratmaq eşqi, ruh yüksəkliyi yaradıb, həyat yaralarına sığal çəkib, ahıllıq ağrılarına şəfa verib. Bu görüş iki böyük şəxsiyyətin bir-birinə uca dəyəri idi, bu söhbət səmimiliyin, ərkin, mehribanlığın, zirvəsi kimi yaddaşlarda söz ömrü qədər əbədilik qazandı.

Heydər Əliyev: – Hər dəfə Sizinlə görüşmək məndə xoş əhval-ruhiyyə yaradır. Bir də Sizə çox ömür arzulayanda, mən özümə də arzulayıram, çünki mən deyirəm ki, Siz 100 yaşa çatasınız, biz də Sizin 100 yaşınızı qeyd edək.

Mirvarid Dilbazi – Allah qoysa. Əgər bu, belədirsə, qoy, mən 200 yaşa çatım, razıyam".

Ölkə rəhbərindən yüksək dəyər alan şair onun daxili və xarici siyasətini, dövlətçiliyi qorumaq naminə yorulmaz səylərini, mübarizəsini alqışlayır və dəstəkləyirdi:

**Əhsən kamalına, əqlinə əhsən!**
**Bir xalqın oğlusan, demirəm təksən.**
**Sən xalqa endikcə yüksələcəksən,**
**Adi xidmət deyil xidmətin sənin.**

Güllü Eldar Tomarlı kitaba ön sözündə yazır ki, Mirvarid xanım Heydər Əliyevə doğma övladı kimi ərklə "oğlum" deyə müraciət edən yeganə söz adamı olub. Şair ona "el məhəbbətindən çiçəkləri olan, zamanın soldura bilmədiyi" söz çələngi hörüb. "Vətənin çətin günlərində üzündəki yorğunluğa alnındakı vüqarın işıq saçdığını" poetik bir dillə ifadə edib.

Kitabdan sətirlər: "Ağbirçək şair anamız ömrünün müdrik çağlarında duyğulu ürəyində bir dərd daşıyırdı–Qarabağ dərdi. Mirvarid xanımın yeganə övladı Xatirə Dilbazi müsahibələrinin birində deyir ki, Heydər Əliyev anama ad günündə zəng edirdi, təbrikindən sonra soruşurdu ki, ürəyin nə istəyir? Anam da cavab verirdi: heç nə lazım deyil. Mirvarid xanımı yaxşı tanıyan sənət dostları isə xatirələrində yazırlar ki, şairin Ümummilli liderin bu sualına ərklə cavabı "Mənə Qarabağı verin" olurdu.

Mirvarid xanımın arzusunu yerinə yetirmək üçün Heydər Əliyevə ömür vəfa etmədi. Onun layiqli davamçısı, müzəffər Ali Baş Komandan İlham Əliyev isə 44 günlük Vətən müharibəsində artıq haqq dünyasına qovuşmuş Mirvarid Dilbazinin də istəyini yerinə yetirdi, işğal altında olan torpaqlarımız nankor insan qatıllərindən azad edildi. Bu gün el anamızın ruhu şaddır.

"Vətən oğulsuz olmasın" kitabına daxil edimiş "Aqil mötəbər", "Şücaətli əzizim", "Qurtardın zülümdən Azərbaycanı", "Sən dedin dünyaya kimdir qəsbkar", "Təbəssüm və təfəkkür" kimi şeirlərin hər birindən unudulmaz dahi şəxsiyyətin işıqlı obrazı, liderlik portreti boy göstərir.

**Ona dərd söyləsən, danışma uzun,**
**Yazılı kitabdır onunçün üzün.**




**Oxuyar fikrini o bir baxışda,**
**Bilər bahardasan, ya da ki, qışda...**

Mirvarid Dilbazinin bu kitabda toplanmış şeirlərindən biri də Ulu öndərin ömür-gün dostu, akademik Zərifə Əliyevanın xatirəsinə həsr olunub:

**Sənsiz gözüyaşlı qalan məhəbbət**
**Sənin şöhrət oldu təmiz adına.**
**Eşq olsun qüdrətli o sərkərdənin**
**Qəlbini fəth edən müdrik qadına!**

"Heydər Əliyev İli"ndə nəşr edilmiş və ümummilli liderin anım günü ərəfəsində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında ictimaiyyətə təqdim edilmiş "Vətən oğulsuz olmasın" kitabı unudulmaz dahi şəxsiyyətin xatirəsinə layiqli sənət töhfəsidir.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Azərbaycanda qadın hərəkatının hamisi

**Azərbaycan qadınının inkişafı, onun təhsili, cəmiyyətin bütün sahələrində yüksək təmsilçiliyi, xürafat və cəhalətdən qorunması, onların dövlət idarəçiliyinə cəlb olunması kimi problemlər hələ sovet dövründə Heydər Əliyevi düşündürən ən aktual məsələlərdən biri olmuşdur.**

Yetmişinci illərdə Azərbaycan qadınları ölkənin qanunvericilik orqanlarında irəli çəkilməyə, əməyinin, ağlının təkcə istehsalat üçün yararlı olmayıb, yüksək kürsülərə layiq olduğunu sübut edirdisə, əsrin sonlarında onlar dünya qadın hərəkatının aparıcı qüvvələri kimi hərəkət edir, kişilərlə bərabər hüquq qazanmaq, öz iradəsini, bilik və düşüncəsini dövlətin – ölkənin idarəetmə və qanunvericilik sahəsinə tətbiq etməyə çalışırdılar. Həmin illərdə Mərkəzi Komitənin I katibi işləyən Heydər Əliyev "Azərbaycan qadını" jurnalının 50 illik yubileyində özünün geniş və məzmunlu çıxışında Azərbaycan qadınının tarixi inkişafı haqqında belə bir əhəmiyyətli fikir söyləmişdir: "Biz görkəmli şairlərimizdən Məhsəti xanım Gəncəvinin, Xurşidbanu Natəvanın, ictimai xadim Həmidə xanım Məmmədquluzadənin və başqalarının adlarını dərin hörmət hissi ilə çəkirik. Tərəqqi yoluna çıxan qadınlar xalqımızın qızları üçün siniflər və məktəblər, dram dərnəkləri təşkil edir, Azərbaycan qadınlarını mədəniyyətə qovuşdurmağa hər vasitə ilə çalışırdılar. Lakin onlara müyəssər olan şeylər hüquqsuzluq zülmətində işıldaquşların parıltısına bənzəyirdi".

Azərbaycanda keçirilən qurultayların hər biri Azərbaycan qadınlarının yeni nəsillərlə əvəzlənməsi, qadın əməyinin və düşüncəsinin cəmiyyət, xalq və dövlət üçün əhəmiyyətini sübut edirdi. Heydər Əliyev qadınların potensialından istifadə etmədən cəmiyyətin ədalətli və tarazlı inkişafının mümkün olmadığını çox gözəl bilirdi. Ona görə 1969-cu ilin 14 iyul tarixində Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinə I katib vəzifəsinə təyin olunduqdan az sonra onun tapşırığı ilə avqustun 2-də Bakıda ölkənin fəal qadınlarının yığıncağı keçirildi. Yığıncaqda ölkə qadınlarının qarşısında duran vəzifələr və problemlər müzakirə olundu və sonda yekun sənəd qəbul edildi.

Qeyd etmək istərdim ki, 70-ci illərdə işləyənlərin ümumi sayının 45 faizini təşkil edən 800 minə qədər qadın ictimai istehsalatda təmsil olunurdu. Elm sahəsində çalışanların 43 faizinin qadınlar olması isə ölkədə qadın mədəni inqilabının yüksək səviyyəsinin sübutu idi. Əsrin ilk onilliklərində Azərbaycanda həkim qadınlar yox dərəcəsində və ya çox az sayda idisə, 70-ci illərin sonlarında, daha dəqiq desək, Heydər Əliyevin siyasi hakimiyyəti dövründə respublika həkimlərinin 62 faizi qadınlardan ibarət idi. 1973-cü ilin oktyabrında Bakıda keçirilən XXIV Beynəlxalq Astronavtika konqresinin iştirakçısı olmuş dünyanın tanınmış astronom qadınları Azərbaycan qadınları ilə görüşmüş, onların həm ailədə, həm də iş həyatlarında gözəl keyfiyyətlərə malik olduqlarını göstərmişdilər. Bu konqres iştirakçısı Nyu-yorklu xanım professor Patrisia Koriqan Azərbaycan qadınları haqda təəssüratını ABŞ mətbuatında ("Nyu-York Times") belə bölüşmüşdü: "Onlar bütün sahələrdə kişilərlə bərabər hüquqa malikdirlər".

O illərdə Azərbaycan SSR Ali Soveti deputatlarının 142 nəfəri, yəni 37 faizi qadınlar idi. Bu təmsilçilik, sözsüz ki, Azərbaycan qadınına, onun imkanlarına etimad, ümid, etibarın nümunəsi idi. Həmin dövrün statistikasına görə, ABŞ parlamentində 12, İngiltərə parlamentində 26, Fransada 2, İtaliyada 33, İranda isə 7 qadın təmsil olunurdu.

Görkəmli siyasətçi Azərbaycan qadınının uğur və nailiyyətlərindən ürək dolusu, fəxrlə danışdığı kimi, yubiley nitqində Azərbaycan qadınlarının gündəlik qayğılarını, problemlərini ifadə edən bir sıra aktual mövzulara da toxunur, milli qadın hərəkatımızı ləngidəcək neqativ halları qeyd etməklə xoşagəlməz vəziyyətlərin aradan qaldırılmasını günün vacib məsələsi kimi irəli sürürdü. Bu baxımdan aşağıdakı fikirlər xüsusilə maraq doğurur: "Təəssüf ki, bizdə azərbaycanlı qızların yuxarı siniflərdən yayınması, tez nişanlanması, həddi-buluğa çatmamış ərə verilməsi faktları hələ də vardır".

Yeri gəlmişkən deməliyik ki, bu gün beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərdə təsbit olunmuş qadınlara qarşı gender əsaslı ayrı-seçkilik və zorakılıq hallarını 30 il bundan öncə Heydər Əliyevin həssaslıq və uzaqgörənliklə tənqid etməsi, onun qadın haqları haqqında zəngin biliyə malik olmasının göstəricisidir.

Heydər Əliyev 1972-ci ildə keçirilmiş Azərbaycan qadınlarının IV qurultayındakı məruzəsində demişdir: "Qadına hörmət mənəviyyatın toxunulmaz prinsiplərindən biridir. Lakin bəzi yerlərdə qadına feodal münasibətinin qalıqları özünü göstərir. Bu onu sübut edir ki, respublikanın bir sıra rayonlarında qadınlar arasında ideya və tərbiyə işi zəif təşkil olunmuşdur və insanların şüurunda keçmişin qalıqlarına qarşı lazımınca mübarizə aparılmır. Bəzi hallarda qadın hüquqlarının pozulmasına qarşı mübarizədə prinsipiallıq göstərilmir. Qızların yuxarı siniflərdən təhsildən yayınması faktları da bizi narahat etməyə bilməz. Bunun əsas səbəbi isə bəzi valideynlər və məktəblərdir".

Həmin qurultayın qarşıya qoyduğu vəzifələrin ən mühümlərindən biri də Azərbaycan qadınının rəhbər vəzifələrə irəli çəkilməsi məsələsi idi. Bu məsələnin həlli nə qədər zəruri idisə, o dövrdə Azərbaycanın ictimai reallığı üçün böyük bir sıçrayış idi. Belə ki, Azərbaycan qadını ailədə olduğu kimi, tutduğu vəzifədə və ya çalışdığı işdə də nümunəvi və qabaqcıl idi. Əslində, qadınların vəzifələrə irəli çəkilməsi qadın əməyinin tətbiq edildiyi bütün sahələrdə uğur, məsuliyyət və hesabatlılıq üçün zəmanət olmaqla qadın və kişilərin bərabər hüquqlardan bərabər imkanlara keçidi idi.

1969-1987-ci illərdə Azərbaycan Respublikası MK-nın rəhbəri və 1982-ci ildən 1986-cı ilə kimi SSRİ Nazirlər Soveti Sədrinin I müavini Heydər Əliyev Azərbaycan qadınlarının dövlət idarəetməsində kişilərlə bərabər təmsil olunmasına vəzifə borcu kimi deyil, həm də qadına olan yüksək hörmət və ehtiramından irəli gəlirdi.

1991-1993-cü illərdə müstəqilliyinə yenidən qovuşmuş Azərbaycan xalqının ən ağır günlərində, vətəndaş müharibəsi astanasında uçurum və böhranla üzbəüz olduğu bir mərhələdə xalqın təkidi ilə hakimiyyətə gəlmiş unudulmaz liderimiz Heydər Əliyevin Azərbaycanda dövlət qadın siyasətinin formalaşmasında xidmətlərini bilməli üçün onun 1994-cü ildə səsləndirdiyi: "Azərbaycanın yeddi-səkkiz milyon əhalisi var, onların hüquqlarını mən qoruyuram. Bakıda iki milyon yarım əhali yaşayır, onların hüquqlarının təminatçısı mənəm. Mən burada and içmişəm – hər bir Azərbaycan vətəndaşının hüquqlarının qorunmasının təminatçısıyam. Onların hüquqlarını qoruyacağam." tarixi fikirləri xatırlamaq lazımdır.

Heydər Əliyev çıxışlarında "Bizim incəsənətimiz zəngindir, bunu bütün dünya bilir. Biz də bilirik. Ancaq bəzən biz özümüzün qədrini bilmirik, nəyə qadir olduğumuzu dərk edə bilmirik" fikirləri ilə xalqa çox ciddi mesajlar göndərirdi. Onun Azərbaycan qadınının ünvanına yönələn:

"Azərbaycanın ulduzları bizim gözümüzün önündən keçdilər. Leyla xanım, Sara xanım, Tükəzban xanım, Firəngiz xanım, Gülxar xanım, Şəfiqə xanım burada əyləşiblər. Mən Sizin yaradıcılığınızın həmişə pərəstişkarı olmuşam. Sizi səhnələrdə də görmüşəm, şəxsən də görüşmüşük. Mən həmişə Sizinlə fəxr etmişəm" əbədiyaşar fikirləri qadınların qulağında daima səslənəcəkdir.

Qeyd etmək istərdim ki, Azərbaycan qadını daim, hətta mənfur Qorbaçov və onun əlaltıları tərəfindən Moskvada siyasi bürodan uzaqlaşdırıldığı müddətdə öz liderinə sədaqət nümayiş etdirmişdir. Dövlət müstəqilliyinin ilk illərində dövlət çevrilişinə cəhd zamanı gecə saatlarında Heydər Əliyev xalqa müraciət edərkən ağbirçək qadınlar, qucaqlarında südəmər uşaqları olan analar dövlətçiliyin və inandıqları, güvəndikləri, etimad göstərdikləri dövlət başçısının müdafiəsi üçün Prezident Sarayının ətrafına toplaşmışdılar. Ulu öndərimiz bu hadisələri belə ifadə edirdi: "Mən o gecə yarısı Prezident Sarayının önündəki meydana çıxdım. Orada ağbirçək qadınları, qucağında südəmər uşağı olan qadınları gördəm– gecə yarısı, saat dörd idi, avtomatlar göydə fırlanırdı, – mən dəhşətə gəldim. Gör insanlar etimad etdiyi adamı nə qədər sevirlər, ona nə qədər inanırlar ki, evini-eşiyini buraxıb gəliblər. O lentlər hamısı qalır, mən bəzən onlara baxanda yenidən həyəcanlanıram. Bəzən mənim gözlərim yaşarır. Nə üçün yaşarır? O insanların qəhrəmanlığını görəndə, qadınların simasında olan sevgi, məhəbbəti, eyni zamanda həyəcanı və narahatlığı görəndə gözlərim yaşarır".



Qarşılıqlı olan bu münasibət dövlətimizin əbədi rəhbəri Heydər Əliyevin hakimiyyətinin bütün dövrlərində, xüsusilə də müstəqillik əldə etdikdən sonrakı mərhələdə daim diqqət mərkəzində olmuşdur. Həyata keçirilən tədbirlərdə, irəli sürülən ideyalarda, qəbul edilən qərarlarda bir qayda olaraq Azərbaycan qadınının iradəsi də ifadəsini tapmış, onun problemləri, dərdi-səri düşünülmüşdür.

Azərbaycan qadınlarının hüquqlarının Heydər Əliyev tərəfindən qorunması, onun milyonlarla azərbaycanlı qadınının bərabərlik, azadlıq arzularının təminatçısı olmasını təsdiqləyən faktlardan biri də 1995-ci ildə iyun ayında imzalanmış fərmanla BMT-nin "Qadınlara qarşı hər cür ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyaya qoşulmağımız oldu. Burada xüsusilə qeyd etməliyik ki, o dövrdə BMT-nin bu konvensiyasına dünyanın bir sıra çox inkişaf etmiş ölkələri hələ də qoşulmamışdır. Həmin ildə BMT-nin təşkilatçılığı ilə Pekində Dünya Qadınlarının IV Konfransının keçirilməsi gözlənilirdi. O zamanlar respublikada qadın problemi ilə məşğul olan dövlət qurumu yox idi. Azərbaycan qadınlarının böyük bir qrupu Heydər Əliyevin xeyir-duası, tapşırığı və dəstəyi ilə 1995-ci il avqust-sentyabr ayında Pekində keçiriləcək bu konfransda iştirak etməli idi. Buna baxmayaraq, tez bir zamanda Heydər Əliyevin sərəncamı ilə Pekində keçiriləcək IV Beynəlxalq Konfransda Azərbaycan qadınlarının yüksək səviyyədə təmsil olunmaları üçün Milli Hazırlıq Komitəsi yaradılmışdır. Yeri gəlmişkən qeyd etməliyik ki, dünyanın bütün ölkələrindən on mindən çox qadının iştirak etdiyi 4-cü Beynəlxalq Pekin Konfransında Azərbaycan qadınları çox fəal iştirak etmiş və Qarabağ həqiqətlərini beynəlxalq qadın ictimaiyyətinə çatdırmışdı. Bildiyimiz kimi, bu gün də Pekin Konfransının qətnamə və qərarları bütün dövlətlərdə qadınlarla aparılan işin əsas prinsipləridir. Qadın hüquqları və problemləri üzrə dünyada əsas beynəlxalq hüquqi çərçivə olan Beynəlxalq Pekin Konfransının qərarları strateji sənəd kimi Azərbaycanda da bu məsələdə yol xəritəsidir.

1995-ci ildə qəbul edilmiş ilk Azərbaycan Konstitusiyasında qadınların kişilərlə bərabər hüququnu təsdiq edən ayrıca maddə və bəndlərdə təsbit edilməsi gənc Azərbaycan dövlətinin, onun dövlət rəhbərinin qadın hüquqlarına, eləcə də qadınların kişilərlə bərabər dövlətin və cəmiyyətin aparıcı qüvvəsi olmasına verdiyi yüksək qiymət və ədalətli yanaşmadır.

Heydər Əliyevin müxtəlif tədbirlərdə qadınlara ünvanlanan bütün müraciət və çıxışlarında onlara inam, etibar, qarşılıqlı hörmət və məhəbbət ifadə olunurdu: "Mən sizə və sizin simanızda bütün Azərbaycan qadınlarına təşəkkür edirəm. Qəhrəmanlığınıza görə, dözümlülüyünüzə görə, ölkəmizə, millətimizə, dövlətimizə sədaqətinizə görə və xüsusən Azərbaycanın son illərdəki ağır anlarında, dövrlərində dövlətçiliyimizə, bir Prezident kimi şəxsən mənə dayaq olduğunuza görə sizə təşəkkür edirəm, çox sağ olun, sizə xoşbəxtlik, cansağlığı arzulayıram".

Heydər Əliyev o dövrdə ciddi maliyyə çətinliklərinin olmasına baxmayaraq, ölkədə qadın problemlərinin institusional həll edilməsi və qadın hərəkatının daha da inkişaf etdirilməsi üçün 1998-ci il yanvar ayının 14-də "Qadın Problemləri üzrə Dövlət Komitəsi" yaradılması və "Azərbaycan Respublikasında Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman və sərəncam imzalamışdır. O dövrdə belə bir sənədin imzalanması ölkəmizdə və beynəlxalq aləmdə tarixi və əlamətdar hadisə olmaqla, həm də əhəmiyyətinə görə ciddi əks-səda doğurmuşdu. Ölkəmizin müharibə vəziyyətində olması, qadınlarımızın bir hissəsinin qaçqınlıq, əsirlik şəraitinə düşməsi, bütünlükdə keçid dövrünün iqtisadi gərginlikləri Dövlət Qadın Komitəsinin yaranmasını sosial tələb kimi zəruri etmişdir.

Ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr edilmiş tədbirlərdə şəxsən iştirak edən Ulu öndərimiz Azərbaycan qadınlarının ünvanına səsləndirdiyi sözlər hələ də qulaqlarda səslənir: "Qadın çox ülvi varlıqdır. Ona hörmət hər bir insanın yüksək mənəvi borcudur. Mən məmnuniyyət hissi ilə deyə bilərəm ki, bizim ölkəmizdə – Azərbaycanda qadına hörmət gün-gündən artır və insanlar qadının həyatda, cəmiyyətdə rolunun əhəmiyyətini daha da dərindən dərk edə bilirlər".

Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi ikinci dövrdə yaddaşlara əbədi yazılmış hadisələrdən biri də 1998-ci ildə keçirilən Azərbaycan qadınlarının ilk qurultayı idi. Bu hadisə, həqiqətən də, çağdaş dövlətçiliyimizin, eyni zamanda, Azərbaycanda qadın hərəkatının inkişaf tarixində ən mühüm hadisələrdən biri kimi qiymətləndirilir.

Azərbaycanın qadın hərəkatının tarixinə qızıl hərflərlə yazılmış müstəqil respublikamızda keçirilən ilk qadın qurultayı, həm də ötən dövr üçün Azərbaycan qadın hərəkatının xalqına və liderinə təqdim etdiyi hesabatı idi.

Xatırlatmaq istərdim ki, Azərbaycan qadınlarının respublikamızın müstəqilliyi bərpa edildikdən sonra keçirilən ilk qurultayına dünyanın bir sıra ölkələrindən, şəhərlərindən təbrik məktubları gəlməklə bərabər, həm Türkiyənin, Gürcüstanın, Ukraynanın görkəmli qadınları da iştirak edirdi.

Qurultayın işini canlandıran ən əsas hadisə isə Respublika Prezidentinin bu qurultayda iştirakı və çıxışı idi. Heydər Əliyevin qurultay iştirakçıları arasında olması, geniş və dərin məzmunlu çıxışı ilə fədakar qadınlarımıza ünvanladığı səmimi təbrik, onun bütövlükdə Azərbaycan qadınlarına verdiyi yüksək dəyər idi. Qurultaydakı parlaq və tarixi çıxışında Heydər Əliyev respublikamızın qadın hərəkatının tarixini, müasir vəziyyətini təhlil edib qiymətləndirir, gələcək vəzifələrini, qarşıda dayanan problemləri tutarlı faktlar, dəlillərlə izah edirdi.

Onun: "Hesab edirəm ki, bu qurultay XX əsrdə Azərbaycanın tarixində ən böyük tarixi hadisələrdən biridir. Azərbaycan qadınları bu qurultayla müstəqil Azərbaycanda gələcək qadın hərəkatının əsasını qoyurlar, qadınların cəmiyyətdə fəallığının, onların cəmiyyət və dövlətin həyatında iştirakının əsasını qoyurlar. Siz bunun əsasını qoymusunuz, böyük iş görmüsünüz. Bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm" ...Siz Azərbaycanın ictimai-siyasi həyatının fəal iştirakçılarısınız. Arzu edirəm ki, bundan sonra da belə fəal olasınız və bilin ki, mən də öz tərəfimdən bütün imkanları yaratmağa hazıram. Bir arzum da var. Çalışın öz intizamlılığınızı, dözümlülüyünüzü və sədaqətliliyinizi kişilərə də öyrədəsiniz... Məlumdur ki, cəmiyyətdə qadının təsiri çox böyükdür, ola bilər, hakimiyyət orqanlarında istədiyiniz yeri tutmamısınız, amma cəmiyyətdə qadının təsiri böyükdür. Qadının sözü də çox kəsərlidir, təsirlidir. Məlumdur ki, kişilərin çoxu da qadınların təsiri altındadır. Ona görə çalışın, təbliğ edin ki, kişilər sizdən nümunə götürsünlər, sizin kimi fədakar, cəfakeş və sizin kimi də sədaqətli olsunlar".

Dünya şöhrətli siyasətçi Heydər Əliyevin düşüncəsindən süzülüb gələn fikir və ideyalar məna və məntiq etibarı ilə həm bu gün, həm də gələcəkdə qadına, anaya münasibətdə bir yol xəritəsidir.

"Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" 6 mart 2000-ci il tarixində Heydər Əliyev tərəfindən imzalanmış fərman da məhz bu tarixi zərurətdən meydana gəlmişdi. Fərmanda qadınların bugünkü inkişaf, tərəqqi dövrünə qədər keçdiyi gərgin, keşməkeşli mübarizə yoluna diqqətlə nəzər yetirilir və respublikamızda qadın hərəkatının tarixi fəaliyyətinə yüksək qiymət verilirdi. Fərmanda qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması, gender tələblərinin rəhbər tutulması kimi vəzifələr irəli sürülür.

Azərbaycanda qadın hərəkatının dünya qadınlar birliyinə inteqrasiyası, beynəlxalq əməkdaşlıq, demokratik yolla gedərək, hüquqi dövlətin atributu kimi, qadınların vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirakının təmin edilməsi kimi müddəalar Fərmanın tələblərindəndir. Bu ali sənəddə respublikamızda gedən əsaslı islahatlar çərçivəsində qadınların kişilərlə bərabər hüquqlarının həyata keçirilmə mexanizmi aydın və konkret şəkildə öz əksini tapmışdır. Qeyd etmək istərdim ki, 2001-ci il 18-31 iyul tarixində Cenevrədə BMT-nin dəstəyi və təşkilatçılığı ilə keçirilmiş "İnsan hüquqlarının müdafiəsi və təşviqi"nə həsr edilmiş xüsusi Sessiyada bu fərmanın mətni İnsan hüquqlarının müdafiəsi sahəsində görülən işlər içərisində ən təqdirəlayiq addım kimi bütün iştirakçılara paylanmışdır.

Bu gün ölkəmizdə beynəlxalq standartların tələblərinə cavab verən dövlət qadın siyasətinin formalaşmasını, hətta ən mötəbər beynəlxalq təşkilatlar da təsdiqləyir. Artıq respublikamızda da qadın hüquqları, qadın hərəkatı və gender siyasəti təhsil müəssisələrində tədris edilməklə dərindən öyrənilir və elmi tədqiqat obyekti kimi tədqiq edilir. Heydər Əliyev irsi tükənməz və əbədiyaşar irs olmaqla həm də mənəvi zənginliyimiz üçün işıqlı mirasdır. Heydər Əliyev irsi o qədər mükəmməl və zəngindir ki, onu bir tədqiqat işi ilə əhatə etmək mümkün deyil. Əminik ki, gələcək nəsillər tərəfindən də Zəfər yoluna işıq saçan bu irs tədqiq ediləcək, öyrəniləcək, xalqımızın, dövlətimizin gələcəyi, çiçəklənməsi və rifahı naminə tətbiq ediləcəkdir.

İllər keçəcək, əsrlər və qərinələr bir-birini əvəz edəcək, Azərbaycan qadını daim ölkəmizdə əzəmətli qadın hərəkatına görə müasir dövlətimizin qurucusu, dahi şəxsiyyət, gözəl insan, dünya şöhrətli siyasətçi Heydər Əliyevi ehtiramla yad edərək ona daim minnətdar olacaqdır.

*Məlahət İBRAHİMQIZI,*
*Milli Məclisin deputatı*

# “Heydər Əliyev xatirələr işığında”

## *“Xalq qəzeti”nin “Heydər Əliyev İli”nə daha bir töhfəsi*

(əvvəli 1-ci səhifədə)

Kitabın əvvəlində qəzetin baş redaktoru Əflatun Amaşov “Borcumuzun bir misqalı...” adlı təqdimat yazısında bildirir ki, Ulu öndər Heydər Əliyev müasir müstəqil Azərbaycanın ATAsıdır: “Bu ifadəni işlətməkdən əsla çəkinmirəm. Biz və bizdən sonra gələn neçə-neçə nəsillər millət ATAsı Heydər Əliyevə mənən borclu olacağıq. Azərbaycan torpağına, xalqımıza nə qədər borcluyuqsa, elə bir o qədər də Heydər Əliyevə borcluyuq. Bu kitab da, ulu tarixmizə əbədiyyətə qədər bələdçi olacaq Heydər Əliyevə borcumuzun bir misqalı, bir damlasıdır. Heydər Əliyev böyük bir epoxanın keçmişə çevriləcək və oradan gələcəyə boylanacaq elə bir misilsiz dühadır ki, nəsillər onu dönə-dönə öyrənəcək, irsini sevə-sevə araşdıracaqlar”.




Baş redaktor daha sonra qeyd edir ki, millət ATAsına övladlıq borcumuzun bir misqalı olan bu kitab “Xalq qəzeti”nin 2023-cü il – “Heydər Əliyev İli” çərçivəsində Əməkdar jurnalist İlqar Rüstəmovun gerçəkləşdirdiyi “Heydər Əliyev xatirələr işığında” fərdi layihəsi əsasında hazırlanmış müsahibələr toplusudur. Müsahiblərin hər birində o böyük dühanın dövlətçilik fəaliyyətinin bir çox məqamlarına işıq salınır. Ulu öndərin yetirmələri, silahdaşları və davamçıları olmuş siyasət və dövlət xadimləri ilə aprılan bu xronikal söhbətləri son dərəcə maraqlı edən məqam isə ondan ibarətdir ki, həmin xatirələrdə müstəqil Azərbaycanın memarı və qurucusunun ölkəyə rəhbərliyinin hər iki dövründə baş vermiş, bu vaxtadək pərdə arxasında qalmış, bizə məlum olmayan fəaliyyətinin tarixi, önəm daşıyan fakt, hadisələr əksini tapıb.

Nəşrin oxuculara təqdim etdiyi yenilikləri açıqlayan yazıda daha sonra deyilir ki, ilk baxışdan gənc yaşlarından dövlət və hakimiyyət orqanlarında yüksək vəzifələrdə çalışan, sonra Azərbaycana rəhbərlik edən, daha sonra SSRİ kimi nəhəng dövləti idarə edən üç şəxsdən biri olan Heydər Əliyevin rahat bir həyat sürdüyü düşünülə bilər. Amma onun keçdiyi yola kitabda əksini tapan epizodlar, gerçəklər, xatirələr işığında baxanda bir daha məlum olur ki, Heydər Əliyevin bütün həyat və fəaliyyəti çox ziddiyyətli və gərgin tarixi hadisələr burulğanında keçib. O, hələ uşaq yaşlarından əzizlərindən şirin nağıllar yox, doğmalarına və el-obasına qarşı erməni cəlladları tərəfindən törədilən soyqırımları haqqında qandonduran gerçək əhvalatları dinləyə-dinləyə böyüyüb.

Xalqımızın gələcək lideri 14–15 yaşlarında “qırmızı imperiya”nın amansız həbslərinin, terror və sürgünlərinin şahidi olub. Gəncliyin şirin vaxtlarında isə milyonların ölümünə fərman verən İkinci dünya müharibəsinin ən acı və amansız günlərinin ağrılarını yaşayıb. Sonra da “Qırmızı imperiya”nın bu müharibənin xarabalıqları üzərində necə yüksəldiyini görüb və bu prosesdə karyerasının ən çətin, amma çox şərəfli dövrünü yaşamağa başlayıb.

Ulu öndərin müasirlərinin dövriyyəyə gətirdikləri “naməlum bioqrafiya”dan aşkar olur ki, xatırlanan hadisələr, daha doğrusu, bu siyasi fırtınalar burulğanında heç bir səhvə yol vermədən Azərbaycan naminə çalışmaq, işləmək, hakimiyyətin zirvəsinə aparan pillələrlə yüksəlmək, əsla adi insan zəkası, ağlı, cəsarəti, qətiyyəti və bacarığı ola bilməzdi. Elə ona görə də gənc yaşlarından yüksək mövqeli dövlət məmurlarının diqqət mərkəzinə düşən Heydər Əliyevə vəzifələrin, tapşırıqların ən mürəkkəbi və çətini həvalə edilib. Çünki onun ağlına, zəkasına və bacarığına kimsə şübhə etməyib.

Nəhayət, qorxulu və adı ilə belə insanlarda sürgün və terror xofu oyadan DTK adlı xüsusi xidmət orqanının Azərbaycandakı komitəsinə rəhbərlik edib. Burada, məhz bu qurumda Heydər Əliyev bu vaxta qədər xalqına və Vətəninə qarşı olan ədalətsizlikləri ən müdrik və gizli şəkildə haqq tərəzisinə qoymağa, xalqına layiq olduğu dəyərin verilməsinə çalışmağa başlayıb. Sonra isə böyük siyasətin ilk pilləsinə ayaq qoyub və Azərbaycana rəhbərlik edib. Bu kürsüdə canı qədər sevdiyi Azərbaycana xidmət etmək üçün daha böyük imkanlar yaranıb. Amma bu imkanların hər biri xırda bir səhv üzündən onun karyerasına son qoya bilərdi. Gənc istedad isə belə səhv etməyə əsla yol verə bilməzdi, çünki qarşıda daha böyük işlər və arzulara sığmayan planlar var idi.

Bu kitabda fikirləri əksini tapmış ilk müsahibimizdən birincisi olan Həsən Həsənovla əməkdaşımızın apardığı 11 söhbətdə Heydər Əliyevin Azərbaycana ilahi vurğunluğunun və ölkəsinin inkişafı üçün nələrdən keçdiyinin çox maraqlı məqamlarını oxuyur və bir daha o dahinin qətiyyətinə, cəsarətinə və zəkasına heyran olursan...

Çox keçmir ki, “Azərbaycana sığmayan”və “Moskvada lazım olan” Heydər Əliyevin hakimiyyətinin miqyası və dairəsi böyüyür. Bundan sonra ona həsəd aparan, azərbaycanlı olduğu üçün onu heç cür qəbul edə bilməyən, fürsət düşəndə arxadan ona zərbə vurmağa çalışanlar da artır. Nəhayət, SSRİ-nin xilasını məhz Heydər Əliyevdə görən İttifaq rəhbərləri dünyadan köçər-köçməz, böyük azərbaycanlı Kremldə arzuolunmaz şəxsə çevrilir. Bəzi rus tarixçilərinin etiraf etdiyi kimi, elə bununla da SSRİ-nin dağılmasına hökm verilir. Kitabdakı müsahiblərimiz yeri gəldikcə bu haqda da kifayət qədər maraqlı faktlar açıqlayırlar.

İmperiya dağılanda, dövlət müstəqilliyinin əsaslarını yaratmağa illərin əməyini sərf etdiyi Azərbaycanın faciəyə sürükləndiyini görən Heydər Əliyevin ürəyi dağlanır. Susmağı, özünü kimlərəsə yaxşı göstərməyi bacarmayıb, münasibətini, mövqeyini ortaya qoyur. Amma hakimiyyət hərisləri bu ustad siyasətçinin məsləhətlərinə qulaq asmaq yerinə, ciddi rəqib bildikləri, doğma Naxçıvanın qucaq açdığı Heydər Əliyevə qarşı mübarizəyə başlayırlar. Heydər Əliyevin xidmətlərini unutmayanlar isə ona dəstək olmağa çalışırlar. Bu haqda da müsahibələrdə zəngin və son dərəcə maraqlı faktlara yer verilir.

...Azərbaycan uçuruma, fəlakətə yaxınlaşır. Son məqamda xalq xilas üçün Heydər Əliyevə üz tutanda, dünya şöhrətli siyasətçi və dövlət xadimi bütün ədalətsizlikləri unudaraq Azərbaycanın miskin günə düşmüş baş kəndinə, heç də asan olmayan hakimiyyət məsuliyyətini üzərinə götürməyə gəlir. Gəlir ki, həm canı qədər sevdiyi Azərbaycanı və onun dövlətçiliyini, həm də son ümidini ona bağlayan xalqını xilas etsin.

Kitabda sonrakı müsahib-həmsöhbətlər də – Baş prokuror Kamran Əliyev, görkəmli yazıçı, sabiq Dövlət müşaviri Hidayət Orucov, Baş nazirin keçmiş müavinləri Əli Həsənov və Abid Şərifov, nazir və komitə sədrləri Misir Mərdanov, Vilayət Quliyev, Əhməd Əhmədzadə, Heydər Əliyev barədə kinoserialın ünlü rejissoru Vaqif Mustafayev, müxtəlif rəhbər vəzifələrdə çalışmış Bilal Mahmudov Ulu öndərin dastanlara sığmayan həyatının onlara bəlli, unudulmaz məqamlarını indiki nəsillərə nəql edirlər.

Bir daha şahid oluruq ki, ömrü mübarizələrdə keçmiş, ədalətsizliklərdən qəlbi, sözün əsl mənasında, qırılmış 70 yaşlı Heydər Əliyev ağıla gəlməyən enerji və qətiyyətlə yerdə qalan ömründə uzun illər qəlbində gəzdirdiyi, xəyalında canlandırdığı arzusunu – müstəqil Azərbaycanı dünyaya günəş kimi doğan bir məmləkət kimi yüksəltmək amalını necə gerçəkləşdirir. Bu xatirələrin işığında xalqını canından artıq sevən, müstəqil Azərbaycanı təməldən qurmağa başlayır. 10 ildə ağıla gəlməyən işlər həqiqətə çevrilir.

Məhz Heydər Əliyevin reallaşdırmağa başladığı beynəlxalq enerji layihələri sayəsində miskin Azərbaycan az bir vaxtda dünyanın diqqət mərkəzinə düşür, müasir ölkənin iqtisadi qüdrətinin əsasları qoyulur. Ulu öndər ölkəyə yeni Konstitusiya verir, onu müdaxilədən qoruyacaq, 27 ildən sonra torpaqlarımızı erməni işğalçılarından təmizləyərək Zəfər çalacaq Azərbaycan Ordusunun sürətli inkişafını təmin edir. Ən başlıcası isə dünyanı inandırır ki, Azərbaycan müstəqil dövlət kimi sərbəst xarici siyasət aparır və bütün ölkələrlə bərabər səviyyəli əməkdaşlığa açıqdır.

Kitabın redaktoru və ön sözün müəllifi sonda bu açıqlamalarına əlavə olaraq bildirir ki, nə qədər Heydər Əliyevin müasirləri yaşayır, biz Ulu öndər haqqında yaddaşlarda yaşayan xatirələri toplayıb qələmə almalıyıq. Bunu özümüzə yanaşı, gələcək nəsillər üçün də etməliyik: “Heydər Əliyev insanın dünyada əbədi olmadığını, ancaq adının əbədi qala biləcəyini bilirdi. Əbədiyyəti də hər adamın qazana bilməyini çox görmüşdü. Bütün bunlara rəğmən əbədi yaşamağa iddialı olmayan insan, tarix və xalq qarşısında, Azərbaycan qarşısında xidmətləri ilə adını əbədiyyət zirvəsinə qızıl hərflərlə yazdı. İllər ötəcək, tarixlər dönəcək, Azərbaycan hansı epoxaya qədər var olacaqsa, Heydər Əliyevin adı da onun tarixində əbədi yaşıyacaq”.

Nəhayət, kitabın özəl məziyyətlərindən biri də burada Ulu öndərin həyatfəaliyyətini əks etdirən “Dahi ömrünün anları” adlı 3 albomun yer almasıdır. “Azərbaycana doğan Günəş” Heydər Əliyevin hakimiyyətinin ilk dövrünü, “Möhtəşəm yüksəliş” onun Moskvada SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini olduğu və Naxçıvana qayıdışı dövrünü, “Qayıdışın zəfər təntənəsi” adlı albom isə müstəqil Azərbaycanın Prezidenti olduğu dövrü əhatə edir.

**Tahir AYDINOĞLU**
**XQ**




# Baş Prokurorluqda anım mərasimi

**Dekabrın 11-də Baş Prokurorluqda xalqımızın Ümummilli lideri, Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.**



Baş prokuror Kamran Əliyev bildirib ki, Heydər Əliyev irsini öyrənmək, onu təbliğ etmək, bu irsdən faydalanmaq, onu gələcək nəsillərə çatdırmaq bu gün dövlətimizin qarşısında duran vacib məsələlərdən biridir.

Vurğulanıb ki, Ulu öndərin respublikamıza ilk rəhbərlik etdiyi 1969-1982-ci illərdə onun təşəbbüsü və ciddi səyləri nəticəsində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradılıb, 250-dən çox ittifaq miqyaslı sənaye müəssisələri fəaliyyətə başlayıb.

Qeyd edilib ki, Heydər Əliyevin 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə siyasi hakimiyyətə qayıdışı tariximizin hərc-mərclik, ağır tənəzzül illərinə, uğursuz müharibə, Azərbaycan torpaqlarının bölüşdürülməsi planlarının reallaşması, torpaqlarımızın düşmənə təslim edilməsi dövrünə təsadüf edib. Məhz bu dövrdə Heydər Əliyev Azərbaycan dövlətçiliyini xilas edib.

Sonda Kamran Əliyev prokurorluğun kollektivinin daim Heydər Əliyev ideyalarına sadiq qalmaqla Ulu öndərin siyasi irsinin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən göstərilən yüksək etimadı doğrultmaq üçün bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəklərini bildirib.

**XQ**

# Hərbi Prokurorluğun Gədəbəydə yubiley tədbiri

**Hərbi Prokurorluq ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Gədəbəydə tədbir keçirib.**



Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlov, Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri Firad Əliyev, kadrlar şöbəsinin rəisi Elmir Süleymanlı və başqaları Ümummilli liderin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Sonra hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılıb, onlarla hüquqi maarifləndirici mövzularda söhbətlər aparılıb.

**XQ**

# Almaniyada kikboksinq üzrə “Heydər Əliyev Kuboku” turniri keçirilib

**Milli Məclisin Gənclər və idman komitəsi, Gənclər və İdman Nazirliyi, Diaspora İş üzrə Dövlət Komitəsi, Dünya Kikboksinq Təşkilatları Assosiasiyası (WAKO) və Azərbaycan Kikboksinq Federasiyasının (AKF) birgə təşkilatçılığı ilə Berlində “Heydər Əliyev İli” çərçivəsində kikboksinq üzrə “Heydər Əliyev Kuboku” uğrunda turnir təşkil olunub. Açılış mərasimində Milli Məclis Sədrinin müavini, Azərbaycan Kikboksinq Federasiyasının fəxri prezidenti Adil Əliyev çıxış edib.**

O, qonaqları salamlayaraq bugünkü qüdrətli Azərbaycanın məhz ulu öndər Heydər Əliyevin gərgin əməyinin bəhrəsi olduğunu diqqətə çatdırıb. Vitse-spiker ulu öndərin bütün sahələrə, xüsusilə də gənclər və idman sahəsinə göstərdiyi yüksək qayğıdan söz açıb, onun gənclərimizin milli-mənəvi dəyərlərə bağlı yetişməsi, idmanda kütləviliyin təmin olunması üçün gördüyü işlərdən danışıb.

A.Əliyev ümummilli liderin siyasətinin Prezident İlham Əliyev tərəfindən bütün sahələrdə uğurla inkişaf etdirilməsindən bəhs edərək, məhz müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunduğunu vurğulayıb. O, gənclərə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, dövlətimizin qüdrətlənməsi ilə bağlı tövsiyələrini çatdırıb.

Tədbirdə Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev Heydər Əliyevin dövlətçiliyimizin möhkəmləndirilməsində göstərdiyi böyük xidmətlərdən bəhs edib, ümummilli liderin diaspora işinə böyük önəm verməsindən danışıb.

Dünya Kikboksinq Təşkilatları Assosiasiyasının (“WAKO”) prezidenti Roy




Baker Azərbaycanın beynəlxalq yarışları yüksək səviyyədə təşkil etməsi və keçirməsi barədə danışıb, Azərbaycan kikboksinqçilərinin mütəmadi olaraq göstərdiyi yüksək nəticələrə diqqət çəkib.

Sonra Azərbaycan Kikboksinq Federasiyasının Prezidenti Orxan Əliyev ölkəmizdə idmana göstərilən qayğıdan söz açıb, “Heydər Əliyev Kuboku” barədə məlumat verib və yarış iştirakçılarına uğurlar diləyib.

Yarışda ölkəmizdən və dünyadan, Almaniyanın müxtəlif şəhər və bölgələrindən 1200-dən çox kikboksinqçi öz gücünü sınayıb.

“Heydər Əliyev Kuboku”nda 7 peşəkar döyüş keçirilib. Azərbaycan milli yığma komandasının üzvləri Amin Quliyev (63.5 kq), Ruslan Musayev (69 kq), Qəşəm Məmmədov (75 kq), Anar Məmmədov (60 kq), Rauf Gərayzadə (81 kq) və Elxan Əliyev (75kq) xarici ölkələrin kikboksinqçiləri üzərində parlaq qələbə əldə edərək “Wako Pro” kəmərləri qazanıblar.

Tədbirdə qurulmuş stendlərdə Azərbaycan mətbəxi və mədəniyyəti barədə qonaqlara məlumat verilib.

**XQ**

# Milli yaddaşın müqəddəs məkanı

(əvvəli 1-ci səhifədə)

12 dekabr Azərbaycan xalqının müqəddəs yaddaş yeridir! Yəni, Azərbaycan xalqı bu gün, indi nəyi bilmək lazım gəldiyini artıq bilir! Bu bilgini sadəcə xatırlatmada deyil, həyatın qaynar qatında canlı yaşadır! Onu hər gün aktuallaşdırır, əyaniləşdirir ki, yaddaş yerinin bu guşəsi əbədi olsun! Çünki Anım günü Azərbaycan xalqının keçmişini indisi və indisini gələcəyi ilə bağlayıb, onu yaşadan Ümummilli lideri ilə bağlıdır! Heydər Əliyev cəmiyyət üçün ən ağrılı, xaotik və ümidsiz bir dönəmdə uğur qazanmağı millətə öyrədən, onu zəfərlərə alışdıran və bu əsasda toplumun yaddaşından nələrisə təmizləyən dahi şəxsiyyətdir!

Nələrisə xalqa unutdurmağı bacaran insan necə yaddaşlarda əbədi qala bilir? Bu da başqa bir fəlsəfi paradoksdur. Ancaq o qədər dərin və konstruktiv mənası vardır ki! Yaddaşı daimi daxili özünütoparlama mənasında ruhun tamlığı kimi dərk etsək, vurğulanan paradoks aydınlaşar. Məsələ ondan ibarətdir ki, ruhun tamlığını saxlamaq üçün hər bir xalq yaddaşsızlığa, xaosa, qarışıqlığa, keçmişlə indi arasında bağlantı qurmağa imkan verməyən qarışıq dönəmə daxil olur. Bu zaman toplum miqyasında bir psixoloji apatiya, ümidsizlik, hardan gəldiyinə münasibətdə unutqanlıq yaranır. Bunu konkret yaşadığı zamanda ona olan təsirlər, təzyiqlər, yayındırıcı, dağığıdıcı proseslər fonunda edir.

## Ümidsizliyi, uğursuzluğu unutdurmaq səriştəsi

Deməli, real surətdə məhv olmaq təhlükəsi ilə üz-üzə qalır. Obrazlı desək, bütöv bir xalq kollektiv surətdə Xorxe Luis Borxesin məşhur yenyetmə Funesin vəziyyətinə düşmək riskinə doğru gedir. Funes aldığı travmadan lazım oldu-olmadı hər şeyi anına qədər yaddaşına yazır – özündən asılı olmayaraq! Bu mənada "həyat boyunda yaddaş" sindromu yaranır! Bax, bu cür dağıdıcı yaddaş tendensiyasından lazımlı unutqanlıq qurtuluş yolu ola bilər. Fərddən fərqli olaraq millətin yaddaşından uğursuzluğu, ümidsizliyi və keçmişlə indi arasındakı mənəvi-psixoloji uçurumu aradan götürməyə çox böyük iradə, liderlik qüdrəti, aparıcılıq, inandırma keyfiyyəti və şəxsi nümunə ola bilən dahi şəxsiyyət lazımdır!

Keçən əsrin 90-cı illərində ümummilli lider Heydər Əliyev bu missiyanı yerinə yetirdi! Belə xilaskarı anmaq, həm də daim anmaq artıq millətin mənəvi, tarixi və psixoloji borcu, həm də, sosial-siyasi-mənəvi məsuliyyətidir!

12 dekabr bu alamda da yaddaşı təzələmək, onun alt qatındakı yaşantılara indi baş verənlərin paradoksallığı, məntiqi, ümidləri və perspektivləri işığında bir daha baxmaq deməkdir! Biz bu daxili hesabatı özümüzə verməsək, onda toplum olaraq keçmişi¸ indini və gələcəyi görə bilmərik! Heydər Əliyev haqqında yaddaş olmadan gələcəyi görə bilməyimiz mümkün deyildir!

12 dekabr – Anım Günü bu mənada həm də şüurumuzun müasir dövlətçilik və Zəfər savaşı ilə bağlı yaddaş qatında dönüş nöqtəsidir! Azərbaycan xalqı 30 il öncə yaddaşına yeridilməyə çalışılan zərərli simptomlardan xilas edən ümummilli liderini, eyni dərəcədə ona uğur qazanmağı öyrədən Ulu öndərini anmalıdır ki, haradan gəlib hara getdiyini düzgün müəyyən etsin! Anım Günü dövlətçilik, müstəqillik, zirvələrə yüksəliş "kompasıdır"! Onu qətiyyən itirmək olmaz!

## Yaddaş, anım, "ilk şəfqət" və ya "yaddaşın Daosu"

> **Nəyisə bilmək üçün onu artıq indi bilmək lazımdır.**
> **Sokrat**

Anmağın fəlsəfəsində incə məqamlar çoxdur. M.Prust deyirdi ki, hər kəs nəyicə "ilk şəfqəti"ndə görməlidir! Ancaq problem ondadır ki, "ilk şəfqət" həm "tutulur", həm də "tutulmur" (Dao kimi həm var, həm də yoxdur, həm tutulur, həm də tutulmur. Yəni o, bir an parlayır, işığını saçır, sonra digər əşyaların arasında "qeyb olur". Onu ancaq insan zəkası, yaddaşı və mənəviyyatı təkrar "tapıb canlandıra" bilər! Bütün işıqlı, zəkalı və şəfqətli insanların taleyinə yazılan həqiqətdir, bu.

Heydər Əliyev bütöv bir qövmün, millətin, Türk dünyasının XX əsrdə parlayan və işığını dövlətçilik yolunda XXI əsrin keşməkeşlərini yarmağa qadir surətdə gələcəyə ötürən "ilk şəfqəti"dir! Anım günü bu şəfqətin zamanlaşan, rəmzləşən, lakin işığını daim saçan məqamıdır! Anım günündə Heydər Əliyevi anmaq bu mənada, onu öz zaman sürəcində canlandırmaq, yaşatmaq və bununla şüurla mənəviyyatın "ortaq sahəsi"ndə özünü diriltmək deməkdir! Yaddaşında "öz"ünü yenidən yaratmaq və kəşf etmək deməkdir!

Mədəniyyətin güclü olduğu yerdə "hər şey artıq gecdir" deyimi keçmir. Çünki dünya öz-özünə əbədiləşmir – onu hər anda öz dünyasında yaradan insan lazımdır! O insana da aparıcı mayak, yoluna işıq salan lider gərəkdir! Belə olanda "hər şey artıq gecdir" deyimi "hər şey indidir, hər şey gələcəkdir" nikbinliyinə çevrilir!

## "Keçmişi tarixləşdir ki, özün tarix yarada biləsən"

Fridrix Nitşe bütün fəlsəfi mövzularda maraqlıdır. Yaddaş və tarix məsələsində də ondan öyrənməli çox şey var. F.Nitşe deyirdi ki, keçmişdən elə yararlanmaq lazımdır ki, tarix yarada biləsən! Bunun üçün keçmiş olanı həyat üçün tarixə çevirmək qabiliyyəti olmalıdır! Həmin mənada "insan insan yaratmalıdır"!

F.Nitşenin dəli olub-olmaması ilə işimiz yoxdur, lakin bu fikirlərdə yaddaş və tarixlə bağlı çox dərin incəliklər vardır. Onların izahı bir neçə kitablıqdır. Anmaq məsələsində isə bu böyük alman filosofun təfəkkürü aydındır! Sadələşdirək: hər bir fərd və deməli, hər bir toplum keçmişini tarix statusunda anmağı bacarmırsa, onun nə indisi var, nə də gələcəyi! Bu kontekstdə X.Uaytın da F.Nitşenin bir fikrini sevməsinin intellektual haqqını vermək lazımdır. Uaytın sevimli Nitşe cümləsi: "İnsan...həm unudur, həm anır, və bu dixotomiya sırf insanidir, unikaldır; insan unutqanlığı heyvan "unutqanlığından" fərqlənir, zira o, (insan unutqanlığı – F.Q.) insanı öz məxsusi keçmişində qalmaq [əbədi, həmişəlik] üçün sərf etdiyi faydasız zaman itirmək məsələsini həll edərək, yaddaşın izini silməyi tələb edir"! Bax, bu cür müsbət yaddaş silinmələrinin mayakı, istiqamətverici faktoru "yaddaş yerləri"dir!

## Yaddaşımızın qürur qaynaqları

O cümlədən, Anım günləri nəyi yaddaşdan silməyin və nəyi saxlamağın məzmun və sərhədini müəyyən edir! Bu mənada 27 Sentyabr Anım gününü 12 Dekabr Anım günü məzmunlaşdırmış, ona güc, qüvvət, məna, perspektiv və gələcək vermişdir! Bu iki Anım günü dahi liderlik Zirvəsi ilə şəhidlik Zirvəsini birləşdirmişdir! Bu müqəddəs vəhdət Ulu Öndərin zəka ziyasının ilk şəfqətində Azərbaycanın müstəqil güclü dövlətçiliyinin, milli ləyaqətinin və parlaq gələcəyinin fəlsəfəsini təcəssüm etdirməkdədir!

Biz diriyik. Biz yaşayırıq. Biz ümidliyik. Çünki 12 Dekabr və 27 Sentyabr kimi Anım günlərimizin ilk şəfəqin izi ilə gələcəyə irəliləyirik! 12 Dekabr xalqın Ümummilli liderinin Anım günüdür! 12 Dekabr "Xalq qəzeti"nin Heydər Əliyevi Anım günüdür! Millətimiz həmişə yaddaşlı olsun!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*



# Poeziya himayədarı

**İnsanın ömrü xalqın, Vətənin rifahı yolunda sərf olunursa, adı əbədi xalqının tarixinin şərəf səhifələrinə yazılır, ömrü ömürlərin xilasına doğru savab əməllərə yönəlirsə, daim milyonların alqışları, duaları ilə xatırlanır... Ulu öndərimiz kimi.**

Heydər Əliyev sovet hakimiyyətinin hökmündə olduğu bütün millətlərə mənliyini unutdurmaq siyasətini yürütdüyü zamanda xalqının, millətinin oğlu olaraq, gəlmişdi dövlət başına. Və ən çox mənəviyyatımızın zərbələr altında olduğu bir zamanda belə bir insanın qayğısına, himayəsinə sığınmaq bizim xoşbəxtliyimiz idi, əslində. Öz yurdunun ictimai-siyasi, sosial-iqtisadi həyatıyla yanaşı, mədəniyyəti, incəsənəti, ədəbiyyatı, tarixi, milli-mental xüsusiyyətləri sahələrində özünəməxsus yüksək intellekti ilə hərtərəfli geniş biliyə malik olduğu, bağlılığı elə ilk çıxışlarından hiss edilirdi. Xalqın təfəkkürünə doğma olan belə istinadlar, ana dilində sərrast nitqi camaatın ona ərkini, hörmətini artırırdı. Nitqlərinin birində Fikrət Qocanın "Rüşvətxorlar"adlı şeirindən:

**Haradasa iki namərd**
**Oturub üz-üzə indi:**
**Biri rüşvət alandı,**
**Biri rüşvət verəndi.**
**İlan kimi qıvrılıb**
**Xəyanət yatır pullar altında.**
**Onlar qeyrət satıb,**
**Vətən satıb pullar altında,**
**Bəlkə də düşünüblər Vətən nədir –**
**Bir az torpaq, bir az da sudur.**
**Cahil, Vətən Koroğlu qeyrətidir,**
**Həcər namusudur.**
**Rüşvətxora hər cür rüşvət gərəkdir.**
**Rüşvət də rəng-rəngdir.**
**Böyüklər qarşısında**
**əyilib-düzəlmək rüşvəti var.**
**Yaltaqlığı da rüşvət alan olur.**
**Rüşvət həqiqətə bənzər yalan olur.**
**Rüşvət puluna**
**Uşağına "Əlifba" kitabı alan olur.**
**Rüşvət-xəyanət ocağıdır,**
**Rüşvət-kürəyimizə sancılan xain bıçağıdır.**
**Elə bu rüşvətxorlar idi**
**Babəki qızıla satanlar -**
**Yadların ayağına atanlar.**
**Onlar Gəncədə Məhsətini**
**Daşqalaq elədi,**
**Susduq ki, neyləyək, taleyi belədi.**
**Bakıda Sabiri qoçulara söydürdülər.**
**Fitva verib**
**Hələbdə Nəsimini soydurdular.**
**İndi də qaranlıq bir evdə,tində,**
**Dalanda**
**Onlar rüşvət verəndə, rüşvət alanda,**
**Yenə biz oluruq müqəssir.**
**Babək yenidən düşür əsir.**
**Məhsəti təzədən daşqalaq olur.**
**Nəsimi təzədən soyulur.**
**Axtarın!**
**Hardasa iki namərd oturub üz-üzə indi:**
**Biri rüşvət alandı,**
**Biri rüşvət verəndi.**

"Rüşvət xəyanət ocağıdır, rüşvət kürəyimizə sancılan xain bıçağıdır" misrasını misal gətirmişdi. Fikrət Qoca hələ o zaman bir dövlət başçısının nəzərini cəlb etməyəcək qədər gənc idi. Cavan bir şairin şeirindəki müraciəti millətinin övladlarını yaxşı tanıyan, qədrini bilən dövlət xadiminin yüksək diqqəti, ali həssaslığından xəbər verirdi. Sonralar da milli lider, xalqın adamı olduğunu yurdun sadə insanına ehtiramlı, səmimi davranışı, Vətənin şərəfini ucaltmaq missiyası ilə sübut etdi. Bu böyük dahinin milli-mədəni dəyərlərimizə, istedadlı gənclərə, əmək adamlarının, ziyalıların, elm xadimlərinin zəhmətinə qayğı və hörmət dolu münasibəti xalqımızın hamılıqla örnək olaraq qəbul etdiyi ən vacib xüsusiyyətlərə çevrildi və biz də – o dövrün yeniyetmələri, məhz belə qədirşünaslığın tərbiyəvi əsasları üzərində böyüdük, müstəqil həyatımıza qədəm basdığımızda görüb-götürdüklərimizi unutmadıq. Həyatımızın taleyüklü məsələlərində belə Heydər Əliyev fenomeni, sözün əsl mənasında, ömrümüzün işıq saçan mayakı oldu. Bu fikirləri kimdənsə eşitdiklərimə deyil, şəxsi həyatımda yaşadıqlarıma istinadən deyirəm.

1986-cı ilin avqustunda ailəmiz ağır bir çarəsizliklə üz-üzə qalmışdı. Ağrı-acısını heç vaxt üzə vurmayan Fikrətin səhhətindəki artıq gizlədə bilmədiyi narahatlıqlar müxtəlif bəhanələrinə baxmayaraq, yoldaşının israrlı təkidi onu həkimə yönəltmişdi və müayinənin nəticələri, həkimin qərarı hamımızı sarsıtmışdı. Məlum olmuşdu ki, ağ ciyərlərinin sol payı şişlə örtülüb. Həyatının sanılı günlərini yalnız zamanın cərrahiyyə möcüzəsi səviyyəsində edilən müdaxilə uzada bilər ki, bu da mümkün görünmürdü.

O günlər yaddaşımın qaranlığına kösöv kimi közərən bir neçə detalla həkk olundu: Fikrətin üzünə çökmüş mis rəngi, kiçik məktəbli qızlarını izləyən kədərlə dopdolu gözləri, tələm-tələsik yoldaşıyla birlikdə çapa hazırladığı yeni kitabının nizamsız düzümü, anamın Fikrətin dediyi kimi "xəstələr yanında ümid tək gəzən" həkim atamızdan imdad istədiyi yuxuları və göyə açılı titrək əlləri... Düzdür, atamızın qəfil ölümüylə əziz insanın itkisinin əzabını dadmışdıq artıq. Lakin bu sınağın dəhşəti hər birimizin boyundan, çəkə biləcəyindən çox böyük idi. Ailəliklə Fikrətlə bərabər xəstə düşmüşdük, işimiz-gücümüz, ovqatımız, həyatımız donmuşdu sanki, bir-birimizin üzünə baxmağa belə taqətimiz qalmamışdı, nə edəcəyimizi bilmirdik. Belə bir zamanda Allahın göndərdiyi qurtuluş kimi Heydər Əliyev imdadımıza yetişdi.

O vaxtlar artıq Moskvada işləyirdi. Təsadüf elə gətirmişdi ki, həmin illərdə Sevil xanım Fikrətlə bir neçə mahnı, o cümlədən, Zərifə xanımın xatirəsinə həsr etdiyi məşhur "Ana" mahnısını işləmişdi və onu tanıyırdı. Xəstəliyinin ciddiliyini biləndə atasıyla danışmış və Ulu öndərimiz təcili olaraq Fikrətin Moskvaya gətirilməsini məsləhət görmüşdü. Az zaman içərisində onun klinikaya yerləşdirilməsini, təhlillərinin, təyinatlarının aparılmasını, ən bacarıqlı onkoloq cərrahın əməliyyatı yerinə yetirməsini təşkil etmişdi...

Uğurlu əməliyyatla sağlığına qovuşmuş Fikrət həmişə deyirdi ki, indiki ömrümü göydə Allahın, yerdə Heydər Əliyevin sayəsində yaşayıram və onun həssas münasibətini heç vaxt unutmurdu. Deyirdi ki, əməliyyatdan bir az sonra zəng edib mənimlə danışdı, ürəkdirək verdi; "Fikrət, birdən qorxarsan, qorxma, – dedi. – Əməliyyatın yaxşı keçib, heç nəyin qalmayıb. Mənim bir tanışım neçə il qabaq sənin kimi əməliyyat olunub, artıq yaşlı adamdır, voleybol oynayır nəvələrilə. Sən də çox yaşayacaqsan, hələ cavansan, xalqa lazımlı adamsan, möhkəmlənəcəksən, özünə fikir ver..."

Fikrət, həqiqətən, ondan sonra bir ömür yaşadı, yazdı, – yaratdı, xalqının mədəniyyət xadimi kimi fəaliyyət göstərdi, ədəbiyyat adlı məsləkinə vicdanla xidmət göstərdi. Ulu öndərimiz isə ailəmizin, bir həyat qədər borclu olduğu əziz İnsanı, dualarımızın, alqışlarımızın ünvanı oldu. İndi də dünyadan köçmüş əzizlərimin sırasında ərk etdiyim əzizim kimi onun ruhuna dualarımı göndərirəm.

Dövlətimizin müzəffər başçısı, atasından yurdçuluğu miras alıb, böyük nailiyyətlərlə davam etdirən oğlu İlham Əliyevin ömrünün uzun, canının sağlam olmasını milyon-milyon insanımızla bərabər Tanrıdan diləyirəm. Çünki yurdumuzun, xalqımızın şərəfinin keşikçisi olduğuna, atasından qalan Vətənə xidmət işini ömürü boyu qəlbi və ruhuyla davam etdirəcəyinə hamı kimi mən də qətiyyətlə inanıram, Ulu öndərimizin vəsiyyətlərini daim ləyaqətlə yerinə yetirdiyi qədər də yetirəcəyinə, Vətənimizin, xalqımızın inkişafı naminə heç nəyi əsirgəməyəcəyinə əminəm.

*Güldəniz QOCAYEVA,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, dosent*

# Türkiyə ikinci böyük ticarət tərəfdaşımızdır

## *İlin əvvəlindən dövriyyə ikiqat artaraq 6,7 milyard dollara yüksəlib*



**Bakıda Türkiyə və Azərbaycan İş Adamları Birliyinin təşkilatçılığı ilə "Heydər Əliyev 100 – Bir millət, iki dövlətin iş dünyası" mövzusunda keçirilən konfransda qardaş və dost ölkə ilə əlaqələrin daim yüksələn xətlə inkişaf etdiyi bildirilib. Eyni zamanda, həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına töhfə verən TANAP-ın və Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin uğurla fəaliyyət göstərdiyi diqqətə çatdırılıb.**

Xüsusi olaraq vurğulanıb ki, heç bir xarici şirkətin və beynəlxalq maliyyə təşkilatının iştirakı olmadan, məhz Azərbaycanın təşəbbüsü ilə gerçəkləşdirilən Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi Şərq-Qərb Nəqliyyat Dəhlizinin fəaliyyətinin canlandırılmasına, yükdaşımaların əhəmiyyətli dərəcədə artmasına və nəticə etibarilə regonal inkişafın sürətlənməsinə gətirib çıxarıb.

Məlum olduğu kimi, hazırda qardaş Türkiyə Cümhuriyyəti, həm də ölkəmizin əsas ticarət tərəfdaşlarından biridir. Hazırda Türkiyənin həm idxalda, həm ixracda, həm də ikitərəfli dövriyyədə ölkəmizin ikinci əsas ticarət tərəfdaşı olması da bunu sübut edir. İki qardaş ölkə arasında ticarət əlaqələri isə davamlı olaraq artmaqdadır. Belə ki, 2022-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 7,9 faiz artaraq 3,3 milyard ABŞ dolları təşkil edib. 2023-cü ilin yanvar-oktyabr aylarında isə bu göstərici 6,7 milyard dollara çatıb. Bununla belə, ölkələrimiz arasında ticarət əlaqələrinin daha da artırılması üçün imkanlar olduqca genişdir.

Təsadüfi deyil ki, Bakıda keçirilən "Heydər Əliyev 100 – Bir millət, iki dövlətin iş dünyası" mövzusundakı konfransda Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı bu rəqəmin ilin sonunadək daha 20 faiz artırılacağını bəyan edib. Səfirin sözlərinə görə, 2023-cü ilin sonunadək ölkələrimiz arasında ticarət dövriyyəsi 7,5 milyard dollara çatdırılacaq.

Türkiyə ilə Azərbaycan arasında münasibətlərin bütün sahələrdə inkişaf etdiyini vurğulayan Cahit Bağçı bu məsələdə iqtisadi əməkdaşlığın xüsusi yer tutduğunu diqqətə çatdırıb. O deyib ki, əsas hədəf Azərbaycanla ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılmasıdır və mövcud rəqəmlər bu hədəfə gedən yolun yarısında olduğumuzu göstərir. Türkiyə, həm də Azərbaycanın qeyri-neft məhsullarının əsas alıcısıdır. Təkcə onu qeyd etmək kifayətdir ki, cari ilin oktyabr ayında Azərbaycanın bu növ məhsullar ixrac etdiyi ölkələrin siyahısında 44,1 milyon dollarlıq göstərici ilə Türkiyə ikinci yeri tutub. Bütövlükdə isə, bu ilin yanvar-oktyabr aylarında qardaş ölkəyə 675,9 milyon dollarlıq qeyri-neft malları göndərilib.

Yeri gəlmişkən, Türkiyə – Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun İdarə Heyətinin üzvü Selçuk Akat bir qədər əvvəl ölkələrimiz arasında bu ilin aprel ayında imzalanmış Preferensial Ticarət Sazişinin əhatə dairəsinin genişləndirilməsi ilə bağlı protokolu xatırladaraq bildirib ki, sənədə əsasən, mövcud siyahıya bəzi kənd təsərrüfatı və sənaye məhsulları əlavə edilib və onlara qarşılıqlı güzəştlərin tətbiqi nəzərdə tutulur. Bu isə, iki ölkə başçısının ticarət dövriyyəsinin həcminin 15 milyard dollarıdək artırılması ilə bağlı qarşıya qoyduğu hədəflərə çatması üçün mühüm addımdır.

"Heydər Əliyev 100 – Bir millət, iki dövlətin iş dünyası" mövzusundakı konfransda, həmçinin Türkiyənin neft və təbii qaza olan tələbatının ödənilməsi baxımından qardaş ölkə Azərbaycanın birinci yerə yüksəldiyi və digər tərəfdən, respublikamızın Qərbə enerji ixracında Türkiyənin mühüm körpü rolu oynadığı xatırladılıb.

Bu gün, həm də ölkələrimiz arasında investisiyaların mübadiləsi sahəsində də əməkdaşlıq da ən yüksək səviyyədədir. Belə ki, hazırda qardaş ölkənin respublikamıza yatırdığı, o cümlədən Azərbaycanın Türkiyəyə yönəltdiyi investisiya xarici dövlətlərə yatırılan investisiyalarla müqayisədə birinci yerdədir. Ötən müddətdə Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard dollara qədər investisiya yatırıb. Yeri gəlmişkən, SOCAR-ın 2018-ci ilin sentyabr ayında 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda "Petkim" neft-kimya kompleksinin ərazisində inşasını tamamlayaraq istifadəyə verdiyi "Star" neft emalı zavodu Türkiyəyə birdəfəlik yatırılan ən böyük investisiya hesab olunur.

Türkiyədən Azərbaycana yönəldilən birbaşa investisiyaların həcmi isə 15,2 milyard dollar təşkil edib. Bunun da 11,7 milyard dolları neft-qaz sektorunun, 3,5 milyard dolları isə qeyri-neft sektorunun payına düşür. Türk şirkətləri, əsasən, enerji, sənaye, telekommunikasiya, bank və sığorta, inşaat, nəqliyyat, qida, yüngül sənaye (tekstil) və səhiyyə kimi sahələrdə fəaliyyət göstərir. Bütövlükdə isə, bu il dekabrın 1-nə olan məlumata görə, Azərbaycanda 5678 Türkiyə investisiyalı kommersiya qurumu qeydiyyatdadır. Onların da 4019-u sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət, xidmət sektorlarında aktiv fəaliyyət göstərir. Türkiyə şirkətləri, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında da xüsusi fəallıq göstərirlər. İndi qardaş ölkənin şirkətləri tərəfindən həmin ərazilərdə müxtəlif istiqamətlər üzrə 107 layihə həyata keçirilir.

Hazırda Türkiyədə Azərbaycan sərmayəli 2 mindən artıq şirkət fəaliyyət göstərir. Ümumilikdə, Türkiyəyə investisiya qoyan azərbaycanlı iş adamları həm firma sayı, həm də investisiya həcmi baxımından Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdədir.

Qeyd etdiyimiz kimi, Azərbaycan–Türkiyə iqtisadi əməkdaşlığı ikitərəfli məsələlərlə yanaşı, regional iqtisadi əməkdaşlıq sahələrini də əhatə edir. Ötən müddətdə iki dövlətin birgə həyata keçirdikləri fəaliyyətin nəticəsi olaraq beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr icra olunub. Bu baxımdan Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Trans–Anadolu təbii qaz boru xətti, Trans–Adriatik boru xətti və Bakı–Tbilisi–Qars dəmir yolu xətti layihələri regional əməkdaşlığın bariz nümunələri kimi diqqət çəkir.

Yeri gəlmişkən, Milli Məclisin deputatı, iqtisadçı alim Vüqar Bayramov bildirib ki, iki dövlətin qardaşlıq münasibətləri digər ölkələr üçün də bir nümunədir. 2023-cü ilin geridə qalan aylarında ticarət dövriyyəsində artım tendensiyasının davam etməsi də bunun məntiqi nəticəsidir. Eyni zamanda, Türkiyənin Azərbaycanın ən böyük iqtisadi tərəfdaşlarından biri olduğunu vurğulayan deputatın sözlərinə görə, hazırda ölkələrimiz arasında iqtisadi əlaqələr bütün istiqamətlərdə inkişaf etməkdədir. Bu isə daha güclü Türk dünyası deməkdir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qazaxıstan Bakı limanı ilə neft ixracını 6 dəfə artırıb



**Bu ilin yanvar–noyabr aylarında Qazaxıstanın Aktau limanından Bakıya 1 milyon 238 min ton qazax nefti tədarük edilib ki, bu da 2022-ci ilin analoji dövrü ilə müqayisədə 6 dəfə çoxdur.**

Bu barədə Qazaxıstan Respublikasının magistral neft kəməri üzrə "KazTransOil" milli operatoru məlumat verib. Bildirilib ki, 2023-cü ilin 11 ayı ərzində Aktau limanından qazax neftinin ixracı 3 milyon 62 tona çatıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 14 min ton və ya 50 faiz çoxdur.

Qeyd edək ki, 2022-ci ildə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Transxəzər dəhlizi ilə neft tədarükünün həcminin artırılması barədə tapşırıq verib. Bu tapşırığa uyğun olaraq, "KazMunayQaz" Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti – SOCAR "Tengiz" yatağından Bakı–Tbilisi–Ceyhan neft kəməri istiqamətində ildə 1,5 milyon ton neftin nəqlini nəzərdə tutan saziş imzalayıblar.

# 140,3 milyon manat ƏDV geri alınıb

**Azərbaycanda uğurla tətbiq edilən "ƏDV geri al" layihəsi iqtisadiyyatın şəffaflaşdırılması istiqamətində mühüm nəticələr verməkdədir. Bu barədə Dövlət Vergi Xidmətinin yaydığı məlumatda bildirilib.**




Qeyd olunub ki, 2023-cü ilin yanvar-noyabr ayları ərzində fiziki şəxs olan istehlakçılar tərəfindən ölkə ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilmiş xidmətlərə görə ödənilmiş ƏDV-nin 140 milyon 288 min manat çoxu geri qaytarılıb.

Xatırladaq ki, ölkəmizdə bir sıra sahələrdə malların alışı və xidmətlərin göstərilməsi zamanı ƏDV məbləğinin nağdsız ödənişlər üzrə 17,5 faizi, nağd ödənişlər üzrə 5 faizi müvəkkil bank tərəfindən istehlakçılara geri qaytarılır.

# Fəal vergi ödəyicilərinin sayı 760 minə çatıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirildiyinə görə, 2023-cü ilin dekabr ayının 1-i vəziyyətinə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 6,6 faiz artaraq 759 min olub.**



Qeyd edək ki, hesabat dövründə aktiv ƏDV ödəyicilərinin sayı 13 faiz artıb və 45 min təşkil edib. Aktiv obyektlərin (təsərrüfat subyektlərinin) sayı ilin əvvəli ilə müqayisədə 8 faiz artaraq 205 minə çatıb.

***XQ***

# Transxəzər daşımaları bir neçə dəfə artacaq

## *Orta Dəhliz marşrutunun inkişafına 18,5 milyard avro vəsait qoyuluşu gözlənilir*

**Beynəlxalq "Ship2shore" saytında yayımlanan "Orta Dəhlizin Avrasiya boyunca istifadə olunmamış bütün potensialı" adlı məqalədə yaxın keçmişdə ölkəmizdə mövcud olan iki böyük donanmanın – Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilərək Xəzər Dəniz Gəmiçiliyinin (XDG) yenidən təşkil olunduğu vurğulanır. Məqalədə XDG-nin təsis olunması ilə ölkədə və beynəlxalq gəmiçiliyinin gücləndirildiyi bildirilir.**

Qeyd edilir ki, TransXəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin (Orta Dəhliz) potensialından indiyədək tam istifadə olunmayıb. Beynəlxalq gərginlik zamanı bu istiqamətə diqqət ayrılması Avropa və dəhliz ölkələri, xüsusən də Azərbaycan üçün zəruridir. Bəzi hesablamalara görə, Orta Dəhliz boyunca dəmir yolu və avtomobil dəhlizlərinin bərpası, modernləşdirilməsi, limanların imkanlarının artırılması üçün ən azı 18,5 milyard avro maliyyənin ayrılması tələb oluna bilər. Azərbaycan bununla bağlı Yol Xəritəsi təqdim edib. Bununla da yaxın 4 ildə tranzit yükdaşımaların hazırkı 10 milyon tondan 13 milyon tona çatdırılması hədəflənir.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin 2023-cü il noyabrın 23-də təsdiq etdiyi "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün Fəaliyyət Planı"na əsasən, növbəti üç il ərzində Azərbaycan ərazisindən daşınan tranzit yükdaşımalarının həcminin 2022-ci ilə nisbətən 27 faiz artırılaraq 10,7 milyon tondan 13,6 milyon tona çatdırılması nəzərdə tutulur.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

"Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Konteyner" MMC-nin məlumatına görə, bu ilin yanvar-noyabr aylarında Orta Dəhlizdə Azərbaycandan tranzit kecməklə Qərb-Şərq istiqamətində konteyner daşımaları ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə artıb.

Onu da deyək ki, bu günlərdə "Azərbaycan Dəmir Yolları" QSC-də (ADY) "Çin Dəmir Yolları" dövlət korporasiya şirkətinin nümayəndə heyətinin rəhbəri Huan Sin ilə keçirilən görüşdə cari ildə Çin ilə Azərbaycan arasında dəmir yolu nəqliyyatı vasitəsi ilə yük dövriyyəsinin artımında xeyli irəliləyiş müşahidə olunduğu, idxal daşımalarda ötən ilin analoji dövrü ilə müqayisədə 549 faiz, ixrac daşımalarda isə 331 faiz artım qeydə alınıb. Ümumilikdə isə ötən ilin eyni dövrü ilə müqayisədə iki ölkə arasında dəmir yolu nəqliyyatı ilə yük daşımaları 47 faiz artıb.




Görüşdə Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə yüklərin daha sürətlə və təhlükəsiz daşımaları, o cümlədən əlavə yüklərin cəlb olunması istiqamətində məhsuldar müzakirələr aparılıb. Belə ki, hər iki ölkənin gömrük və sərhəd məntəqələrində qatarların operativ yoxlanılaraq mənzil başına yola salınması, konteyner qatarlarının gündəlik təhvil-təslim qabiliyyəti, lokomotivlərin yerdəyişmə prosesi, yüklərin və vaqonların təhvil-təslim edilməsi və digər sahələrdə görülən yeniliklərdən danışılıb. Bildirilib ki, Azərbaycanda tranzit-logistika prosesində iştirak edən qurumların məlumat mübadiləsini və işlərinin koordinasiyasını təmin edən İşçi qruplarının yaradılması ilə son aylarda yaranmış multimodal daşımalar üzrə tələblər qarşılanmış və tranzitin artırılmasına imkan yaradılıb.

"Azərbaycan Dəmir Yolları"nda yükdaşımaların fasiləsizliyini və tranzit vaxtının optimallaşdırılmasını təmin etmək məqsədilə marşrut üzrə infrastruktur məhdudiyyətlərinin aradan qaldırılması, sənəd dövriyyəsinin elektronlaşdırılması, yük sahibləri üçün dəmir yolunda "Smart" proqramının tətbiqi, əməliyyatların bütün marşrut üzrə sinxronlaşdırılması, hərəkət heyətinin marşrut üzrə səmərəli bölüşdürülməsi məsqədilə tərəfdaş ölkələrlə birgə tədbirlər planı hazırlanaraq həyata keçirilir.

DB-nin bu günlərdə yaydığı hesabatda da Orta Dəhlizin gələcək fəaliyyət istiqamətləri haqqında müsbət proqnozlar verilib, Qazaxıstan, Azərbaycan və Gürcüstanın Orta Dəhliz ticarət marşrutunun diversifikasiyasında mühüm rol oynadığı diqqətə çatdırılıb. Bununla bərabər, hesabatda təchizat zəncirlərinin yönləndirilməsində, ölkələrarası ticarətin dayanıqlığının artırılmasında və bir sıra ənənəvi regional ticarət tərəfdaşlarından asılılığın azaldılmasında dəhlizin əhəmiyyətli təsiri xatırladılıb.

DB-nin hesabatında daha sonra qeyd olunub ki, marşrutun inkişafı məqsədi daşıyan xüsusi strategiya nəticəsində Qazaxıstan, Azərbaycan və Gürcüstan istehsal fəaliyyətlərinin kütləviliyini təşviq etməklə ixrac həcmini və məhsulların əlavə dəyərini artıra bilər. Belə bir imkan isə 2021-2030-cu illər üçün üç ölkənin yük bazasında ümumi potensialın 90 milyon tona (+44 faiz) yüksəlməsini, bunun isə 70 milyon tonunun Qazaxıstandan əlavə ixracın payına düşəcəyini şərtləndirər.

Hesabatda, həmçinin bildirilir ki, Orta Dəhlizin istismara verildiyi ssenaridə Xəzər dənizi vasitəsilə daşımaların həcminin 2030-cu ildə 11 milyon tona çatacağı gözlənilir. Bu isə 2021-ci ilə nisbətən 3 dəfə artım deməkdir. Xəzər dənizi vasitəsilə yükün təxminən 4 milyon tonunun konteyner vasitəsilə aparılacağı proqnozlaşdırılır. Konteynerlərin isə 1,5 dəfə artması gözlənilir. Eyni zamanda, təkmilləşdirmələrin həyata keçirilmədiyi təqdirdə daşıma tələbatının proqnozlaşdırılan artımdan 35 faiz aşağı olacağı qeyd edilir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Bakı–İrəvan: sülh üçün iki maneə keçilib, üçüncü də aşılacaq

## Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində nələri vurğuladı?

**Azərbaycan Prezidenti İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsində Azərbaycan–Ermənistan münasibətləri və Cənubi Qafqaz gündəmi ilə bağlı səsləndirdiyi fikirlər, ümumən, ölkəmizin sülh prosesinə sadiqliyinin yenidən bəyan edilməsidir. Nəzərə alaq ki, noyabrın 23-dəki müsahibə dekabrın 9-da yayımlanıb və ötən müddətdə iki region ölkəsi baxımından ən böyük hadisə – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş nazirin aparatının birgə açıqlaması yayılıb. Şübhəsiz, bu açıqlama əvvəlki gərginlik ritorikasını müəyyən qədər yumşaltma xarakterinə malikdir. Bununla belə, Prezident İlham Əliyevin toxunduğu xüsuslar hazırda yumşalma kimi görünən trayektoriyanın ahəngindən kənar deyil. Həm də ona görə kənar deyil ki, məlum birgə açıqlama yalnız xoş məram ifadəsidir. Yəni, başlıca məsələ məramın xoşluğunun əməldə də təsdiqini tapmasıdır.**

"Euronews" telekanalı müxbirinin Azərbaycan–Ermənistan münasibətlərinə dair sualı sülhün 2023-cü ilin sonunadək əldə olunmasının mümkünlüyü ilə bağlı Prezident İlham Əliyev yayda bu telekanala müsahibəsində bildirdiklərinin vurğulanması, daha doğrusu, yada salınması idi. Müxbir Azərbaycanın sentyabrın 19-da keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin bölgədə yaratdığı yeni durumu xatırladır, Qarabağ ermənilərinin evlərini tərk edib Ermənistana getmələrindən danışır və mövcud durumun sülh gündəliyinə təsirlərini qabardaraq, dövlətimizin başçısının məsələyə münasibətini soruşur.

Azərbaycan Prezidenti cavabında Bakı və İrəvan arasındakı, belə demək mümkünsə, sülh şərtləri mübadiləsinin mövcudluğunu vurğulayır və ölkəmizin sonuncu dəfə öz şərtlərini sentyabrın 11-də göndərdiyini bildirir. Ermənistanın cavabı isə noyabrın üçüncü ongünlüyündə olub. Ancaq "mən ümid edirdim ki, Ermənistan bizim təkliflərin nəzərdən keçirilməsi vaxtını uzatmayacaq", – deyir dövlətimizin başçısı. Belə nəticəyə gəlmək mümkündür ki, sentyabrın 19-dakı antiterror tədbirlərini doğuran bir səbəb də Ermənistanın Azərbaycanın sentyabrın 11-də göndərdiyi sonuncu sülh şərhlərinə cavabı gecikdirməsi olub. Cənab İlham Əliyevin təbirincə desək, İrəvanın süni olaraq prosesi ləngitmək istəyi duyulub və buna görə qətiyyətli addımlar atılıb.

Əlbəttə, məlum birgə açıqlamadan sonra da ilin sonunadək sülh sazişinin imzalanmasına dair ümidlər böyük deyil. Bu mənada da dövlətimizin rəhbərinin müsahibədəki fikirləri özünü doğruldur. Həm də ona görə doğruldur ki, əsas olan tərəflərin sülhə yanaşmalarıdır. Yəni, hər iki ölkənin gündəliyi önəmlidir. İşğaldan və etnik təmizləmədən əziyyət çəkən, deportasiyaya məruz qalan, təxminən 15 min kvadratkilometr ərazisi dağıdılan respublikamız sülh sazişini imzalamaq və delimitasiya işlərini başlamaq üçün təklif verib. Halbuki, verməyə də bilərdi.

***

Digər tərəfdən, Prezident İlham Əliyev hazırda Qarabağ məsələsinin bitdiyini vurğulayaraq, Ermənistanın Azərbaycanla razılığa gəlməkdə daha həvəsli olacağından söz açır və hesab edir ki, münaqişənin sona çatması İrəvana cəsarətli davranmağa əsas verəcək. Yəni, faktiki olaraq, ölkəmiz Ermənistan qarşısındakı maneələri aradan qaldırıb. Deməli, dövlətimizin başçısının qeyd etdiyi kimi, sülh üçün alternativ yoxdur. "Əgər sülh sazişi imzalanmasa, bu, bütöv bölgə üçün çox pis olacaq. Biz istəyirik ki, Cənubi Qafqaz bölgəsində hər hansı risk olmasın. Əlbəttə, biz istəyirik ki, Ermənistan nə bu gün, nə də gələcəkdə ərazi bütövlüyümüzü sual altına qoymasın və Azərbaycana qarşı hər hansı ərazi iddialarından tam əl çəksin", – deyən Prezidenti İlham Əliyev, təxminən, eyni fikri dekabrın 6-da ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumundakı çıxışı zamanı bir qədər də dolğun şəkildə ifadə etmiş və vurğulamışdı ki, Azərbaycana Ermənistanda revanşizm meyllərinin baş qaldırmayacağına dair qarantiya lazımdır.

***

Prezident İlham Əliyev "Euronews"a müsahibəsində ölkəmizin Ermənistanla sülh müstəvisində irəli sürdüyü beş prinsip üzərində də dayandı. Bunlar ölkələrin bir-birinin ərazi bütövlüyünü qarşılıqlı surətdə tanımaları, gücdən istifadə etməmə, ərazi iddialarından daşınma, kommunikasiyaların açılması və münasibətlərin normallaşmasıdır. Bəs, nəyə görə ötən müddətdə bu beş prinsip üzrə irəliləyiş əldə olunmayıb? Çünki İrəvan konstruktiv mövqe tutmayıb. Qeyri-konstruktivliyin ən böyük göstəricisi isə Ermənistanın sülh sazişinə Qarabağın erməni azlığına dair müddəanı salmaq istəməsi olub.

Yeri gəlmişkən, bu mənada antiterror tədbirlərindən və ölkəmizin Qarabağa tam sahiblənməsindən sonrakı durumu yada salmağa ehtiyac var. Konkret olaraq, Qranada gündəliyini. Söhbət Avropa Siyasi Birliyinin oktyabrın 5-də Qranadada keçirilmiş Zirvə toplantısı zamanı Ermənistanın baş naziri Nikol Paşinyanın, Fransa prezidenti Emmanuel Makronun, Almaniya Kansleri Olaf Şoltsun və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin birgə imzaladıqları sənədlərdən gedir. Həmin sənədlər, faktiki olaraq, Qarabağ ermənilərinin ayrıca təbəqə kimi göstərmiş, onların bölgəyə yenidən qayıtmaları üçün beynəlxalq təminatların vacibliyini vurğulamış, Azərbaycanın konstitusyon əsasda müəyyənləşdirdiyi hüquq və təhlükəsizlik təminatları heçə sayılmışdı. Deməli, Qərb dünyası sülh sazişinə erməni avantürizminin perspektivi və gələcək ərazi iddiaları üçün baza formalaşdırmağa cəhd göstərmişdi. Əlbəttə, belə bir durum Azərbaycanı qane edə bilməzdi. Elə ona görə də hazırda Qranada gündəliyi əhəmiyyətini tamamilə itirib. Bundan sonra Qərb dünyası hansı məsələni sülh sazişinə salmaq istəyirdi? Bu barədə də söz açacağıq. Hələlik isə yenidən müsahibəyə qayıdaq. Daha doğrusu, ölkəmizin liderinin müsahibədə bildirdiklərinə.

***



Bəli, cənab İlham Əliyev vurğulayır ki, Qarabağ erməniləri ilə bağlı məsələ ölkəmizin daxili işidir: "Əgər onlar Azərbaycanda erməni azlığı məsələsini əks etdirmək istəyirlərsə, onda biz də otuz il əvvəl Ermənistandan qovulmuş azərbaycanlı azlığı məsələsini daxil etmək istərdik. Özü də Ermənistanda azərbaycanlıların sayı ermənilərin Azərbaycandakı sayından daha çoxdur və təxminən 300 min insan təşkil edir. Bir sözlə, mövqeyimiz belədir ki, həmin məsələ qarşılıqlı olmalıdır. Biz iki milli azlığın məsələsini, onların hüquqları və təhlükəsizliyini, o cümlədən qayıtmaq hüququnu qeyd edək. Yəni, təkcə ermənilərin Azərbaycana qayıtması deyil, o cümlədən azərbaycanlıların Ermənistana qayıtması məsələsi qoyuruq. Azərbaycanlıların 30 il əvvəl qovulması və ermənilərin iki ay əvvəl ölkəmizi tərk etmək qərarı arasında fərqin əhəmiyyəti yoxdur. Fakt, sadəcə, ondan ibarətdir ki, bunlar qarşılıqlı olmalıdır. Yaxud da ki, biz sülh sazişində bu məsələni qeyd etmirik".

Prezident İlham Əliyev Ermənistanın Qarabağ erməniləri üçün hüquq və təhlükəsizlik məsələsini qabartmasının məqsədindən də söz açır. Hesab edir ki, bu, separatizm üçün zəmin formalaşdırmaq cəhdidir. Belə cəhd isə yolverilməzdir. Vaxtilə "Qarabağ Ermənistandır" deyən N.Paşinyan indi "Qarabağ Azərbaycandır" deyirsə, yanaşma tam olmalıdır: "Lakin hazırda "Qarabağ Azərbaycandır" dedikdə, onlar gərək bunun altında öz imzasını qoysunlar və biz bunu gözləyirik".

***

Məlumdur ki, beynəlxalq təşkilatlar, o cümlədən, ermənipərəst dairələr Qarabağ ermənilərinin bölgəyə qayıtmaları xüsusunda canfəşanlıq edirlər. Əlbəttə, bu canfəşanlıqdakı məqsəd bəllidir və bu barədə yuxarıda da söz açdıq. Ancaq görünür, ermənilər müdafiə "trendi" aktiv olduğundan, "Euronews"un müxbiri də məsələyə toxunur. Onun sualı qarşısında Prezident İlham Əliyevin bildirdiklərini, əslində, dövlətimizin rəsmiləri dəfələrlə vurğulayıblar, Qarabağ erməniləri üçün təminatlardan söz açıblar. Amma nəzərə alaq ki, birinci şəxsin dilində mövcud məqama aydınlıq gətirilməsi son dərəcə vacibdir. Dövlətimizin başçısı isə suala kifayət qədər, əhatəli cavab verir. Əvvəla, Qarabağın erməni əhalisinin bölgəni tərk etmələrinə ehtiyacın duyulmadığını və Azərbaycanın bu istiqamətdə çağırışlarının olduğunu vurğulayır. İkincisi isə hazırda rəsmi Bakının onlarla bağlı gördüyü işləri sadalayır. Nəzərə alaq ki, Prezidentin dilə gətirdiyi hər bir söz müstəsna təminatdır. Cənab İlham Əliyevin vurğuladığı məqamlar həm də onun təsdiqidir ki, Qarabağ erməniləri hər hansı digər formada bölgədə yaşaya bilməzlər. Məsələn: "Əgər Ermənistandan qovulmuş azərbaycanlı məcburi köçkün ora geri qayıtmaq istəyərsə o, necə qayıda bilər? O geri qayıdıb və Qərbi Azərbaycan Respublikasının sakini olduğunu deməyəcək. Xeyr. O, gəlib vətəndaşlıq və ya iş icazəsi üçün müraciət edəcək. Nəyə görə bu proses burada fərqli olmalıdır? Bu, yalnız belə olacaqdır".

***

Sonda haqqında söz açacağımızı bildirdiyimiz məqama diqqət yetirək. Deməli, Ermənistan ötən üç ildə sülh sazişinə Qarabağ erməniləri ilə bağlı müddəa əlavə etmək istəyibsə, separatçılığın ləğvindən sonra onların bölgəyə yenidən qayıdışı üzərinə fokuslanılsa, üstəlik, bütün bunlar Qərb dünyasının aktiv lobbiçiliyi müstəvisində həyata keçirilibsə, indi də eyni "aktivliyi" görürük. Hazırda Qərb dünyasının Azərbaycan–Ermənistan münasibətləri və sülh gündəliyi xüsusunda irəli sürdüyü, Paşinyan və komandasının da üzərində dayandığı konkret məsələ var. Söhbət Naxçıvana yoldan gedir. "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumundakı çıxışında Naxçıvana asan – heç bir gömrük və sərhəd nəzarəti olmayan yolun Azərbaycanın legitim hüququ olduğunu deyən dövlətimizin başçısının daha bir fikrinə diqqət yetirək: "Onlar istəyirlər ki, bizə bu çıxış verilməsin, onun qarşısı alınsın. Onlar gördülər ki, biz bunu etmirik, başladılar şikayətlə çıxış etməyə. Beləliklə, biz Dövlət Departamentinin rəsmisindən müəmmalı bəyanat eşitdik. Birləşmiş Ştatlar qeyd etdi ki, əgər bu, Ermənistandan keçməsə, onlar buna imkan verməyəcəklər. Biz də öz-özümüzə sual veririk, bu nə deməkdir? Çünki biz bunu Ermənistana 3 il idi ki, söyləyirdik. Əgər istəyirsinizsə ki, bu, Ermənistan ərazisindən keçsin, onda bunu erməni dostlarınıza deyin. Siz İranla münasibətlərimizə necə müdaxilə edə bilərsiniz? Yəni, onlar deyirlər ki, biz buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Bu, necə olar bilər? Belə məsuliyyətsiz bəyanatlar bu və ya digər tərəfə yaxşı töhfə vermir. Əfsuslar olsun ki, bu, əslində, sabitliyi, regiondakı proqnozlaşdırmanı daha da çətinləşdirir, o cümlədən bağlantı layihələrinə də təsir göstərir".

Deməli, faktiki olaraq, Naxçıvana yol Bakı–İrəvan sülh tənzimləməsinin indiyədək qarşıya çıxan üçüncü maneəsidir. Yəni, ölkəmiz iki maneəni aşıb. Heç şübhəsiz, bu əngəl də aradan qalxacaq. Çünki Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövləti prinsipial mövqeyinə sadiqdir. Ölkəmizin liderinin "Euronews" televiziyasına müsahibəsində də həmin prinsipial, eyni zamanda, ədalətli mövqe bir daha ifadəsini tapdı. Özü də qətiyyətli şəkildə.

*Ə.RÜSTƏMOV*
*XQ*

# "Paşinyançı politoloqlar", sülh gündəliyi və təxribat motivləri

## Erməni siyasilər Bakı–İrəvan arasında niyə şübhə toxumları səpirlər?

**Ermənistanda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş naziri aparatının birgə açıqlamasına, habelə Azərbaycan Prezidenti İlham Əliyevin "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda bildirdiklərinə, eləcə də dövlətimizin başçısının "Euronews" telekanalına müsahibəsinə reaksiyalar səngimək bilmir. İrəvanın siyasi icmalçı və politoloq cameəsində təmsil olunanların söylədiklərindən gələnən qənaət budur ki, üfiqdə görünən sülh gözləntilərini heçə endirmək istəyənlər var. Yazımız bu barədədir.**

Beləliklə, Ermənistanda bildirirlər ki, İrəvanla Bakı arasındakı nizamlanma prosesi geosiyasi qüvvələr arasında gedən mübarizənin bir hissəsidir. Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq lazımdır və bu, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması ilə baş verə bilər. Yəni, ABŞ-ın Bakı və İrəvanı barışdırmaqla, Rusiyanı sıxışdırması mümkündür.

Ermənistanda, eyni zamanda, vurğulayırlar ki, ermənilər və azərbaycanlılar arasında 35 il davam edən qanlı münaqişə Moskvaya Cənubi Qafqaz üzərində hökmranlıq etmək imkanı vermişdi. Ağ ev isə Kremlin geosiyasi ambisiyalarını cilovlamağı hədəfləyir. Təxminən, "Rusiya şeytandır, ABŞ mələk" məntiqi işə salınır. Nəyə görə? Ona görə ki, "Azərbaycan Kremllə əməkdaşlıq edərək, Rusiyanın Cənubi Qafqazdan uzaqlaşdırılmasına mane olur". Deməli, erməni ictimai rəyi Moskvanı böyüdüb Bakını tərəf kimi görməmək niyyəti güdür. Heç şübhəsiz, əsas məqsəd Qərbdə qıcıq yaratmaqdır.

Qərbdə Azərbaycana qarşı qıcıq yaratmaq istəkləri fazasında, Rusiyanın Türkiyə və ölkəmizlə birlikdə "3+3" platformasını yaratdığı vurğulanır. Bildirilir ki, bu platforma İranın maraqlarına da uyğundur. Bakı isə "3+3" anti-Qərb formatının təşəbbüskarlarından biridir. Göründüyü kimi, bu xüsusda da Qərbi Bakıya qarşı qaldırmaq cəhdləri aktualdır.

Ermənistanda onu da bildirirlər ki, Rusiya Azərbaycan vasitəsilə real danışıqlar prosesinə xələl gətirir və ABŞ-ın himayəsi altında sazişin imzalanmasına mane olur. Bu deyimdə sülhü pozmaq cəhdi özünü daha qabarıq göstərir. Məlumdur ki, dünya Cənubi Qafqazdan sülh gözləyir. Əslində, Azərbaycan da bütün platformalarda bunu bəyan edir. Ermənistandakı bəzi Qərbpərəst siyasilər isə gətirdikləri cılız arqumentlərlə, faktiki olaraq, sülhə deməç yolu tuturlar. Məsələn, onlar iddia edirlər ki, guya, Azərbaycan Qarabağda etnik təmizləmə aparır, lakin beynəlxalq aktorları sülh istədiyinə inandırır. Onların fikrincə, indiki durumda Bakıya sülh müqaviləsi imzalamaq niyyəti görüntü formalaşdırmaq, ona özünə qarşı yönələn beynəlxalq təzyiqləri yumşaltmaq üçün lazımdır. Gah Azərbaycan sülhdən yayınır, gah da sülh müqaviləsi imzalamaq istəyir – erməni siyasilər özlərini lap dolaşdırıblar. Hər bir halda belə düşünmək mümkündür ki, məqsəd sülh müqaviləsinin qarşısını almaqdır. Qarşısını almaq ki, Azərbaycana təzyiqlər güclənsin.

Azərbaycan Prezidenti Ermənistanda revanşist meyillərin yenidən baş qaldırmayacağına dair qarantiyanın vacibliyindən söz açıb. Baş nazir Nikol Paşinyana yaxın çevrələr isə ölkəmizin başçısının söylədiklərini sülh müqaviləsinin təminat faktoru üzərinə gətirərək vurğulayırlar ki, təminatçı rolunda Birləşmiş Ştatlar çıxış etməlidir. Fikrin səslənmə baxımından bəsitliyinə diqqət yetirək: "Əgər Əliyev, həqiqətən, Ermənistanla sülh istəyirsə, Rusiyadan asılı olmayan siyasət yürütməli və ABŞ-ı sülhün qarantı kimi qəbul etməlidir. Əgər Azərbaycan ABŞ formatında müqavilə imzalamasa, deməli, Rusiyanın xeyrinə hərəkət edir".



Göründüyü kimi, belə deyimlər danışıqların birbaşa aparılması məntiqinə ziddir. Deməli, artıq indidən Azərbaycan Respublikası Prezidenti administrasiyasının və Ermənistan Respublikası baş naziri aparatının birgə açıqlamasının ruhuna zidd davranış ortaya qoyulmaqdadır. Bu isə Cənubi Qafqazı qlobal maraqlar platformasında tədqimetmədəki aşkar manipulyasiyanın təzahürüdür. Mövcud təzahür barışıq mühitinin formalaşmasına sözsüz əngəldir. Manipulyasiyanın digər tərəfi Birləşmiş Ştatların Dövlət Departamenti rəhbərinin köməkçisi Ceyms O'Braynın fikirlərinin yada salınmasıdır. Məlum olduğu kimi, cənab O'Brayn bir müddət əvvəl ABŞ Konqresinin Nümayəndələr Palatasında keçirilmiş Qarabağ dinləmələri zamanı bildirmişdi ki, Azərbaycan Rusiyanın və İranın təsirindən uzaqlaşmaqla, Qərblə əməkdaşlığa bağlı seçim etməlidir. Erməni siyasilər onun sözlərinə köklənərək, iddia edirlər ki, guya, Bakının seçimi Rusiyadır və buna görə sülh müqaviləsi bağlana bilməz. Sülh müqaviləsi bağlanmırsa, deməli, yaranmış durum Rusiyanın Cənubi Qafqazda saxlanılmasına töhfədir. Sən demə, bu yaxınlarda Vaşinqtonda Ermənistan və Azərbaycan xarici işlər nazirləri görüşsə də, bu, o demək deyil ki, Bakı Moskvanın düşərgəsindən uzaqlaşır. Yəni, aşkar qızışdırıcı mövqe tutulur.

Ermənistan hakimiyyətinə yaxın siyasilər onu da vurğulayırlar ki, Azərbaycan Rusiyanın Cənubi Qafqazda qalması prosesində iştirakını davam etdirərsə, bunun nəticələri ilə üzləşməlidir. Guya, ABŞ-ın yumşaq üsulları Azərbaycana Ermənistanla nizamlanma prosesini ləngitmək və real həll yollarından qaçmaq imkanı verir. Bakı hansı məqsədlə sülhdən qaçırmış? Bu xüsusda da erməni başbilənlərin sərsəm fikirləri var. Onlar təfəkkürlərinin mücərrəd güşəsini işə salaraq vurğulayırlar ki, Birləşmiş Ştatlarda 2024-cü ildə prezident seçkiləri olacaq. Hazırkı dövlər başçısı Co Bayden məğlub oduqda isə Azərbaycan hərbi təzyiq göstərərək, "Zəngəzur dəhlizi"ni və anklavları ələ keçirəcək. Buna görə də ABŞ Azərbaycanı Ermənistanla təzliklə sülh müqaviləsi imzalamağa və mübahisəli məsələlərin həllinə məcbur etmək üçün sərt tədbirlərə əl atmalıdır.

Sonda qeyd edək ki, bu sayaq konsprioloji mahiyyət daşıyan, sülh yolunda aşkar təxribatçılıq motivli fikir və düşüncələr adi məsələ sayılmamalıdır. Çünki belə sərsəm iddiaları gündəmə gətirənlər heç də ölkənin Rusiya meyilli müxalifət kəsimi deyil. Bunlar, belə demək mümkünsə, qatı paşinyançılardır. Heç şübhəsiz ki, bu sayaq çərənləmələr Ermənistan Nazirlər Kabinetində hazırlanır və politoloq sürüsünə şparqalka kimi ötürülür. İkincilər bu şparqalkaları dövriyyəyə buraxırlar.

Bəli, bir daha sübuta yetirilir ki, Ermənistan hakimiyyəti sülhə səmimi yox, Qərbin qlobal maraqları kontekstində yanaşır. Buna görə də Bakı–İrəvan normallaşma xəttinin sülh sazişi yekununa çatması şübhə doğurmaqdadır. Yəni, qeyri-müəyyəndir.

*R.ƏVƏZ*
*XQ*

Ulu öndərin xatirəsi

# Vətənə xidmətdə keçən ömür



**Ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqı tərəfindən hər zaman böyük ehtiramla yad edilir. Ulu öndər naminə bütün ömrünü fəda etmiş böyük şəxsiyyətdir. Məhz dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətlərinə görə hər bir azərbaycanlı öz qəlbində Heydər Əliyevə abidə ucaldıb. Bu insan öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, xalqımızın Ümummilli liderinə çevrilmişdir. Dahi şəxsiyyət qətiyyətli siyasəti ilə ölkəmizi bütün təhlükələrdən qoruyub, dövlət, xalq qarşısında duran vəzifələrin uğurla həyata keçirilməsinə möhkəm zəmin yaradıb.**

Ulu öndər xilaskarlıq missiyasını ləyaqətlə, şərəflə yerinə yetirdi, xalqın sabaha inamını bərpa etdi, milləti öz taleyüklü problemlərinin həlli yönündə fədakarlığa ruhlandırdı. Heydər Əliyev Azərbaycanın haqq səsini bütün dünyaya çatdırdı, müstəqil dövlətçiliyimizin siyasi, iqtisadi əsaslarını yaratdı, xalqın suveren və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirdi, adını qızıl hərflərlə bəşər tarixinə yazdırdı.

Həm sovetlər dönəmində, həm də müstəqillik illərində Heydər Əliyev Azərbaycanın yüksəlişi naminə fədakarlıqla çalışmışdır. Onun rəhbərliyi dövründə respublikamız bütün sahələr üzrə inkişaf etmişdir. Bu gün Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatının elə bir sahəsi yoxdur ki, Ulu öndərin adı ilə bağlı olmasın. Məhz Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, milli-mənəvi yüksəliş, azərbaycançılıq məfkurəsinin bərqərar olması, gələcək inkişaf üçün güclü və möhkəm əsasların yaradılması Ümummili liderin zəngin təcrübəyə, parlaq zəkaya, ali liderlik qabiliyyətinə, yüksək siyasi idarəçiliyə əsaslanan siyasətinin həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsinə çevrilmişdir.

Böyük öndərimiz iyirmi ildir ki, cismən aramızda olmasa da, ideyaları əbədi yaşayır. İllər keçdikcə, bu dahi şəxsiyyətin Azərbaycan naminə gördüyü işlərin miqyası daha aydın şəkildə dərk olunur. Bütün həyatını Vətəninə sədaqətlə xidmətə həsr etmiş Ulu öndər öz titanik fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. O, zəkası, cəsarəti ilə Azərbaycan xalqının sevgisini qazanmışdır.

Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Heydər Əliyev müstəqilliyi, dövlətin maraqlarını qoruyacaq və xalqın mənafeyi ilə bağlı ən düzgün qərarlar qəbul edəcəkdir. Ümummilli liderin dövlətimiz qarşısında göstərdiyi misilsiz xidmətləri Azərbaycan vətəndaşları, dünyada yaşayan bütün azərbaycanlılar heç vaxt unutmayacaqlar. Heydər Əliyev Azərbaycanın böyük inkişaf epoxasını yaradıb, respublikamızın hərtərəfli intibahını təmin edib. Müstəqil Azərbaycan bu möhkəm əsaslar üzərində daim zirvələrə doğru irəliləyib.

Ulu öndərin həyatını bütünlüklə xalqa, dövlətə, Vətənə həsr olunan ömür kimi səciyyələndirə bilərik. Onun ən böyük arzusu ölkəmizin ərazi bütövlüyünün təmin olunması idi. Şuşanı Azərbaycanın rəmzi kimi səciyyələndirən Heydər Əliyev inamla bildirirdi ki, biz doğma yurd yerlərimizə mütləq qayıdacağıq. Onun bu inamı insanların qəlbində, sözün əsl mənasında, ümid çırağı yandırırdı. 2020-ci ildə 44 günlük Vətən müharibəsində ordumuz misilsiz şücaətlər göstərərək ölkəmizin ərazi bütövlüyünü təmin etməyə nail oldu. 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi ilə Heydər Əliyevin "Biz Şuşaya mütləq qayıdacağıq" arzusu reallığa çevrildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində Ulu öndərimizin başladığı müqəddəs mübarizəni onun layiqli davamçısı Prezident İlham Əliyev zəfərlə başa çatdırdı. Heydər Əliyevin arzularını, vəsiyyətlərini müzəffər Ali Baş Komandan İlham Əliyev şərəflə yerinə yetirdi. 2023-cü ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Ulu öndərin vəsiyyətlərinin həyata keçirilməsi istiqamətində növbəti uğurlu addımlar atıldı – Qarabağda suverenliyimiz təmin olundu, Xankəndidə, Xocalıda üçrəngli bayrağımız ucaldıldı. Bunlar "Heydər Əliyev ili"nin ən mühüm hadisələridir.

Azərbaycan xalqı özünün dahi oğlunun növbəti anım gününü belə əlamətdar hadisələr fonunda dərin ehtiramla qeyd edir. Qazanılan bu uğurların əsasında məhz Heydər Əliyev siyasəti dayanır. Bu gün Ulu öndərimizin də ruhu şaddır! Çünki onun qurduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə daim inkişaf edir, güclənir, yeni-yeni zəfərlər qazanır!

**Pərvin KƏRİMZADƏ,**
**Milli Məclisin deputatı**

## Brüsseldə Azərbaycan–Aİ əməkdaşlığının müxtəlif aspektləri müzakirə edilib

**Avropa İttifaqının Şərq Tərəfdaşlığı Xarici İşlər Nazirləri Şurasının İclasında iştirak etmək məqsədilə Brüssel şəhərində işgüzar səfərdə olan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov dekabrın 11-də Avropa İttifaqı Şurası Prezidentinin xarici siyasət üzrə baş müşaviri Simon Mordue ilə görüşüb.**

Görüş zamanı Azərbaycan–Aİ əməkdaşlığının müxtəlif aspektləri, enerji təhlükəsizliyi, kommunikasiyalar və nəqliyyat sahəsində Aİ ilə əldə olunmuş razılıqlar üzrə əməkdaşlığın perspektivləri, habelə Azərbaycan–Ermənistan normallaşma prosesi və cari regional vəziyyət müzakirə edilib.

Aİ və Azərbaycan arasında ötən il imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair anlaşma memorandumuna uyğun olaraq Azərbaycanın Avropaya enerji ixracını artırdığı və Aİ üzv ölkələrinin enerji təhlükəsizliyində önəmli rol oynadığı vurğulanıb.

Ceyhun Bayramov cari ilin sentyabr ayında bölgədə aparılan antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin ərazilərimizdə mövcudluğuna son qoyulmasından sonra sülh prosesində real irəliləyişlər əldə edilməsi üçün geniş potensialın mövcud olduğunu diqqətə çatdırıb.

Simon Mordue Aİ-nin vacib strateji tərəfdaşı olaraq Azərbaycan ilə enerji, nəqliyyat və bir sıra digər sahələrdə əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu vurğulayıb və Aİ-nin regionda davamlı sülhün bərqərar olması üçün Ermənistan–Azərbaycan Vnormallaşma prosesini bundan sonra da dəstəkləməyə davam edəcəyini bildirib.

***

Dünən xarici işlər naziri Ceyhun Bayramov Slovakiya Respublikasının xarici işlər və Avropa məsələləri üzrə naziri Yuray Blanar ilə görüşüb.

Azərbaycan və Slovakiya arasında iqtisadiyyat-ticarət, enerji təhlükəsizliyi, mədəniyyət, turizm, təhsil, nəqliyyat və digər sahələr üzrə əməkdaşlıq gündəliyində duran məsələlər, o cümlədən regional və beynəlxalq təhlükəsizlik elementləri müzakirə olunub.

Slovakiya şirkətlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında birgə investisiya, bərpa və quruculuq layihələrində iştirak niyyəti yüksək qiymətləndirilib.

İşğaldan azad edilmiş ərazilərin mina və partlayıcı maddələrlə kütləvi şəkildə çirklənməsinin bərpa və yenidənqurma işləri, habelə məcburi köçkünlərin öz evlərinə təhlükəsiz qayıtmasının təminatı üçün əsas maneə olduğu diqqətə çatdırılaraq, mina problemi ilə mübarizədə Azərbaycan–Slovakiya əməkdaşlığı məmnunluqla qeyd olunub.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, habelə Ermənistan ilə normallaşma və sülh gündəliyinin irəlilədilməsi istiqamətində Azərbaycanın göstərdiyi səylər barədə qarşı tərəfə ətraflı məlumat verilib.

## Qəzzada həlak olan jurnalistlərin sayı 86-ya çatıb



**Qəzza zollağında öz peşə fəaliyyətini icra edərkən ölən KİV mənsublarının sayı artır. Anklav hökumətinin rəsmisi bildirib ki, regionda HƏMAS-İsrail eskalasiyası səbəbindən bugünə qədər 86 jurnalist həyatını itirib.**

Ölənlər arasında zərif cinsin nümayəndələri də var. Belə ki, mənbənin "Teleqram" şəbəkəsində açıqladığı siyahıda 3 qadın jurnalistin adı və soyadı göstərilib.

Qeyd edək ki, ötən həftə Jurnalistlərin Beynəlxalq Müdafiə Komitəsi (JBMK) Qəzzada silahlı qarşıdurma başlanan gündən burada 63 KİV əməkdaşının həlak olması barədə məlumat yaymışdı.

**XQ**

# Serbiya Azərbaycan qazı alan 7-ci Avropa ölkəsidir

**Ötən ilin payızında açıqlanan Avropa İttifaqının (Aİ) ümumi maraq layihələrinin "Beşinci Siyahısı"na daxil edilən 20 qaz layihəsinin 3-ü Azərbaycan qazı ilə bağlıdır. Bu, Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektorundan (IGB) əlavə, Rumıniya–Macarıstan dəhlizində (ROHU/BRUA) klasterin tutumunun artırılması layihəsi və Bolqarıstan–Serbiya interkonnektorudur. Bu layihələr adları çəkilən ölkələrə Azərbaycan təbii qazına çıxış imkanı verəcək.**

## *Ölkəmiz "mavi yanacağ"ın yarısını "qoca qitə"yə ixrac edir*

Burada onu da xatırladaq ki, 2021-ci ildə Azərbaycanın Aİ bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil edirdisə, 2022-ci ildə bu rəqəm 11,3 milyard kubmetr olub. Cari ildə onun həcmi ən azı 11,6 milyard kubmetrə çatacaq. Eyni zamanda, 2023-cü ildə Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi isə təxminən 24 milyard kubmetr təşkil edəcək. Müqayisə üçün 2021-ci ildə bu rəqəm 19 milyard kubmetrə çatırdı.

Hazırda Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, bütün tərəflər üçün uduşlu vəziyyətdir. Çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var.

Rusiyanın simasında bir təchizatçıdan tamamilə asılı olan Serbiya gələn ildən Azərbaycandan təbii qaz almağa başlamağı planlaşdırır. Bu ölkənin Baş nazirinin müavini, dağ-mədən və energetika naziri Zorana Mixayloviçin bir qədər əvvəl bildirdiyi kimi, qaz tədarükünü Serbiyanı Bolqarıstanla birləşdirəcək Niş–Dimitrovqrad qaz kəməri sayəsində artırmaq mümkün olacaq. Aİ Bakıya böyük ümidlərlə baxır. Azərbaycanın isə Avropaya qaz nəqlini artırmaq üçün kifayət qədər ehtiyatları var. Ölkəmizdə təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetr təşkil edir ki, bu da kifayət qədər böyük həcmdir.

Prezident İlham Əliyev dekabrın 10-da Serbiyanın Niş şəhərində keçirilən Serbiya–Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimindəki çıxışında interkonnektorun fəaliyyətinin Serbiya və Bolqarıstanın enerji təhlükəsizliyinə böyük töhfə verəcəyinə əminliyini bildirərək bu infrastrukturun, eyni zamanda, Azərbaycanın qaz ixracı coğrafiyasını daha da genişləndirəcəyini vurğulayıb.

Dövlətimizin başçısı hazırda respublikamızdan "mavi yanacağ"ın 8 ölkəyə ixrac edildiyini, Serbiyanın isə 9-cu ölkə olduğunu diqqətə çatdırıb. Azərbaycan lideri çıxışında həmin sırada 7 Avropa ölkəsinin dayandığına işarə edərək interkonnektorun fəaliyyətə başlamasının Avropanın enerji təhlükəsizliyində də önəmli rol oynayacağını bildirib.

Mərasimdə keçən il Aİ ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumunun imzalanması və həmin sənədin hazırda uğurla icra edildiyi xatırladılaraq ölkəmizin 2027-ci ilə qədər Avropaya göndərilən qazın həcmini iki dəfə artırmaq öhdəliyi götürdüyü də diqqətə çatdırılıb. Eyni zamanda, hazırkı mövcud göstəricilərlə bu hədəfə doğru inamla gedildiyi vurğulanıb. Belə ki, əgər 2021-ci ildə Azərbaycanın Avropa məkanına qaz ixracı 8 milyard kubmetrdən bir qədər çox olmuşdusa, cari ilin sonunadək bu göstəricinin, təxminən, 12 milyard kubmetrə çatacağı, bunun isə respublikamızın ümumi qaz ixracının 50 faizini təşkil edəcəyi xatırladılıb.

Prezident İlham Əliyevin mərasimdə bildirdiyi kimi, Azərbaycan tərəfinin irəli sürdüyü və icra etdiyi layihələr Avropa və Avrasiyanın enerji xəritəsini böyük dərəcədə dəyişir. Bu, özünü Bakı–Tbilisi–Ceyhan, Bakı–Supsa neft kəmərləri ilə Azərbaycan neftinin Aralıq dənizi və Qara dəniz bazarlarına çatdırılması, Cənub Qaz Dəhlizi kimi uzunluğu 3 min 500 kilometr olan nəhəng infrastruktur layihəsinin Avropanın enerji təhlükəsizliyinə çox böyük töhfə verməsi kimi məsələlər bu fikrin bariz ifadəsidir. Məhz elə buna görə də Avropa Komissiyası, onun yüksəkvəzifəli şəxsləri tərəfindən Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı kimi dəyərləndirilir.

Yeri gəlmişkən, dövlətimizin başçısı mərasimdəki çıxışında Azərbaycanın Bolqarıstana qaz təchizatının iki il bundan əvvəl başlandığını, 2021-ci ildə 270 milyon kubmetr qaz təchiz edildiyini, keçən il həmin göstəricinin 500 milyon kubmetrdən bir qədər çox olduğunu, cari il isə bu rəqəmin 1 milyard kubmetrə çatacağının gözlənildiyini bildirib. Bütün bunlar ölkəmizin dünyada etibarlı tərəfdaş kimi böyük nüfuz qazandığının, dostluq ənənələrinə daim sadiq olduğunun və bu dostluğu yüksək qiymətləndirdiyinin göstəricisidir.



Prezident İlham Əliyev bu məqamla bağlı mərasimdəki çıxışında deyib: "Məhz dostluq, qarşılıqlı anlaşma, strateji tərəfdaşlıq üzərində qurulmuş əlaqələr bir çox ölkələrin maraqlarını təmin edir və qaz sahəsində əməkdaşlıq, eyni zamanda, genişmiqyaslı regional əməkdaşlığa da güclü zəmin yaradır. Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi, Avropa məkanı və Azərbaycan, Avropa İttifaqı əlaqələri– bütün bu istiqamətlər müsbət məcrada inkişaf edir və bizim gələcək planlarımız da bu istiqamətlərə xidmət göstərəcəkdir".

Azərbaycanın Avropanın enerji təchizatında oynadığı rol bundan sonra da daha geniş miqyasda davam etdiriləcək. Bu, "mavi yanacaq" təchizatının coğrafiyasının genişləndirilməsində və gələcəkdə Avropa məkanında yeni yaradılacaq interkonnektorlar vasitəsilə yeni ölkələrin bazarlarına çıxmasında nəzərə çarpacaq. Hazırda Azərbaycanın əsas hədəfi bərpaolunan enerji növləri ilə bağlıdır və 10 qiqavat bərpaolunan enerji növlərinin yaradılması üzrə ölkəmiz tərəfindən investorlarla sazişlər və anlaşma memorandumları imzalanıb.

Mərasimdə vurğulanan bir məqamı da xatırlatmaq istərdik. Belə ki, Azərbaycan Bolqarıstan və Serbiya ilə yalnız təbii qaz şəbəkələrini birləşdirmir, Bolqarıstan–Serbiya interkonnektoru yalnız infrastruktur layihəsi rolunu oynamır, bu, həm də 3 ölkənin artan texnoloji imkanlarını genişləndirir. Bundan başqa, Serbiya–Bolqarıstan, Bolqarıstan–Serbiya–Azərbaycan arasındakı uğurlu və faydalı əməkdaşlığın rəmzi kimi diqqət çəkir.

Belə səmimi və faydalı əməkdaşlıq isə davamlı, dayanıqlı iqtisadi inkişafı və tərəqqini şərtləndirir. Bu, eyni zamanda, hər 3 ölkənin Avropanın gələcəyi üçün quruculuq işləri görmək istəyinin parlaq ifadəsidir. Nəhayət, bu istiqamətdə gerçəkləşdirilən layihələr Avropa İttifaqının təhlükəsiz və etibarlı enerji mənbələri üçün iddialı baxışdır.

Beləliklə, bu gün adları çəkilən bu ölkələr tərəfindən Avropanın enerji xəritəsi dəyişilir. Çünki interkonnektor təkcə sözügedən 3 ölkəyə deyil, bütün region üçün şaxələndirməyə və təhlükəsizliyə zəmanət verir. Bu layihənin Avropa Komissiyası tərəfindən qarşılıqlı maraq doğuran layihə kimi dəyərləndirilməsi də deyilən fikrin təsdiqidir.

Mərasimdə səsləndirilən diqqətçəkən bir məsələni də qeyd etmək istərdik. Belə ki, layihənin əhəmiyyətindən danışan Avropa İttifaqının (Aİ) Serbiyadakı daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofre enerji təhlükəsizliyinin və enerji dayanıqlılığının gücləndirilməsində mühüm bir mərhəlni diqqətə çatdıraraq Aİ-nin bu layihəyə 50 milyon avroluq qrant, Avropa İnvestisiya Bankı isə 25 milyon avro məbləğində imtiyazlı kredit ayırdığını bildirib. E.Jofre daha sonra Aİ-nin Bolqarıstan ərazisində interkonnektorun tikintisinə 20 milyon avro yönəldildiyini də qeyd edib. O, bunun Serbiya vətəndaşlarının həyat şəraitini yaxşılaşdırmaq məqsədilə Aİ-nin enerji sektorunda bu ölkəyə verdiyi ümumi dəstəyin bir hissəsi olduğunu bildirib.

**Vaqif BAYRAMOV**
**XQ**

# “Artsax”ın iflası qaçılmaz idi

## Ermənistan baş naziri bu barədə yalnız indi açıq danışa bilir

**Reallıqla barışmaq reallıq hissinin itirilməməsindən irəli gəlir və bu addımı atmaq üçün bir qədər cəsarət də tələb olunur. Deyəsən, Ermənistan baş naziri də reallığı dilə gətirməyə özündə siyasi iradə tapıb.**

“Qarabağ məsələsi bəzi qüvvələr tərəfindən Ermənistanda normal dövlət yaradılmasının qarşısını almaq üçün istifadə edilib. ““Artsax” respublikası”nın buraxılması 2016-cı ilin avqustunda aparılan danışıqlar prosesində baş vermiş köklü və məzmun dəyişiklikləri nəticəsində qaçılmaz idi. Bu barədə istintaq komissiyasında çıxışımda ilk dəfə çox ehtiyatla danışırdım. İkinci dəfə, vətəndaşlarımızın suallarına cavab verərkən fikrimi açıq çatdırdım. Təəssüf ki, “Dağlıq Qarabağda” məlum hadisələrdən sonra bu barədə daha sərbəst danışa bilirəm”

Bu sözləri Paşinyan “Mülki müqavilə” partiyası təşəbbüs qrupunun İcevanda təşkil etdiyi toplantısında deyib. Aydın məsələdir ki, bu bəyanat, ilk növbədə, daxili “bazara”, sırf erməni auditoriyasına ünvanlanıb. Onun ““Artsax” respublikası”nı yada salması da eyni məqsədə xidmət edir. Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dəfələrlə bəyan etməsindən sonra yeni mövzunu dilinə gətirməsi bir qədər qəribə səslənsə də, hədəfin əvvəlki hakimiyyət, məqsədin isə öz səhvlərini onların boynuna yıxmaq cəhdi olduğu şübhəsizdir.

### Onun ən böyük səhvi...

Paşinyan başçılıq etdiyi iqtidar partiyasının ən böyük səhvini bu barədə xalqla yalnız 44 günlük müharibədən sonra danışmağa başlamaqda görür. Bu məsələni psixoloji və emosional sədlərə görə hətta özü ilə paylaşa bilmədiyini etiraf edən Hayastan rəhbəri deyir ki, əgər bu mövzu müzakirəyə çıxarılsaydı, o zaman xalqa deməliydilər ki, 30 il ərzində ““Artsax””a milyonlar mənasız yerə xərclənib: “Çünki bu problemin həlledilməz olduğu lap əvvəlindən məlum idi. Bəs bu məsələnin həlli hansı səbəblərdən müşkülə dönmüşdü? BMT Təhlükəsizlik Şurasının qətnamələri ucbatından. İndi bizi ittiham edirlər ki, lap əvvəldən



“dqr”ın öz müqəddaratını təyin etməsi ilə məşğul olacağımızı demişik, amma bunu etməmişik. Əslində, problem onda idi ki, biz öz müqəddaratını təyinetmənin nə olduğunu anlamağa çalışırdıq. 1996-cı il dekabrın 6-da Lissabon Sammitində bizə demişdirlər ki, “dqr”ın ən yüksək statusu Azərbaycanın tərkibində muxtariyyat ola bilər”. Ermənistanın bu quruma milyonlar xərclədiyinə diqqəti yönəldən Paşinyan bunun yanlış addım olduğunu vurulayıb: “Biz sivil dövlət yaratmaq üçün xərclənməli olduğumuz bütün maliyyə resurslarımızı həlli mümkün olmayan “dqr”in yaradılması probleminə qoyurduq. On illər boyu bizə məsləhət verirdilər ki, yol, məktəb, xəstəxana tikməyin. Hətta bəziləri “Ordu nəyə lazımdır? Sizin arxanızda biz (Rusiya – red.) durmuşuq. Heç bir probleminiz yoxdur”, – deyirdilər. Nəticədə Ermənistan öz resurslarını həll edilməyən bir problemə xərclədi”.

Bu zaman Nikol Paşinyan ad çəkməsə də, Ermənistanın “arxasında duran” dövlət kimi Rusiyanı nəzərdə tutduğuna eyham vurub.

### “Müharibə bizim cəzamız oldu”

Bu mövzü son üç ildə Ermənistan ictimai düşüncəsini məşğul edir. Guya, 2018-ci il hakimiyyət dəyişikliyindən tam narazı qalan Moskva Ermənistanın yeni iqtidarını 2020-ci ilin 44 günlük müharibəsi ilə cəzalandırıb. Son vaxtlar bu tezis fəal şəkildə yenidən gündəmdə dövr etməkdədir.

“Mən Rusiyanı bu kontekstdə qınaq obyektinə çevirmək istəməzdim, amma gəlin bu tezisi ciddi müzakirə edək”,– deyən Paşinyan bu tezisin mahiyyətinin Ermənistanın tərəfdaşları üçün arzuolunmaz inqilab olduğunu etiraf edir. Onun sözlərinə görə, Ermənistanın yeni hakimiyyəti Qərbyönümlü baxışların daşıyıcısıdır. Buna görə də onun cəzası kimi müharibə baş verdi. “Belə olan halda 2016-cı ilin dördgünlük müharibəsində kim və nəyə görə cəzalandırılıb?”. Bu açıqlamanı isə Paşinyan noyabrın 24-də canlı efirdə Ermənistan vətəndaşlarının, eləcə də xarici ölkələrdəki diaspor nümayəndələrinin suallarını cavablandırarkən söyləyib.

“Bəs 2013-cü il hadisələri niyə baş verdi? İrəvan Moskva ilə uzun sürən danışıqlarının ardından nədən bir gecədə MDB Gömrük İttifaqına üzv oldu? 2013–2014-cü illərdə baş verən hadisələrə necə münasibət bildirildi? Əslində, “Dağlıq Qarabağ” problemi ilə bağlı deyilmədi çox mətləblər var. 2018-ci ilin aprelində Serj Sərkisyanın bəyanatı nə idi? Bu, müharibə elanı idi?”.

Paşinyan partiyadaşlarına və ictimaiyyətə bu ritorik sualları ünvanlayarkən 2018-ci ildə baş verən inqilabdan sonra ölkədə çox şeyin dəyişdiyini dilə gətirib: “Ermənistanın hələ də suveren dövlət olmaq şansı var. Əgər inqilab olmasaydı, bu şansımız sıfıra bərabər olardı. 2013-cü ildə baş verən hadisələr buna sübutdur. Əgər imzalaya bilmirsənsə, niyə danışıqlar aparırdın? Bundan sonra 2016-cı ilin dörd günlük müharibə və danışıqlar paketini aldıq. “Dağlıq Qarabağ”ın dağılması prosesi 2018-ci ilin avqustunda baş verib”.

Amma bu məsələdə Paşinyan qeyri-dəqiqliyə yol verir. “Dağlıq Qarabağ”ı gözləyən aqibətin başlanğıcı onun dediyindən iki il əvvəl – 2016-cı ilin aprelindən qoyulmuşdu.

### Hər şey 2016-nın aprelindən başladı

Bəli, 2016-cı ilin aprelində Azərbaycan Ordusu strateji yüksəkliklər daxil olmaqla 2 min hektar ərazimizi işğalçılardan azad edəndə Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan və o zamankı müdafiə naziri Seyran Ohanyan bu məğlubiyyəti ört-basdır etməkdən ötrü dəridən–qabıqdan çıxırdılar. Onlar hakimiyyəti itirməyin qorxusunu elə onda duymuşdular.

Məhz 2016-cı ilin aprelində Ermənistan ordusunun “məğlubedilməzliyi” mifi darmadağın edildi. Bu isə 2018-ci ildə Hayastanda hakimiyyət dəyişikliyinə aparan proseslərin katalizatoru oldu. Amma sonra aydın oldu ki, bu, İrəvanın silahlı birləşmələrini dinc yolla torpaqlarımızdan çıxarması üçün yetərli deyilmiş. Yeni hakimiyyət rəsmilərinin dilindən Bakının ünvanına açıq təxribatçı, avantürist bəyanatlar eşidilməyə başlandı. Misal üçün, 2019-cu ilin martında Ermənistanın o vaxtkı müdafiə naziri David Tonoyan ABŞ-a səfəri əsnasında Nyu-Yorkda erməni icmasının nümayəndələri ilə görüşündə bunları demişdi: “Mən müdafiə naziri kimi sizə deyirəm ki, “ərazilərin əvəzinə sülh” formulunu “yeni müharibə–yeni ərazilər” prinsipi ilə əvəzləyirəm”.

Bəs bu bəyanatların son aqibəti necə oldu? Cəmi 44 günlük Vətən müharibəsi, həmin dikbaş Tonoyanın 11 minlik fərari ordusu və Ermənistanın biabırçı kapitulyasiyası. O vaxtdan biz Nikol Vovayeçin dilindən dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını etiraf edən bəyanatlarını eşdiirik. Bəli, Qarabağdakı xunta rejiminin də iflası qaçılmaz fakt, qanunauyğunluq oldu.

### Sabiqlərin qayıdışı mümkünsüzdür

Ermənistan hakimiyyətinin üzləşdiyi ciddi problem “beşinci kolonun” Paşinyanın əvəzinə kimi dəstəklənməsi məsələsidir. Bu kontekstdə ona bir vaxtlar “strateji tərəfdaş” saydığı Şimal qonşusunun hansı sürprizləri hazırladığını yalnız təsəvvür etmək mümkündür. Hələlik yollarda, ticarətdə qadağalar müşahidə olunmaqdadır. Amma gerçəklik ondan ibarətdir ki, nə Paşinyanda, nə də erməni cəmiyyətində yenidən Rusiyanı sevmək üçün ciddi səbəblərin yaranması ağlabatan görünmür. Hətta Moskvanın qulbeçəsi və fanatı Köçəryan kimiləri belə hazırda bu barədə çox danışmağa çalışmırlar. Deyəsən, deməyə sözləri qurtarıb. Bəzi qüvvələrin israrla gündəmə gətirməyə çalışdıqları “Paşinyan, yoxsa Köçəryan?” dilemması həm Ermənistanın özü, həm də Rusiya üçün ciddi probleme çevrilə bilər. 2021-ci il seçkiləri onu göstərdi ki, Köçəryana “stavka etmək” yanlış taktika imiş. Elektorat sabiqlərin, konkret olaraq, “Qarabağ klanı”nın hakimiyyətə qayıdışının qarşısını almaqdan ötrü Paşinyana səs verdi. Axı, onun alternativi də yox idi.

Hazırda qarşımızda Ermənistan–Azərbaycan münasibətlərinin yeni, tamamilə fərqli mənzərəsi canlanmaqdadır. Azərbaycan Prezidenti Administrasiyası və Ermənistan baş naziri aparatının birgə bəyanatını iki ölkə arasında böyük sülh sazişinə aparan həqiqi sıçrayış saymaq olar. Hərbi əsirlərin qarşılıqlı azad edilməsindən savayı, İrəvan birgə bəyannamədə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) evsahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycanın namizədliyini dəstəklədiyini bildirib.

Tərəflərin qarşılıqlı xoş məramı və diplomatik jestləri göz qabağındadır. Ümid etməyə dəyər ki, iki ölkə arasında sülh müqaviləsi COP20-da iştirakçı dövlətin başçısı kimi Nikol Paşinyanın Bakıya ehtimal olunan səfəri zamanı imzalanacaq. Bu ehtimalın gerçəkləşməsini həm də reallıq tələb edir.

#### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**politoloq:**

**Birincisi, bu, Paşinyanın çox gecikmiş etirafıdır. Onun sözlərinə də çox şübhə ilə yanaşıram. Çünki onun səmimiyyətinə inanmaq çətindir. Paşinyan bir-birinə zidd o qədər bəyanatlar verib ki, onun konkret mövqeyini hələ də başa düşmək olmur. Vaxtilə “Qarabağ Ermənistandır və nöqtə” ifadəsini məhz Paşinyanın dilindən eşitmişik. Bəs, bu, necə oldu? Təbii ki, indi bunu ört-basdır etməyə, üstündən xətt çəkməyə çalışır. Bunu edirsə lap yaxşı, bizim maraqlarımıza cavab verir. Amma bu, onun növbəti oyunudursa, onda biz buna diqqətlə və ehtiyatla yanaşmalıyıq.**

**Əslində, Paşinyanın sözlərində yeni heç nə yoxdur. Onlara çoxdan deyirdik ki, Qarabağdan əl çəkin. Məhz İrəvanın yersiz və faydasız himayəsi bölgədə çoxsaylı qurbanlara gətirib çıxardı. Həm Azərbaycan, həm də Ermənistan tərəfindən bu qədər itkilərin verilməsini Paşinyan indi görüb ayıldı? Çox qəribə və maraqlı mövqedən çıxış edir. Əlbəttə ki, onun indiki mövqeyi düşdüyü vəziyyətdən çıxmaq cəhdindən başqa bir şey deyil. Bu, onun tərəfindən məcburi etirafdır. Çünki yaxşı bilir ki, Bakının güc nümayişi nəticəsində müharibəni uduzub və ermənilərin Qarabağdan köçməsindən sonra sadəcə çıxış yolu qalmayıb. Paşinyan anlayır ki, Fransa, digər ölkələr müxtəlif bəyanatlarla çıxış etsələr də, Cənubi Qafqazda Türkiyə, Azərbaycan və Rusiya kimi üç real güc var. Bu reallığı nəzərə aldığına görə belə etiraf-bəyanatlar verir.**

#### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri,**
**siyasi şərhçi:**

**İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətdən sonra Ermənistan elektoratı ikinci dəfə Paşinyana ona görə səs verdi ki, cəmiyyətin böyük əksəriyyəti müharibə istəmir. O mandatı da ona Azərbaycan və Türkiyə ilə məsələləri həll etməsindən ötrü etibar elədi. Paşinyan artıq reallığı anlayır və bilir ki, Bakı ilə sülhə gəlməzə bölgədə gərginlikdən qurtulması mümkün olmayacaq. Yəni, növbəti gərginlik Ermənistana daha baha başa gələ bilər. Prosesi müəyyən qədər ləngirsə də, məntiqlə onun özü də sülh sazişinin imzalanmasında maraqlı olmalıdır. Artıq birbaşa dialoq baş verir, əsirlər dəyişdirilir, qarşılıqlı etimad mühitinin yaradılması istiqamətində addımlar atılır. Bütün bunlar sülh sazişinin imzalanmasını sürətləndirə bilər.**

**Düzdür, erməni daşnak radikallar baş nazirin əleyhinə aşıqlamalar verirlər. Paşinyan bunları nəzərə almaya da bilər, çünki Qarabağ klanı deyilən keçmiş hakimiyyət təmsilçilərinin cəmiyyətdə heç bir nüfuzu qalmayıb. Bu səbəbdən də meydana kifayət qədər adam çıxara bilmirlər. Qarabağ yükündən azad olan Paşinyanın rahat manevr imkanları yaranıb. Bakının ondan əsas gözləntisi sülh sazişinin tezliklə imzalanmasıdır. O, haqlı olaraq deyir ki, 30 il hədər yerə separatçı rejimə maliyyə xərclənib. Həmin separatizm olmasaydı, torpaq işğalı və insan itkisi yaşanmayacaqdı. Qarabağ ermənilərini fəlakətə onlar sürüklədilər. Amma sonda biz öz istəyimizə nail olduq. Paşinyan cəmiyyətə bunu anlatmağa çalışır. Burada özünütənqid çaları da var. Güman edirik ki, bu il olmasa da, gələn ilin ortalarına kimi sülh sazişinin imzalanması perspektivi realdır.**

*İmran BƏDİRXANLI*
**XQ**

REPLİKA

# Qu quşunun “son nəğməsi”

## Sabiq erməni nazirin “nağıllar aləminə səyahəti”



Sülh sazişinin mətnində “Dağlıq Qarabağ” məsələsi olmadığına görə baş nazir Nikol Paşinyanı “yaylım tənqid atəşinə tutan” eks-xarici işlər naziri Vardan Oskanyan reallığın dəyişəcəyinə özü də inanmadığı halda boyat “nağıl”larını ictimai rəyə sırımağa çalışır.

Hələbdə dünyaya gəlmiş 70 yaşlı Oskanyan bu günlərdə “Facebook” sosial şəbəkədə erməni xalqına müraciət edib. Hayastanın əski xarici işlər naziri Ermənistan və Azərbaycan arasında imzalanacaq sülh sazişinin mətnində “vacib bir bəndin” çatmadığını deyir. O, ““Artsax” xalqının hüquqları və müstəqilliyi barədə” bəndin müqavilənin mətnindən çıxarıldığını iddia edir. On il (1998–2008) Hayastanın baş diplomatı postunda çalışmış Oskanyan düşünür ki, əgər sülh sazişi bu məzmunda imzalanarsa, onda biz ““Artsax” səhifəsini birdəfəlik bağlamış oluruq”. Bunun ardınca suriyalı hayın yaddaşında “qısa qapanma” baş verir və onun özünün uydurduğu psevdo-tarixlərinə “xəyali səyahəti” başlayır:

“Azərbaycan Prezidentinin bu yaxınlarda ermənilərin “Artsax”ı unutmalı olduqlarını bəyan etməsi heç də təsadüfi deyil. Düşünürəm ki, bu, yerinə yetirilməsi mümkün olmayan tələbdir. Çünki erməni xalqı “Artsax”ı heç vaxt unutmayacaq. “Artsax”ı unutmaq – keçmişimizi, tariximizi, bizim mədəni irsimizi unutmaq deməkdir. Biz bunları unuda bilmərik, ona görə ki, “Artsax” erməni torpağıdır. Bu torpaq heç vaxt müstəqil Azərbaycanın tərkib hissəsi olmayıb. Sovet dövründə muxtariyyat statusuna malik olub, son 30 ildə isə de-fakto Ermənistanın siyasi inzibati vahidinə çevrilib. Erməni xalqından “Artsax”ı unutmağı tələb etmək sadəcə mümkünsüzdür”.

* * *

Reallıq hissi ilə yanaşı, diplomatik düşüncəsini də itirdiyi aydın görünən Oskanyan əsas problemin Ermənistan hakimiyyətinin bu razılaşmaya getməsində olduğunu deyir. Guya, belə məzmunda sülh sazişi imzalamaqda İrəvanın məqsədi ““Artsax”ı birdəfəlik unutdurmağa” çalışmaqdır.

Hayların ikinci prezidenti Robert Koçaryanın Amerikadan İrəvana çağırıb xarici işlər naziri postunu həvalə etdiyi Oskanyan, hətta, bizə “dəyərli məsləhətlər verməyə” də girişir: “Azərbaycan başa düşməlidir ki, o, bu müqaviləni Ermənistanla, erməni xalqı ilə deyil, Nikol Paşinyan və onun başçılıq etdiyi hökumətlə imzalayır. Erməni xalqı “Artsax”ı yaddaşından silə bilməz”.

Oskanyanın dediyi həmin otuz il ərzində sivil üsulla, danışıqlar masası arxasında sözlə anlada bilmədiyi Ermənistanı hərbi yolla başa salan Azərbaycan indiki durumda İrəvanı yenə qonşuluq münasibətləri qurmağa, sülhə gəlməklə öz ölkəsinin tərəqqisinə nail olmağa çağırır. Fəqət yenə də Qərbdən Ermənistan hakimiyyətinə ötürülən siyasi siqnallar və edilən təzyiqlər səbəbindən regional sülhün əldə olunması, trans-regional əməkdaşlığın bərpa edilməsi və genişlənməsi, fasiləsiz enerji və ərzaq təchizatı kimi zəmanətlər təhlükə altındadır. İndi boyat nağıllara aludə olmuş, ingilis, fransız, rus və ərəbcə danışan Vardanı hansı dildə başa salaq ki, artıq keçmişə qayıdış mümkün deyil. Ermənistanın Azərbaycanla sülh sazişini imzalaması Cənubi Qafqazda rifahın və əmin-amanlığın stimulu rolunu oynayacaq və bundan ən çox qazanan məhz İrəvan olacaq.

* * *

O ki qaldı, ““Artsax”ın qədim erməni torpağı” olması barədə oxunan nağıla, Qarabağın erməni sakinləri babalarının iki yüz əvvəl İrandan, Suriyadan, Rusiyadan, digər ölkələrdən bura köçürüldüyünü özləri etiraf edirlər. Məgər Oskanyan bu çılpaq tarixi həqiqəti bilmir? Yaxşı bilir! Sadəcə, görünür, onun öz babası naməlum səbəbdən o zaman “Qarabağa kütləvi köç”dən kənarda qalıb.

Deyilənlərə görə, qu quşu son dəqiqələrini yaşadığını duyanda özünün bu dünya ilə vida nəğməsini oxuyur. Təbii ki, bu nəğmə çox təsirli və qəmgin olur. İndi Oskanyanın Azərbaycanın tarixin arxivinə göndərdiyi ““Artsax” xalqının müstəqilliyi barədə oratoriyası” qu quşunun axırıncı nəfəsində ifa etdiyi nəğməsinə bənzəyir. Amma həmin musiqi parçası nə qədər monumental səslənsə də, fors-major sonluğu dəyişmək iqtidarında olmur...

*İ.HƏSƏNQALA*
**XQ**

# Şimali Koreya–Rusiya münasibətləri ABŞ-ı narahat edir



**ABŞ, Cənubi Koreya və Yaponiya liderlərinin milli təhlükəsizlik müşavirləri Vaşinqton, Seul və Tokio arasında hərbi-texniki əməkdaşlığı genişləndirmək və ümumi təhlükəsizliyə cavab tapmaq məqsədi daşıyan alyansın yaradılmasından sonra ilk görüşlərini keçiriblər. KXDR-in raket və kosmik proqramlarının kəskin artması, eləcə də Rusiya–Şimali Koreya əməkdaşlığının yüksəlişi nəzərə alınaraq, yeni hərbi ittifaq üçbucağı güc baxımından sınaqdan keçirilir. Görüşün əsas nəticəsi təhdidləri neytrallaşdırmalı və ABŞ və müttəfiqlərinə regionda liderliyini qoruyub saxlamağa imkan verməli olan qabaqcıl texnologiyalarda üstünlük əldə etmək qərarı olub.**

Prezident Co Baydenin Hind–Sakit okean siyasətini gücləndirmək üçün Seula uçan Ceyk Sallivanın tərəfdaşları Cənubi Koreya Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ço Tae-Yonq və Yaponiya Milli Təhlükəsizlik Şurasının katibi Takeo Akiba olub. Cənubi Koreyanın ABŞ-dakı səfiri Ço Hyun Donun sözlərinə görə, danışıqlarda iştirak edənlər “regiondakı geosiyasi risklərə, xüsusən də Şimali Koreyanın yaratdığı təhlükəyə cavab vermək üçün strategiya hazırlamalı idilər”. Cənubi Koreyalı diplomat noyabrın 21-də Şimali Koreyanın ilk kəşfiyyat peykinin uğurla orbitə buraxılmasını Pxenyanın sabitliyi pozan addımı adlandırıb. Koreyalı səfirin sözlərinə görə, bu, ABŞ, Cənubi Koreya və Yaponiya arasında təhlükəsizlik sahəsində əməkdaşlığın artırılması ehtiyacını daha da aktuallaşdırıb.

Şimali Koreyanın ilk kəşfiyyat peyki olan “Mulligen-1” in orbitə çıxması xəbəri Pxenyana ABŞ-ın Hind–Sakit Okean bölgəsindəki strateji hərbi obyektlərinin və hətta Ağ evin çəkilişini aparmağa imkan verib ki, bu da Vaşinqtonu və müttəfiqlərini ciddi şəkildə narahat edib və üçtərəfli ittifaqın üzvləri üçün son dərəcə xoşagəlməz bir sürpriz olub. Buna cavab olaraq Cənubi Koreya gərginliyi azaltmaq üçün 19 sentyabr 2018-ci il tarixli Koreyalararası razılaşmanın dayandırıldığını elan edib ki, bu da digər tədbirlərlə yanaşı sərhəd bölgələrində kəşfiyyat təyyarələrinin uçuşlarına məhdudiyyətlər də daxildir. Bundan sonra Pxenyan özünü bu razılaşma ilə bağlı hesab etmədiyini açıqlayıb və 5 il əvvəl partladılmış silahsızlaşdırılmış zonada mühafizə postlarını bərpa etməyə, həmçinin hərbi hissələri və ağır silahları oraya köçürməyə başlayıb.

Seulda olarkən Ceyk Sullivan Cənubi Koreyalı həmkarı Ço Tae Yonqla 2018-ci il müqaviləsinin dayandırılmasını dəstəkləyərək ayrıca görüş keçirib. O, bu addımı “Şimali Koreya tərəfindən sazişlərin və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin pozulmasına cavab olaraq balanslaşdırılmış, təmkinli qərar” adlandırıb. Eyni zamanda, o, ABŞ-ın bu gün Cənubi Koreyanı qorumaq üçün verdiyi vədlərə həmişəkindən daha çox sadiq olduğunu vurğulayıb.

Öz növbəsində, Seulda danışıqlar aparanları qəbul edən Cənubi Koreya prezidenti Yun Sok Yol ABŞ Prezidenti Co Bayden və Yaponiyanın Baş naziri Fumio Kişida ilə birlikdə yeni hərbi ittifaq üçbucağının yaradılması ilə bağlı razılığa gəlib, bu təşəbbüsün aktuallığını xüsusilə qeyd edib.

Şimali Koreyanın Rusiyaya iddia olunan silah və sursat ötürməsi mövzusu Rusiyanın müdafiə naziri Sergey Şoyqunun iyulda Pxenyana səfərindən sonra son aylar Qərb siyasətçiləri, ekspertləri və mediası tərəfindən aktiv şəkildə müzakirə olunub. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova əvvəllər dəfələrlə Qərb ölkələrinin Rusiya və Şimali Koreya arasında hərbi-texniki əməkdaşlıqda ittihamlarının əsassız olduğunu vurğulayıb.

**S.ELAY**
**XQ**

# Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

## 2024-cü il üçün Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Lot -1. 2024-cü il üçün Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki,öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs- Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı 12000,00 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Təşkilat-Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h-AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə; - tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi; - tender təklifi (zərfləin açıldığı tarixdən sonra azı 120 bank günü müddətində qüvvədə olmalıdır); - tender təklifinin 1 faizi həcmində bank təminatı;

- tender təklifi təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;

- müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı 5 faizdir;

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd;

- mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə olunduqda notarial təsdiqli təqdim edilməlidir);

- pul vəsaitlərinin hərəkəti haqqında hesabat, mənfəət və zərər haqqında hesabat (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq olunmalıdır);

- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;

- iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;

- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

- dövlət satınalmaları müsabiqəsində son 3 ildə iştirak etmiş oxşar işlərə aid azı 5000000 manat dəyərində bağlanmış müqavilələrin surəti (təsdiqli formada);

- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin,habelə işlərini idarə edənlərin,qulluqçularının peşəkar fəaliyyətləri,yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması,yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;

- tədarük-təchizat zəncirinin idarə olunması üçün müvafiq kadr imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən – əlavə 2);

- mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olması barədə məlumat.

- AZS İSO sertifikatları : 9001, 14001, 45001, 50001.

- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması barədə sənəd.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 8 yanvar 2024-cü il saat 10.00-a, tender təkliflərini və tender təkliflərinin təminatlarını möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana 16 yanvar 2024-cü il saat 17.00-a qədər təqdim etməlidirlər.

İddiaçıların təklifləri 17 yanvar 2024-cü il saat 10.00-da Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

## ASCO-nun tabeliyindəki idarələrə tələb olunan məişət avadanlıqlarının təmiri xidmətlərinin (mal-material və işçi qüvvəsi ilə birlikdə ) satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il dekabrın 21-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

# “Bakı İxtisaslaşdırılmış Nəqliyyat” ASC səhmdarlarının nəzərinə!

“Bakı İxtisaslaşdırılmış Nəqliyyat” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 12 yanvar 2024-cü il saat 10.30-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Müşahidə şurasının, cəmiyyətin sədrinin və təftiş müfəttişinin yenidən seçilməsi.

2. Digər məsələ.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə bağlı sənədlərlə hər həftənin iş günləri, saat 13.00-dək tanış ola bilərlər.

Əlaqə telefonu- 051 – 306 – 66 – 98.

Ünvan- Bakı şəhəri, Nizami rayonu H.Əliyev prospekti, 3-cü kəsişmə küçəsi.

# “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 Saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxsi

## “Qubadlı rayonu, Mahruzlu kənd yaşayış məntəqəsində 2, 3, 4 və 5 otaqlı fərdi yaşayış evlərinin tikintisi ” işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs – Satınalmalar şöbəsinin baş məsləhətçisi – Zaur İbrahimov.

E-mail: zaur.ibrahimov@shzbti.gov.az

Tel: + 994512078998.

Tenderdə iştirak haqqı 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxs

VÖEN – 5200287501
BANK – “KAPİTAL BANK” ASC-nin 28 may filialı
Kod – 200123
VÖEN – 9900003611
M/h – AZ37NABZ01350100000000001944
H/h – AZ31AIIB380300D9447648156112
S.W.İ.F.T. – AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

•Tenderdə iştirak etmək üçün ərizə.

•İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

•Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü ərzində qüvvədə olmalıdır).

•Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

•Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri.

•Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).

•Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

•Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

•İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).

•Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

•Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

•Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

•Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.

•Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiqlənmiş surəti təqdim edilməlidir).

•Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları.

•Baş podratçı kimi son 3 il (2019-cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində ümumi məbləği 30 (otuz) milyon manatdan az olmayan, müraciət edənin hissəsi isə ən azı 15 (on beş) milyon olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq – layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 3 (üç) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və istismara qəbul və icazə aktları təqdim edilməlidir.

•Son üç (2019-cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində tikinti-quraşdırma işləri üzrə ən azı 30 (otuz) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər. Qeyd – tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 15 dekabr 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 25 dekabr 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin satınalma şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti”ndə 26 dekabr 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

# “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 Saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxsi

## “Qubadlı rayonu, Zilanlı kənd yaşayış məntəqəsində 2, 3, 4, 5 otaqlı fərdi yaşayış evlərinin tikintisi ” işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs – Satınalmalar şöbəsinin baş məsləhətçisi – Zaur İbrahimov.

E-mail: zaur.ibrahimov@shzbti.gov.az

Tel: + 994512078998.

Tenderdə iştirak haqqı 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxs

VÖEN – 5200287501
BANK – “KAPİTAL BANK” ASC-nin 28 may filialı
Kod – 200123
VÖEN – 9900003611
M/h – AZ37NABZ01350100000000001944
H/h – AZ31AIIB380300D9447648156112
S.W.İ.F.T. – AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

• Tenderdə iştirak etmək üçün ərizə.

• İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

• Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü ərzində qüvvədə olmalıdır).

• Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

• Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri.

• Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).

• Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).

• Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.

• Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiqlənmiş surəti təqdim edilməlidir).

• Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları.

• Baş podratçı kimi son 3 il (2019-cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində ümumi məbləği 30 (otuz) milyon manatdan az olmayan, müraciət edənin hissəsi isə ən azı 15 (on beş) milyon olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq – layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 3 (üç) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və istismara qəbul və icazə aktları təqdim edilməlidir.

• Son üç (2019-cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində tikinti-quraşdırma işləri üzrə ən azı 30 (otuz) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər. Qeyd – tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 15 dekabr 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 25 dekabr 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin satınalma şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti”ndə 26 dekabr 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 271 (30387) 12 dekabr 2023-cü il, çərşənbə axşamı

# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

**2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!**




Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

İdman xəbərləri

## Taekvondoçumuzun Avropa bürüncü

**Azərbaycan taekvondoçusu Zemfira Həsənzadə 21 yaşadək idmançılar arasında Avropa çempionatında bürünc medal qazanıb.**




Azərbaycan Taekvondo Federasiyasından “XQ”yə bildiriblər ki, 46 kiloqram çəki dərəcəsində mübarizə aparan yığma üzvü ilk döyüşündə finlandiyalı Ada-Emilya Tammilanı məğlub edib. O, ardınca Giulia Qalero (İtaliya) və Melina Georgiouya (Yunanıstan) da qalib gələrək yarımfinala yüksəlib. Taekvondoçumuz bu mərhələdə ispaniyalı Sofia Qarsiyaya uduzaraq Avropa çempionatını 3-cü yerdə başa vurub.

## Hind şahmatçı Qəbələ qalibi oldu




**İlk dəfə Qəbələdə təşkil edilən şahmat üzrə “Vüqar Həşimov Memorial-2023” superturnirinə yekun vurulub.**

Turnirin mətbuat xidmətindən verilən məlumata görə, Heydər Əliyev Konqres Mərkəzində şahmatçılar bu gün 18 blits partiyada mübarizə aparıblar.

İlk gedişi Vüqar Həşimovun ailə üzvləri Ayxan Həşimov və Xanlar Allahverdiyev edib.

Rapid və blits yarışının yekun nəticəsində ümumilikdə 22 xal toplayan Hindistan təmsilçisi Vidit Santoş Qujrati turnirin qalibi adını qazanıb.

## Azərbaycan vəkilləri “Siciliya Kuboku”nu qazandı

**İtaliyanın Kataniya şəhərində keçirilmiş futbol üzrə “Siciliya Kuboku 2023”də uğurla çıxış edən Azərbaycan vəkilləri qızıl medal qazanıblar.**



Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvləri A qrupunda indoneziyalı həmkarlarına 7:2, İran kollektivinə isə 5:1 hesabı ilə qalib gəlsələr də, rumıniyalılara uduzub (5:1), xorvatlarla (2021 və 2022-ci ilin çempionları) heç-heçə (3:3) ediblər. Səkkizdəbir finalda braziliyalılara 2:3 hesabı ilə yenilən komandamız 1/4 mərhələyə keçə bilməyən ən yaxşı 4 komandadan biri olaraq “Siciliya Kuboku 2023” turnirində yarımfinal oyununa çıxıb.

Finala gedən yolda İtaliyanın “Criminal Lawyers” klubuna 5:0, həlledici matçda isə “Altra Lex”ə 2:1 hesabı ilə qalib gələn yığmamız qızıl medala sahib çıxıblar.

Xatırladaq ki, 2022-ci ildə Mərakeşdə keçirilmiş dünya çempionatında Azərbaycanın vəkil və hüquqşünasları bürünc medal qazanmışdı.

*Leyla SABİRQIZI*
*XQ*

Kinematoqrafiya

## Semih Kaplanoğlu qonağımızdır

**Dekabrın 11-də Mədəniyyət Nazirliyində tanınmış türkiyəli kinorejissor və ssenarist Semih Kaplanoğlu ilə görüş təşkil olunub. Tədbirdə mədəniyyət nazirinin müavini Səadət Yusifova, nazirin müşaviri, Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) baş direktoru vəzifəsini icra edən Orxan Fikrətoğlu iştirak ediblər.**



Söhbət zamanı ARKA-nın təşkil etdiyi film layihələri, müsabiqənin nəticələri, Türkiyə ilə kino sahəsində əməkdaşlıq məsələlərinə dair fikirlər mübadiləsi aparılıb... Söhbət zamanı ARKA-nın təşkil etdiyi film layihələri, müsabiqənin nəticələri, Türkiyə ilə kino sahəsində əməkdaşlıq məsələlərinə dair fikirlər müzakirə olunub.

Semih Kaplanoğlunun rəhbərliyi ilə həyata keçirilən ssenari inkişaf proqramının əhəmiyyəti vurğulanıb, müsabiqə zamanı təkmilləşdirilməsi məqsədilə bu proqrama yönləndirilmiş ssenarilər üzərində iş prosesindən bəhs olunub.

Qeyd edək ki, Semih Kaplanoğlu daha çox “Bal”, “Süd” və “Yumurta” filmlərindən ibarət “Yusif” trilogiyası ilə tanınır. Bu ekran əsərləri bir sıra beynəlxalq festivallarda mükafata layiq görülüb.

*FİDAN*
*XQ*

Teatr

## Dohada “1001” gecə

**Qətərin paytaxtı Dohada Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, beynəlxalq müsabiqələr laureatı, Əməkdar artisti Əyyub Quliyevin rəhbərliyi ilə Mariinski Teatrının böyük simfonik orkestri və bu teatrın Primorski filialının balet truppasının iştirakı ilə dahi Azərbaycan bəstəkarı Fikrət Əmirovun “1001 gecə” baletinin möhtəşəm tamaşaları gerçəkləşib.**



Mariinski Teatrının baş baletmeysteri, Rusiyanın Əməkdar incəsənət xadimi Eldar Əliyevin quruluş verdiyi baletdə prima balerinalar Anna Samostrelova, Liliya Berejnova, premyer rəqqaslar Sergey Umanets və Viktor Mulıqin, Yuriy Zinnurov, Saki Nisida və Arina Naqase (Yaponiya), Lada Sartakova, Aleksandra Şalimova və digər uldular iştirak ediblər.

Dörd gün davam edən hər tamaşanın sonunda dinləyicilər azərbaycanlı dirijoru və balet iştirakçılarını sürəkli alqışlarla ayaq üstə qarşılayıblar. Simfonik orkestrlə bərabər Larisa Şeyvkovskayanın rəhbərliyi ilə qadın xoru və istedadlı opera müğənniləri Anastasiya Kikot və Alina Mixaylikinin (soprano) iştirakı tamaşalara xüsusi rəng qatıb. Bəstəkar Fikrət Əmirovun əsərdə istifadə etdiyi musiqi alətləri sırasında Azərbaycan xalq çalğı aləti olan tarın ifası isə Mariinski teatrın 100 nəfərlik orkestrinə xüsusi kolorit və zənginlik bəxş edib. Belə ki, iki ölkənin tarzənləri Ramin Əzimov və Nadejda Medvedevanın ifası yerli dinləyicilər tərəfindən alqışlarla qarşılanıb. 200 nəfərlik heyətlə Dohaya səfər edən Mariinski Teatrının tamaşalarında Qətər əmirinin ailə üzvləri, ölkənin tanınmış siyasi və biznes rəhbərləri, ictimaiyyət nümayəndələri, Azərbaycanın Qətərdəki diplomatik missiyasının nümayəndələri iştirak ediblər.

*XQ*

Elm

## Kral “ilin nobelləri”ni təqdim etdi

**İsveç Kralı XVI Karl Qustaf Stokholm Filarmoniyasında tibb, fizika, kimya, ədəbiyyat və iqtisadiyyat üzrə Nobel mükafatlarını təqdim edib.**



Mərasimi giriş sözü ilə açan Nobel Fondunun İdarə Heyətinin sədri Astrid Söderberq Viddinq qeyd edib ki, azad fundamental tədqiqatlar vasitəsilə elm insan biliklərinin sərhədlərini genişləndirir, gözlənilməz gələcək hadisələrə hazırlığı təmin edir.

S.Viddinq mükafatın yaradıcısını da xatırladıb: “O, dünyanı bəşəriyyətin rifahı naminə dəyişdirmək üçün elmin, ədəbiyyatın və sülh fəaliyyətinin bənzərsiz gücünə inanırdı. Bütün bunlarda beynəlxalq əməkdaşlıq və biliyə hörmət əsasdır”.

Qeyd edək ki, Nobel Komitəsi sədrinin açılış nitqindən sonra 2023-cü il laureatları ənənəvi olaraq tər çiçəklərlə bəzədilmiş səhnəyə çıxaraq qızıl medallarını və fərdi diplomlarını qəbul ediblər.

*XQ*

Sağlamlıq

## Şüyüd çayı iç, ağrıları biç

**Qədim zamanlardan şüyüd müalicəvi məqsədlərdə çox geniş istifadə olunub. Ondan ətirli və dadlı göyərti kimi xörəklərdə, salatlarda bol-bol istifadə edilib. Şüyüdün toxluq hissi yaradan xüsusiyyəti var. Pəhriz həkimlərinin fikrincə, şüyüddən çox faydalı və dadlı müalicəvi çay da hazırlamaq olar**



Bu çay həzmi yaxşılaşdırır, orqanizmi köpdən azad edir. Hətta yeni doğulmuşlara həkimlər şüyüd çayı tövsiyə edirlər. Qəbizlik zamanı böyük faydası olan çay, həm də, daxili orqanları, xüsusən, bağırsaqları ziyanlı maddələrdən təmizləyir. Şüyüd çayı yeməklə (çox yağlı, qızarmış, duzlu) bağlı artan təzyiqi aşağı salır. Bronxların soyuqlaması zamanı xüsusilə təsirlidir. Quru öskürəyi yumşaldır, həmçinin nəfəs yollarını mikroblardan və selikdən təmizləyir. Şüyüd çayının sidikqovucu təsiri də var. Eyni zamanda, sidik yollarını təmizləyir.

Şüyüd çayını hazırlamaq çox asandır. Bunun üçün 1 xörək qaşığı xırda doğranmış şüyüd götürülür və 1 stəkan isti (qaynar olmaz) suda 30 dəqiqə ərzində dəmlənilir. Sonra süzülür və gündə 3 dəfə stəkanın 1/3 hissəsi miqdarında içilir. Çaya bal və limon əlavə etmək olar. Bu, onun faydasını daha da artırır.

*Z.HÜSEYNLİ*
*XQ*

Hava

## Çətirlərinizi götürün



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, dekabrın 12-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək.**

Gecə 5-7°, gündüz 7-10° isti olacaq. Atmosfer təzyiqi 771 mm civə sütunundan 766 mm civə sütununa enəcək, nisbi rütubət 75-85 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi rayonlarda duman olacaq Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 6-10° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 0-5° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

“Azərsu” ASC-nin kollektivi səhmdar cəmiyyətin BRP sistemlərinin koordinasiyası və analitik hesabatlar şöbəsinin rəisi Toğrul Allahverdiyevə anası

**QARAQIZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Əliyevlər ailəsinə əzizləri

**YAŞAR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hidayət, Flora, Səhər, Zəfər Orucovlar Rəna, Rüfət, Səbinə, Təranə Əliyevlərə və Siyavuş Novruzova əzizləri

**YAŞAR ƏLİYEVİN**

vəfatından hədsiz kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya atası

**YAŞAR ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3273
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00